**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ
NAXÇIVAN DÖVLƏT TEXNİKİ KOLLECİ**

# NAXÇIVAN DÖVLƏT TEXNİKİ KOLLECİ 100 İLLİK TARİX

*25 fevral 1925 – 25 fevral 2025*

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin Pedaqoji Şurasının 25 aprel 2025-ci il tarixli qərarı ilə (Protokol № 04) çapa tövsiyə olunmuşdur.*

**NAXÇIVAN - 2025**

**Baş redaktor:** **Asəf Əyyub oğlu Ruşanov**

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru*

**Redaktorlar:** **Səadət Yaşar qızı Qasımova**

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin Azərbaycan dili və ədəbiyyat müəllimi*

**Sərvər Tahir oğlu Əliyev**

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin Azərbaycan dili və ədəbiyyat müəllimi*

**Tərtib edənlər:** **Gülnar Hünər qızı Niftəliyeva**

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin tarix müəllimi*

**Aytən Yaqub qızı Hüseynova**

*Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin tarix müəllimi*

**Rəyçilər:** **Xəzər Allahverdi oğlu Hüseynov**

*Tarix elmləri doktoru, professor*

**Sevinc Zakir qızı Abbasova**

*Tarix elmləri doktoru, professor*



*"Təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır".*

***HEYDƏR ƏLİYEV***

***Azərbaycan xalqının Ümummilli Lideri***



*"Təhsil ölkəmizin ümumi inkişafına uyğun şəkildə inkişaf etməlidir və ən müasir tələblərə cavab verməlidir".*

***İLHAM ƏLİYEV***

***Azərbaycan Respublikasının Prezidenti***

## MÜNDƏRİCAT

**ÖN SÖZ**........................................................................................... 6

**GİRİŞ**.............................................................................................. 8

**I BÖLMƏ.** XX əsrin 20-30-cu illərində Naxçıvanda təhsil...................... 10

**II BÖLMƏ.** XX əsrin əvvəllərində kənd təsərrüfatı və kollecin yaranmasına zəmin............................................................................... 17

**III BÖLMƏ**. Kollecin inkişaf tarixi...................................................... 23

**IV BÖLMƏ**. Kollecin fəxri məzunları................................................... 50

**V BÖLMƏ**. XXI əsrdə kollec və onun inkişaf istiqaməti......................... 69

**VI BÖLMƏ**. Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kolleci.................................................................................. 80

**NƏTİCƏ**........................................................................................... 99

**ƏDƏBİYYAT**................................................................................. 104

## ÖN SÖZ



Zəngin tarixi, möhkəm elmi-texniki ənənələri və cəmiyyətə verdiyi dəyərli töhfələrlə Naxçıvan Dövlət Texniki Kolleci bir əsrlik möhtəşəm yolun zirvəsindədir.

Bu kitab – "Naxçıvan Dövlət Texniki Kolleci – 100 illik tarix" sadəcə bir təhsil müəssisəsinin deyil, həm də xalqımızın maariflənmə, inkişaf və yenilənmə yolundakı addımlarının canlı salnaməsidir.

25 fevral 1925-ci ildən fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci ötən 100 ildə Naxçıvan Muxtar Respublikasının ixtisaslı kadrlarla təmin olunmasında əzmlə çalışıb.

1925-ci ildə əsası qoyulan bu elm ocağı zaman-zaman müxtəlif adlarla fəaliyyət göstərmiş, lakin hər dönəmdə öz təyinatına sadiq qalaraq regionun texniki və peşə təhsilinin əsas dayaqlarından birinə çevrilmişdir.

Əsrlik bu yolda kollecin minlərlə məzunu ölkəmizin müxtəlif sahələrində – mühəndislikdən tutmuş sənayeyə, nəqliyyatdan rabitəyə qədər mühüm rol oynamış, bilik və bacarıqları ilə Azərbaycan Respublikasının inkişafına xidmət etmişlər.

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecinin tarixinə nəzər saldığımız zaman görürük ki, kollec bu 100 ildə keşməkeşli bir yol keçmiş, müxtəlif dövrlərdə bu təhsil ocağı fərqli adlar altında fəaliyyət göstərmişdir. 1925-ci ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi fəaliyyətə başlayan kollec, nəhayət, 2002-ci ildən Naxçıvan Dövlət Texniki Kolleci adını almışdır.

Kolleclər qısa zaman ərzində praktiki bacarıqların əldə olunmasında çox mühüm rol oynamışdır. 2023-cü ildən Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci muxtar respublikada, o cümlədən respublikamızın digər bölgələrində həm iqtisadi, həm texniki, həm də aqrar sahənin inkişafı üçün 13 ixtisas üzrə kadr hazırlığı aparır. Bu ixtisaslar regionun müxtəlif sahələrində kadr ehtiyacının ödənilməsinə və yerli mütəxəssislərin yetişdirilməsinə xidmət

edir. Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci müəllim və tələbə heyəti ilə birlikdə peşəkar ixtisaslaşma, texniki biliklər və praktiki bacarıqların inkişafını təmin etməyə yönəlmiş, tədris proqramı müasir təhsil standartlarına uyğun qurulmuş və tələbələrin praktiki biliklərinin artırılması istiqamətində əsaslı addımlar atılmışdır. Kollecin Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərməsi tələbələrin daha yaxşı bilik əldə etməsi üçün geniş imkanlar yaratmışdır.

Bu gün kollec müasir texnologiyaların tətbiqi və innovasiyaların öyrənilməsi, texniki təhsilin keyfiyyətinin artırılması istiqamətində əsaslı addımlar atmaqdadır. Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci bir sıra aspektləri özündə cəmləşdirmişdir:

- təhsil və peşə hazırlığı;
- sosial inkişaf;
- tədqiqat və innovasiya;
- iqtisadi təsir;
- davamlı təhsil və s.

2025-ci ildə 100 ili tamam olan bu təhsil müəssisəsinin 100 illik yubileyi ilə əlaqədar qələmə alınmış "Naxçıvan Dövlət Texniki Kolleci – 100 illik tarix" adlı bu kitab kollecin tarixi ilə maraqlananlar üçün önəmli bir vasitədir.

Əlinizdə tutduğunuz bu nəşr sadəcə keçmişə baxış deyil, o həm də gələcəyə ünvanlanmış bir çağırışdır. Burada arxiv materialları, məzun və müəllim xatirələri, tarixi fotolar və sənədlərlə zəngin olan məzmun oxucuya bu mötəbər təhsil müəssisəsinin keçdiyi yolu dərindən anlamağa imkan verir. İnanırıq ki, bu əsər həm elmi mənbə, həm də gənc nəsil üçün ilhamverici bir vəsait olacaqdır. Bir əsrlik tarixə söykənən bu təhsil ocağının qarşıdakı illərdə də uğurlarının davamlı olacağına, yeni nailiyyətlərə imza atacağına inamımız sonsuzdur. Naxçıvan Dövlət Texniki Kollecinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, kollecin parlaq gələcəyi naminə hər bir üzvünə uğurlar arzulayırıq!

***Elbrus İSAYEV***

***Naxçıvan Dövlət Universitetinin rektoru***

# GİRİŞ

1920-ci ilin aprel çevrilişindən sonra Azərbaycanda Sovet rejiminin qurulması ilə təhsil sistemində əsas məqsəd Sovet Rusiyasının müstəmləkə sisteminə sədaqətli gənclər yetişdirmək və iqtisadi sahəni inkişaf etdirmək üçün savadlı, yerli kadrlar hazırlamaq idi. Belə bir rejimdə təhsil sisteminin inkişafı sahəsində ilk tədbirlər savadsızlıqla mübarizə kampaniyalarının yaradılması idi. Həmçinin dövrün tələblərinə uyğun olaraq kənd təsərrüfatının inkişafı əsas amillərdən birinə çevrilmişdir. Əlbəttə ki, Sovet Rusiyasının dövründə istər kəndlilərin, istərsə də onların sahib olduqları pay torpaqları haqqında müəyyən islahatların keçirilməsi onların sahibkarlıq mövqeyini müəyyənləşdirmişdir. Bu baxımdan doğma diyar Naxçıvanda da kənd təsərrüfatı sahəsini inkişaf etdirmək üçün 25 fevral 1925-ci ildə Naxçıvan Muxtar Respublikasının IV Sovetlər qurultayında "Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılması haqqında" qərar verildi və həmin texnikum fəaliyyətə başladı. Həmin dövrdə kənd təsərrüfatına maraq olduğu üçün texnikuma tələbat olduqca artmışdır. Dövrün tələblərinə uyğun olaraq təhsil alanlar sırasında kişilərin sayca çoxluğu müşahidə olunurdu.

Əlbəttə ki, Naxçıvanda fəaliyyətə başlayan yeni təhsil ocağı müəyyən istiqamətlərdə inkişaf etmiş və həmin dövrə uyğun olaraq genişmiqyaslı olmuşdur. Buna baxmayaraq, Sovet Rusiyasının həyata keçirdiyi repressiyanın dalğası hesab olunan kollektivləşdirmə siyasəti ortabab kəndlilər olan "qolçomaqları" bir sinif kimi məhv etmiş və kənd təsərrüfatına olduqca ziyan vurmuşdur. Bundan sonrakı tarixə nəzər salsaq, görə bilərik ki, kollektivləşdirmə siyasətinin nəticəsi texnikumun fəaliyyətində bir sıra məhdudiyyətlərin olmasına gətirib çıxarmışdır.

1971-ci ilin sentyabr ayına qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumu fəaliyyətini davam etdirmiş və həmin ildə Naxçıvan Sovxoz Texnikumu adını almışdır.

1925-ci ildə yaradılan texnikum Babək rayonunun Şıxmahmud kəndinə köçürülərək toxumçuluq sovxozu ilə birləşdirilmiş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə adına "Naxçıvan Sovxoz Texnikumu" adını almışdır. Həmin

dövrdə, əlbəttə ki, texnikum öz fəaliyyətini layiqincə davam etdirmiş və 1990-1991-ci tədris ilinədək Şıxmahmud kəndində fəaliyyət göstərmişdir.

Fəaliyyət göstərdiyi dövrdə aqrar sahənin inkişafı baxımından bir sıra addımlar atılmışdır. Sonrakı dövrlərə nəzər salsaq, görərik ki, aqrar islahatların keçirilməsi və ictimai təsərrüfatların ləğv olunması ilə əlaqədar texnikum 1991-ci ilin sentyabr ayında Naxçıvan şəhərində yerləşən tələbə yataqxanasına köçürülmüş və Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adlandırılmışdır. Növbəti olaraq texnikum 03 may 1997-ci ildən 11 sentyabr 1999-cu ilədək Naxçıvan Aqrar Sənaye Kolleci, 15 sentyabr 1999-cu ildən 25 oktyabr 2002-ci ilədək yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, 26 avqust 2002-ci ildən isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 140 nömrəli Qərarı ilə Naxçıvan Dövlət Texniki Kolleci adlandırılmışdır. Muxtar respublikanın sayılıb-seçilən təhsil ocaqlarından biri olan kollec 2000-ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin, 2012-ci ildən isə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyinə verilmiş və kollecin fəaliyyət istiqamətləri genişlənmişdir.

Kollec 2023-cü ildən Naxçıvan Dövlət Universitetinin nəzdinə verilmişdir. Universitetin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci müəyyən istiqamətdə inkişaf edir və təhsil sistemində uğurlu nailiyyətlərin göstərilməsində mühüm addımlar atır.

Naxçıvan Dövlət Texniki Kollecinin bu günədək 50000 nəfər məzunu olmuşdur. Kollecin məzunları sırasında Azərbaycan Respublikasının tanınmış elm xadimləri: akademik Həsən Əliyev, akademik Həsən Abdullayev, professor Yunis Səfərov, professor Hacı Hacıyev, professor Paşa Zamanov, Sovet İttifaqı Qəhrəmanlarından: Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Sosialist Əməyi Qəhrəmanlarından: Məmməd Əsgərov və Narı Quliyeva olmuşlar.

25 fevral 2025-ci ildə Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin yaradılmasının 100 ili tamam olmuşdur. Bu kitab tarixi ədəbiyyatlar və Dövlət Arxiv Fondundan əldə olunmuş məlumatlar əsasında hazırlanmış və kollecin yaranmasının 100 illik yubileyinə həsr olunmuşdur.

# I BÖLMƏ

# XX ƏSRİN 20-30-CU İLLƏRİNDƏ NAXÇIVANDA TƏHSİL

Azərbaycan xalqının müasir iqtisadi, mədəni və mənəvi potensialının güclənməsində, yüksək intellektə malik bir millət kimi formalaşmasında, zəngin ənənələrə malik təhsil sistemi mühüm rol oynamışdır.

Azərbaycan Respublikasının Prezidentinin qeyd etdiyi kimi, "Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir. Azərbaycan müəllimləri tarix boyu təhsildə daim varisliklə novatorluğun, ənənə ilə islahatın vəhdətini öz fəaliyyətlərində əks etdirmişlər".

Bəzi ədəbiyyatlarda qeyd edilir ki, guya Azərbaycanda 1917-ci ilin oktyabr çevrilişinə qədər təhsil sistemi olmayıb. Bu tamamilə səhv fikirdir. Odlar Yurdu – Azərbaycan  bu vaxta qədər dünyaya çoxlu alimlər bəxş edib. Əlbəttə ki, doğma yurdumuz olduqca mədəni nailiyyətlər qazanmış, xalqımızın çox qədim maarifçilik ənənələri olmuşdur. Azərbaycan ərazisində 1917-ci ilin oktyabr çevrilişindən əvvəl sənayenin inkişafı ilə əlaqədar digər sahələrdə olduğu kimi, təhsil sistemində də bir sıra inkişaflar müşahidə edilirdi. Dövrün tələblərinə, məqsədlərinə uyğun olaraq, yeni məktəblər, liseylər, gimnaziyalar açılmışdır. İstər iqtisadi, istərsə də sənaye burjuaziyası öz ehtiyaclarını ödəmək və azərbaycanlı gənclərin təhsil alması üçün dünyanın inkişaf etmiş ölkələrinə göndərilirdilər. Milli burjuaziya ölkədə elmin, mədəniyyətin, təhsilin inkişafına kömək edirdi. Əlbəttə ki, xalqın maariflənmə prosesi də əsas amillərdən birinə çevrilmişdir.

1917-ci ilə qədər Naxçıvan diyarı Rusiyanın uzaqlaşdırılmış, geridə qalmış ucqar ərazisi kimi qəbul edilirdi. Yazmağı və oxumağı bacaranların ümumi sayı bütün əhali kütləsinin 3,37 faizini təşkil edirdi. 1918-1920-ci illərdə xarici müdaxiləçilərin və daşnakların həmlələri nəticəsində Naxçıvan diyarı son dərəcə ağır günlər keçirmiş, bir çox mədəniyyət, maarif ocaqları dağıdılmışdır. Bunun nəticəsində isə 1920-ci ildə əhalinin savadlılıq faizi daha da aşağı enmişdir (2,5 faizə enmişdir).

1920-ci ildə Azərbaycan ərazisində Sovet hakimiyyəti quruldu. Azərbaycanın Sovet Sosialist Respublikası qurulduqdan sonra təhsil sistemində əsas məqsədi “sovet adamı”nı formalaşdırmaq və sovet ideologiyasını yaymaq olsa da, başlıca məsələlərdən biri isə yeni sovet məktəbi yaratmaq idi. Çünki Azərbaycanda sənaye və digər sahələrin inkişafı, ixtisaslı yerli kadrların hazırlanmasını tələb edirdi. Fəaliyyətə başlayan sovet məktəblərində daha çox marksizm və leninizm ideyaları öz əksini tapırdı. Azərbaycanda, eləcə də Naxçıvanda Sovet hakimiyyəti qurulduqdan dərhal sonra dövlət savadsızlığın ləğv olunması uğrunda mübarizəni genişləndirdi. Naxçıvan İnqilab Komitəsinin tərkibində Xalq Maarif Şöbəsi yaradıldı. Bu şöbəyə Əbdüləzim Rüstəmov rəhbərlik edirdi. Şöbənin ən vacib məsələlərindən biri savadsızlığın ləğv olunmasında axşam kurslarının açılışı idi.

Naxçıvan Xalq Maarif Komissarlığının yaranması ilə savadsızlığın ləğv olunması məsələsi Baş Siyasi Maarif Komissarlığına həvalə edildi və burada savadsızlığın ləğv olunması məsələləri ilə məşğul olan xüsusi şöbə yaradıldı. Naxçıvan İnqilab Komitəsinin 5 avqust 1920-ci il tarixli qərarı ilə Naxçıvan ərazisində mövcud olan xalq maarifinin bütün orqan və vəzifələri ortadan qaldırıldı.

1920-ci ilin avqust ayında yaradılan Naxçıvan İnqilab Komitəsinin tərkibində elə həmin ilin oktyabr ayında Xalq Maarif şöbəsi yaradıldı. İnqilab Komitəsi bu şöbənin müdiri Əbdüləzim Rüstəmova tapşırdı ki, müəllimlər toplansın, uşaqların məktəb təlimi təzələnsin və böyüklər üçün axşam kursları açılsın. Lakin savadsızlığın ləğv olunmasına dair konkret tədbirlərin qəbul edilməsinə baxmayaraq, 1921-ci ilin ilk aylarında respublikada ümumi şagird sayı 68 kişidən ibarət olan iki kurs açılmışdır. Kişilərin sayının sayca çox olmasında əsas səbəb həmin dövrdə qızların təhsil almasında önə çıxan məhdudiyyətlər idi.

Qeyd etmək lazımdır ki, Azərbaycanın bir sıra bölgələrində qızların təhsil almasına qarşı çıxmaq məqsədilə müəllimlərə qarşı çıxışlar da baş tutmuşdur. Lakin buna baxmayaraq, qadınlar arasında savadsızlığın ləğv olunmasına da ciddi diqqət ayrılırdı. Ölkənin spesifik şəraitlərini nəzərə alaraq azərbaycanlı qadınlar arasında savadsızlığın ləğv olunması üçün xüsusi məktəblər təşkil olundu. 1923-cü ilin yanvar ayında AK(b)P

Naxçıvan Vilayət Komitəsi Rəyasət Heyətinin iclasında "Qadınlar üçün məktəb açılması haqqında" xüsusi məsələyə baxıldı. Qəbul olunmuş qərarda göstərilirdi: "Naxçıvan MSSR Xalq Maarif Komissarlığına tapşırılsın ki, 1 mart 1923-cü ildən Naxçıvan şəhərində qadınlar arasında savadsızlığın ləğv olunması üçün məktəb açılsın. Xalq Maarif Komissarlığının əmri ilə iş üçün qadınlar arasından aşağıdakı müəllimlər seçilmişdir: Fatma Hacılı, Tərlan Qazibəyova, Fatma Rəhimova, Qəmər Tağızadə, Susan Saturova, Xanım Vəzirova, Siddiqə Bağırova, Məsumə Bektaşova, Rübabə Hacıyeva və başqaları. Mədəni quruculuq işinin təşkilini öz üzərinə götürən ÜK(b)P-nın XVI qurultayından sonra savadsızlığın ləğv olunması uğrunda mübarizə daha da gücləndirildi.

1924-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradıldıqdan sonra da təhsil sistemində bir sıra yeniliklər olmuşdur. Əhalinin ümumi savad səviyyəsinin yüksəldilməsi və gələcək mədəni inkişaf məqsədilə Naxçıvan MSSR-də bir sıra ümumtəhsil kursları, yaşı ötmüşlər üçün kurslar, kolxoz kursları və s. təşkil olunmuşdur.

Kənd təsərrüfatının aparıcı olduğu bir dövrdə yaradılan təhsil ocaqlarında kənd təsərrüfatının ictimai-iqtisadi vəziyyəti haqqında hazırlanmış proqramlar əsasında tədris müəyyən olunmuş şəkildə həyata keçirilirdi. 1925-ci ildə nəşr olunmuş proqramda 3 bölmənin – təbiət, zəhmət və ictimaiyyətin kompleksli şəkildə öyrənilməsi irəli sürülmüşdür. Təhsil sahəsində gənc nəslin təhsil alması üçün müəyyən dərəcəli məktəblər yaradılmışdır və hər birində özünəməxsus proqram əsasında tədris həyata keçirilirdi. Azərbaycanda, eləcə də Naxçıvanda yeni məktəb tikintisində 1922-ci ildə Xalq Maarif Komissarlığı Kollegiyası tərəfindən təsdiq olunmuş yeni "Azərbaycan SSR I dərəcəli əmək məktəbləri haqqında əsasnamə" böyük rol oynamışdır. Məsələn, I dərəcəli məktəbin V qrupunda "Kənd təsərrüfatı haqqında" materiala əsasən? əkinçilik, bağçılıq, bostançılıq və s. digər sahələr haqqında tədris həyata keçirilirdi. Kənd təsərrüfatının ictimai-iqtisadi təhlilini aparsaq, kəndlilərin təhkimçilik hüququnun bərqərar olması və XVIII əsrdə onların təhkimçilik hüququna qarşı mübarizəsini görə bilərik. Əlbəttə ki, mübarizə nəticəsində bir sıra islahatların keçirilməsi həmin dövrdə iqtisadi məsələlərin həllinə doğru yönəlmişdir. Sonrakı dövrlərdə həyata keçirilən islahatlara 1861-ci

il "Kəndli islahatı"nı nümunə göstərmək olar. Lakin islahatların keçirilməsinə baxmayaraq, Azərbaycanın bir sıra bölgələrində, xüsusən də Naxçıvanda dövlətin kəndlərdəki siyasətinə və kənd varlılarına qarşı çevrilmiş çıxışlar artmış, 1885-ci ildə daha da genişlənmişdir. Lakin buna baxmayaraq, kənd təsərrüfatının və torpaqsızlaşma ilə mübarizənin aparıcı mövqedə olduğu bir dövrdə xalq təsərrüfatının bərpası və inkişafının təhsil sisteminə də təsir etdiyini görmək olar.

1920-ci il avqustun 5-də xalq təsərrüfatının bərpası və inkişafı üçün Texniki Peşə Təhsili Komitəsi yaradıldı. Gənclərin texniki-peşə təhsili almaları üçün 4 tip məktəb yaradılmışdı:

- texnikumlar;
- peşə məktəbləri;
- peşə kursları;
- fabrik-zavod şagirdliyi.

Bunlar içərisində texnikumlar mühüm yer tuturdu. Texnikumlara azərbaycanlı şagirdlər cəlb edilirdi ki, sosial tərkib yaxşılaşdırılsın. Artıq ilk illərdə texnikumlarda təhsil alanların 67,7 faizi azərbaycanlı tələbələr idi. 1924-cü ilin mart ayında əlifbanın islahatı üzrə komissiya təşkil olunmuşdur. Komissiyanın tərkibinə AK(b)P Naxçıvan Diyar Komitəsinin katibi Y.Tahirov, Xalq Komissarlar Sovetinin sədri A.Axundov və Xalq Maarif Komissarı V.Həsənzadə daxil olmuşdu. Naxçıvan MSSR-də birinci beşilliyin başlanğıcı savadsızlıq ilə mübarizə sırasında mühüm hücum kimi göründü.

Əhalinin böyük kütləsinin savadsızlığının ləğv olunması üzrə çox böyük işlər qarşıda dururdu. 1926-cı ilin verilmiş siyahısına görə bu zamana qədər respublika əhalisinin 12%-i savadlı idi.

Təhsilin inkişafı ilə əlaqədar Azərbaycan ərazisində bir sıra seminariyalar açılırdı. Seminariyaların açılması pedaqoji kadrların hazırlanması baxımından atılan ilk addımlardan biri idi.

1922-ci ildə Naxçıvanda 7 müəllimlər seminariyası açılmışdır. Bu təhsil ocaqları ilk vaxtlar seminariya adlandırılsa da, sonralar pedaqoji texnikum adı altında fəaliyyət göstərməyə başladı. Əlbəttə ki, texnikumların yaradılması təhsil sahəsində atılan uğurlu addımlardan biri olmuşdur. Daha

çox texnikumların açılması 1925-1926-cı illərə təsadüf edirdi. Açılan texnikumlar pedaqoji, təsərrüfat və s. digər sahələri əhatə edirdi.

19 fevral 1925-ci ildə AK(b)P Naxçıvan Vilayət Komitəsi plenum iclasında Xalq Maarif Komissarlığının fəaliyyəti haqqında məruzəsi ilə V.Həsənzadə çıxış etmişdir. O qeyd edirdi ki, "1924-cü ilin ilk yarısında diyarda 1 kişi müəllimlər seminariyası, 1 ikinci dərəcəli məktəb, 61 birinci dərəcəli məktəb və eləcə də müəllimlər seminariyası var idi. Birinci dərəcəli məktəblər arasında 45-i yalnız oğlanlara, 6-sı türk qadınlarına xidmət edirdi". Mövcud olan məktəblərin əhalinin ehtiyaclarını təmin edə bilməməsini nəzərə alaraq, 1924-cü təhsil ilinin ikinci yarısından birinci dərəcəli məktəblərin sayı Xalq Maarif Komissarlığı tərəfindən 16-ya çatdırılmışdır.

Əlbəttə ki, 20-ci illərdə olduğu kimi, 30-cu illərdə də təhsil sistemində kifayət qədər dəyişikliklər mövcud idi. 1930-cu ilin noyabr ayında Azərbaycan SSR MİK və XKS "Azərbaycan SSR-də ümumi məcburi ibtidai təhsil üzrə uşaqların məktəblərə göndərilməsinə imtinaya qarşı məsuliyyət haqqında" qərar qəbul etdilər. Artıq bu qərarın qəbul edilməsi təhsilə qarşı çıxanların susdurulmasına, o cümlədən təhsilin inkişafı üçün bir sıra islahatların həyata keçirilməsinə gətirib çıxardı. Sevindirici haldır ki, Azərbaycanın əksər bölgələrində təhsil sahəsində uğurlu addımların atılması ön plana çəkilmişdir. Ona görə ki, xalqın maariflənməsi dövlətin sayılıb-seçilməsi, dövlətin inkişafı demək idi. Həmçinin qadınların təhsilində bir sıra maneələrin aradan qaldırılması məqsədilə erkən nigahların qarşısı alınması baxımından da tədbirlər görülmüş və bu sahədə bir sıra nəzarətlər yaradılmışdır.

30-cu illərdə təhsil sisteminin məcburiliyi, həmçinin fəhlə-kəndli təbəqəsinə də aid edilmişdir. 1933-cü ilin dekabr ayında MİK Fəhlə Kəndli Müfəttişliyi (FKM) ümumi məcburi ibtidai təhsilin başlanğıcı haqqında partiya göstərişlərinin yerinə yetirilməsinin yoxlamasını keçirmiş və bu işdə əsas nailiyyətlərin mövcudluğunu göstərmişdir. 1930-1931-ci tədris ilində 12380 şagirdə nisbətən 1932-1933-cü tədris ilində muxtar respublikanın ümumi təhsili 16805 şagirdi əhatə etmişdir. Statistikadan da məlum olduğu kimi, təhsilin uğurlu və səmərəli inkişafı üçün atılan addımlar səmərə baxımından olduqca faydalı idi.

Lakin həmin statistikanı artırmaq üçün yeni islahatların keçirilməsi və bütün bölgələrdə təhsil sisteminin məcburiliyi əsas idi.

Mədəni inkişaf və təhsilə marağın artırılması üçün ÜK(b)P-nin XVII qurultay qətnaməsində qeyd olunurdu ki, ümumi ibtidai təhsil başa çatdırılmalıdır. Yeddiillik həcmində uşaqların ümumi təhsilə keçməsinə nail olunmalı, politexnik təhsil inkişaf etməli, məktəblərdə şagird sayı yüksəlməlidir. Bu məqsədlə ölkənin hər yanında uşaqların təhsil almasının məcburiliyi qeyd olundu, o cümlədən təhsil sahəsində maneələrin aradan qaldırılması prosesi həyata keçirildi. Həmin dövrdə Naxçıvan MSSR-də də ümumi ibtidai təhsil üçün mübarizə son dərəcə genişlənmişdir. 8-12 yaş arası uşaqların məktəblər ilə əhatə olunmasını yoxlamaq, əhatə olunmayanların seçilməsi və onların məktəbə cəlb olunması, eləcə də məktəb işlərində mövcud olan nöqsanların aradan qaldırılması məqsədilə AK(b)P MK qərara aldı ki, 15 noyabr 1933-cü ildən ibtidai ümumi təhsilin həyata keçirilməsi üçün ongünlük yoxlamalar keçirilsin. Əlbəttə ki, ciddi nəzarət və yoxlamalar olduğu bir dövrdə yaradılan təhsil ocaqlarında şagirdlərin sayının artmasını müşahidə etmək olar. Həmçinin dərslərin keçirilməsində marksizm və leninizm ideyalarına geniş yer verilirdi.

3 dekabr 1936-cı ildə Naxçıvan MİK Rəyasət Heyətinin qərarı ilə şagirdlərin maddi vəziyyətinin yaxşılaşdırılması və dərs prosesinin təkmilləşdirilməsi məqsədilə Naxçıvan şəhər Beynəlxalq orta məktəbi nəzdində İnternat məktəbi açılmışdır. Leninabad, Cəhri, Yamxana kənd məktəblərində 100 yerlik internatlar təşkil olunmuşdur. Bundan əlavə, 8 məktəbdə 80 nəfər üçün isti yemək təşkil olunmuşdur. Leninabad, Nehrəm, Cəhri kənd məktəblərində isə dövlət hesabına 200 nəfər üçün məktəb vəsaitləri, geyim, ayaqqabı ayrılmışdır. Bütün bu islahatların keçirilməsinə baxmayaraq, təhsil sistemində bir sıra geriləmələr müşahidə olunurdu.

Növbə ilə yeni məktəblərin açılmasına baxmayaraq, təhsilin inkişafı və şagirdlərin məktəblərə daha çox cəlb edilməsi baxımından Azərbaycanın digər bölgələrində olduğu kimi, Naxçıvan bölgəsində də yeni məktəblər açılmağa başladı. 1938-ci ildə Şahbuzkənd, Yengicə, Əbrəqunus, Bist kəndlərində 4 orta məktəb açılmışdır. Sonrakı dövrlərdə Ordubad şəhərində 112 şagirdlik yeni pedaqoji texnikum, 110 şagirdlik pedaqoji işçi fakültəsi

və 12 yeni ibtidai məktəb açılmışdır. Kimsəsiz və baxımsız uşaqlar üçün 82 nəfərlik yeni uşaq evi yaradılmışdır.

Pedaqoji sistemin inkişaf etdiyi bir dövrdə texnikumların, internat məktəblərinin, uşaq evlərinin və məktəblərin tərkibində olan şagirdlərin sayları siyahıya alınmış və onların say tərkibləri qeydə alınmışdır. Lakin XX əsrin 30-cu illərində repressiya dalğasının baş tutması təhsildə də öz əksini tapmışdır. Belə ki, Sovet Rusiyasının əsas məqsədi Azərbaycan ziyalılarının danışan dillərini yox etmək idi. Bu məqsədlə Stalinin dövründə repressiya həyata keçirildi. Onlar Sibirə sürgün olunur, orada işgəncələrə məruz qalır, sonda isə güllələnirdilər. Əlbəttə ki, həyata keçirilən bu qətliam sonradan bəraətlə nəticələnsə də, yüzlərlə şair və yazıçılarımızın faciəvi taleləri insanların yaddaşında əbədi olaraq unudulmaz anlar kimi qalmışdır. Qeyd etmək lazımdır ki, Sovet Rusiyası repressiya həyata keçirən zaman "Qulaq" adlı düşərgələr yaradır və burada ziyalılara ən ağır işlər gördürür, həmçinin onlara işgəncələr verirdilər. Azərbaycanın digər bölgələrindən olduğu kimi, Naxçıvan bölgəsindən də dahi şəxsiyyət olan məşhur ziyalımız Hüseyn Cavidin bu qurbanlardan biri olması, əlbəttə, çox acınacaqlı hadisə idi. Lakin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1982-ci ildə Hüseyn Cavidin nəşi onun doğma diyarına, Naxçıvana gətirildi. Onun xatirəsini əbədiləşdirmək məqsədilə Naxçıvan şəhərində yerüstü məqbərə ucaldılmışdır.

Göründüyü kimi, XX əsrin 20-30-cu illərində Naxçıvanda təhsil olduqca mürəkkəb bir hal almışdır. Təhsil sahəsini genişləndirmək baxımından yeni təhsil ocaqlarının açılması, o cümlədən şagirdlərin bura cəlb olunması bir qədər çətin proses olsa da, uğurlu olmuş və təhsil sahəsində nəzarət artırılmışdır. Sonrakı illərdə texnikumların, pedaqoji təhsil ocaqlarının fəaliyyətə başlanması da atılan uğurlu addımlardan biri olmuşdur. Əlbəttə ki, kənd təsərrüfatının aparıcı olduğu bir zamanda kənd təsərrüfatı ilə bağlı materialların şagirdlərə öyrədilməsi və bu məzmunlu təhsil ocaqlarının açılması olduqca aktual məsələlərdən birinə çevrilmişdir.

# II BÖLMƏ

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ KƏND TƏSƏRRÜFATI VƏ KOLLECİN YARANMASINA ZƏMİN

XX əsrin əvvəllərinə nəzər salsaq, görərik ki, Naxçıvanın münbit və məhsuldar torpaqları kəndlilərin deyil, istismarçıların əlində mərkəzləşdirilmişdir. O zaman əkin üçün yararlı olan 508,8 min hektar torpaq sahəsinin 92,1 faizi bəylərin, xanların, məscid və vəqflərin əlində mərkəzləşdiyi halda, 7,9 faizi kəndlilərin əlində idi. 1920-ci ildən sonra əkinə yararlı torpaqlar əsl sahiblərinə qaytarıldı. Torpağın 87 faizi Naxçıvan kəndlilərinin ixtiyarına verildi. Əlbəttə ki, Çar Rusiyasının Azərbaycanın şimal torpaqlarını ələ keçirdiyi və bütün hakimiyyəti ələ aldığı bir zamanda kəndlilərin torpaq üzərində sahibliyi də bir qədər məhdudlaşdırılmışdır. Azərbaycanın torpaqlarının bölüşdürülməsinə, şimal torpaqlarımızın Rusiyaya verilməsinə səbəb olan, 1828-ci ildə imzalanan Türkmənçay sülh müqaviləsi tariximizdə imzalanan həm acılı, həm də xalqımız tərəfindən bağışlanmaz müqavilələrdən biri hesab olunur.

Ötən əsrin əvvəllərindən etibarən məktəblərin cüzi bir hissəsi dövlət hesabına, qalanları isə vəqf gəlirləri və məscidlərdən əldə olunan gəlirlər hesabına fəaliyyət göstərirdi.

Bununla əlaqədar Naxçıvanda məktəb şəbəkəsinin genişlənməsi, xalq təhsili sahəsində yeni ənənələrin yaranması prosesi davam edirdi. 1890-cı ildən 1917-ci ilədək Naxçıvanda 1500 şagirdi əhatə edən 15 məktəb fəaliyyət göstərmişdirsə, Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq fəaliyyəti dövründə xalq təhsili sahəsində daha böyük addımlar atılmış və Naxçıvanda xalq məktəblərinin şəbəkəsi genişlənərək aşağıdakı səviyyəyə çatmışdır:

- 1917-1919-cu illər 20 məktəb;
- 1920-1921-ci illər 43 məktəb;
- 1921-1922-ci illər 58 məktəb;
- 1923-1924-cü illər 61 məktəb fəaliyyət göstərmişdir.

Bildiyimiz kimi, xalq təsərrüfatının bir sıra sahələri vardır. Onlardan biri də kənd təsərrüfatı sahəsidir. Kənd təsərrüfatı xalq təsərrüfatı iqtisadiyyatının mühüm hissəsidir. Xalqın həyat səviyyəsinin yüksəldilməsi və onun gündən-günə artan tələbatının ödənilməsi kənd təsərrüfatının inkişaf və müvəffəqiyyətlərindən xeyli dərəcədə asılıdır. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev demişdir: "Azərbaycan kənd təsərrüfatının zəngin potensial imkanlarından tamamilə istifadə etmək, onun səmərəliliyinin daha da yüksəldilməsini, hər hektardan hər maşının, gübrənin daha çox fayda verməsini təmin etmək bizim təxirəsalınmaz vəzifəmizdir". Ulu Öndər Heydər Əliyevin söylədiyi bu müdrik kəlamda zəngin və dərin mənalar vardır. İstər müasir dövrə, istərsə də ötən əsrə nəzər salsaq, görə bilərik ki, kənd təsərrüfatı və məhsul istehsalı olduqca aparıcı rola malik olmuş, iqtisadi münasibətlərin inkişafı baxımından da həmişə təsirli olmuşdur.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Naxçıvanla birlikdə onun kənd təsərrüfatına aid sahələri diqqətdən kənarda qalmamışdı. Azərbaycan İnqilab Komitəsinin 5 may 1920-ci il dekretinə əsasən bütün mülkədar, bəy, xan, kilsə, məscid torpaqları milliləşdirildi və əvəzsiz olaraq kəndlilərin istifadəsinə verildi.

Milliləşdirilmiş iri sosialist sənayesi ilə xırda pərakəndə kənd təsərrüfatı yanaşı yaşaya bilməzdi. Buna görə də kənd təsərrüfatının kollektivləşdirilməsi həyata keçirildi. Kənd təsərrüfatı sahəsində kollektivləşdirmə siyasətinin aparılması, əlbəttə, bir sıra mənfi nəticələrin yaranmasına gətirib çıxarmışdır.

1921-ci ildən etibarən, Naxçıvanda təhsil, mədəniyyət və digər sahələrdə inkişaf meyilləri gücləndi. Bu və ya digər sahələrdə işləyəcək kadrların hazırlanması məqsədi ilə orta ixtisas məktəbləri – texnikumlar yaradıldı. Yeni yaranan məktəblərin və texnikumların müəllim kadrlarına ehtiyacını təmin etmək məsələsi 1922-ci ilin avqustun 28-də öz işinə başlayan Naxçıvan müəllimlərinin birinci qurultayında qoyuldu. Qurultayın üçüncü günü müəllimlər seminariyasının açılması təklifini Əbdüləzim Rüstəmov (Naxçıvan Muxtar Respublikasının ilk maarif komissarı) verdi. Üç gün davam edən qurultayın qətnaməsinin beşinci

maddəsində Naxçıvan şəhərində müəllimlər seminariyası açılması fikri irəli sürüldü.

1921-1922-ci təhsil ili digər illərə nisbətən bir qədər fərqli idi. Məktəblərin mövcud olan şəbəkəsi 58-ə çatdırılmışdır. Daha sonra həmin dövr üçün hazırlanmış dərs planına uyğun iş başlamış, əhalinin marağı məktəb quruculuğuna yönəlmişdir. Zəhmətkeşlər uşaqlarını məktəblərə daha həvəslə göndərir və təhsilin zəruriliyini anlayırdılar. Kəndlilər məcburiyyət olmadan nəinki oğlanları, hətta qızları da həvəslə məktəbə göndərirdilər. Lakin 1923-1924-cü təhsil ilində müəllim kadrlarının çatışmaması ilə əlaqədar mövcud olan məktəblər şəbəkəsini 46-ya çatdırmaq dövrün vacib məsələlərindən biri oldu.

1923-cü ildə Azərbaycan Kənd Təsərrüfatı Bankı Naxçıvan şöbəsi yaradılmışdır. Tez bir zamanda fəaliyyətini canlandırmağa nail olmuş şöbə 1924-cü ildə müstəqil "Naxçıvan Kənd Təsərrüfatı Krediti Şirkəti"nə çevrilmişdir. Şirkətin Kültəpə, Cəhri, Əbrəqunus, Nərimanov (Şahbuz), Aza, Əylis və Parağa şöbələri kəndlilərə 250000 manat məbləğində güzəştli kredit vermiş, həmçinin müxtəlif kənd təsərrüfatı alətlərinin satışını təşkil etmişdir. Bütün bu tədbirlər Naxçıvan kənd əməkçilərinin tədricən kredit şirkətlərinə cəlb edilməsində mühüm rol oynamışdır. Məsələn, 1927-ci ilin oktyabr ayına qədər 9357 kəndli təsərrüfatı şirkətlərə cəlb edilmişdir ki, bu da muxtar respublikada kəndli təsərrüfatlarının ümumi sayının 44,4 faizini təşkil edirdi. Naxçıvan kənd təsərrüfatı şirkətləri 1927-ci ildə təşkil olunan Naxçıvan kənd təsərrüfatı kooperasiyası (Naxçıvan Göybirliyi) mərkəzində birləşdi. Göybirliyi 17 pambıqçılıq, 8 heyvandarlıq, 8 meliorasiya, 6 maşın, 4 bağçılıq, 3 üzümçülük-şərabçılıq, 1 baramaçılıq və 1 dəyirman şirkətlərini birləşdirmişdir.

Azərbaycanın bir bölgəsi olan Naxçıvan 1924-cü il fevral ayının 9-da muxtariyyət almışdır. Əlbəttə ki, xarici basqınların və işğalların, o cümlədən təhlükəsizliyin təmin edilməsi məqsədilə verilən muxtariyyətə Moskva və Qars müqavilələrinin də öz təsiri olmuşdur. Naxçıvan muxtariyyətini qazandıqdan sonra qarşısında duran əsas məsələlərdən biri kənd təsərrüfatı sahəsini canlandırmaq və iqtisadiyyatı inkişaf etdirmək idi.

1924-cü ildə muxtar respublikada əkin sahələrinin bütün təsərrüfat kateqoriyaları üzrə 45 min hektar kənd təsərrüfatına yararlı torpaq sahəsi

olmuşdur. 1925-ci ildə 36275 hektar əkin sahəsinin 19770 hektarı buğda, 7675 hektarı arpa, 7583 hektarı pambıq, 365 hektarı çəltik, 78 hektarı bostan, 804 hektarı isə digər əkinlərin payına düşmüşdür. 1926-cı ildə əkin sahəsi 5339 hektar artaraq 41614 hektar olmuşdur ki, bu artım buğda əkinlərində 830 hektar, pambıq əkinlərində 789 hektar, bostan əkinlərində 1765 hektar, çəltik əkinlərində isə 7 hektar olmuşdur. Naxçıvan MSSR-də birinci beşillikdə kolxoz quruluşunun təşkili, torpağın milliləşdirilməsi və s. məsələlər qarşıya qoyulmuşdu. 1928-ci ildə Naxçıvan Muxtar Respublikasında kəndli həyətlərinin sayına görə kəndli təsərrüfatlarının 9,3%-i kollektivləşdirildi. Birinci beşillik illərində kənd təsərrüfatını sosialist əsasları üzərində yenidən qurmaq üçün kütləvi kolxoz hərəkatı başlanır, 1932-ci ildə muxtar respublikada bütün kəndli təsərrüfatının təxminən 50 faizini, əkin sahəsinin 36,4 faizini, o cümlədən pambıq əkini sahəsinin 47 faizini, taxıl əkini sahəsinin 36,3 faizini əhatə edən 193 kolxoz (1928-ci ildə isə ilk 20 kolxoz təşkil edilmişdir) var idi.

XX əsrin 30-cu illərində Naxçıvanda Sovet təşkilatlarının qəbul etdikləri müvafiq qərarlar və bir sıra köməkliklər nəticəsində kolxoz təsərrüfatı günü-gündən artmışdır. Zəhmətkeşlərin maddi-rifah halı yaxşılaşmışdır. Naxçıvan MSSR-nin xalq təsərrüfatının inkişafında kənd təsərrüfatının kollektivləşməsi də muxtar respublikada keçirilmiş I-XI Sovetlər qurultayının böyük tarixi əhəmiyyəti olmuşdur. Birinci beşilliyin üçüncü ilində, yəni 1931-ci ildə muxtar respublikanın 6 rayonunda kənd təsərrüfatı artellərinin sayı artır. Bu da bəy, xan torpaqlarının milliləşməsi ilə nəticələnir. Naxçıvan MSSR üzrə 1930-cu ilin dekabr ayında 1900 təsərrüfatda 71 kolxoz, 1931-ci ildə isə 6234 təsərrüfatda 161 kolxoz olmuşdur ki, bunlardan da 115-i pambıqçılıq, 29-u taxılçılıq, 19-u isə heyvandarlıq kolxozları idi.

1933-1937-ci illərdə ikinci beşillik planla bağlı bir sıra tədbirlər həyata keçirildi. 1937-ci ildə muxtar respublika zəhmətkeşləri ikinci beşillik plan tapşırıqlarını vaxtından əvvəl yerinə yetirdilər. İkinci beşillik planın yerinə yetirilməsi nəticəsində xalq təsərrüfatının texnika cəhətdən yenidən qurulması və kənd təsərrüfatının kollektivləşdirilməsi başa çatdırılmış oldu. Kənd təsərrüfatında kollektivləşdirmə siyasəti daha çox pambıqçılıq, taxılçılıq və digər sahələri əhatə edirdi.

İkinci beşillik plandan sonra növbəti olaraq üçüncü beşillik planın həyata keçirilməsi nəzərdə tutulurdu. Əlbəttə ki, üçüncü beşillik planın da əsas məqsədi kolxozların maddi istehsal bazasının gücləndirilməsi, onların ictimai təsərrüfatının möhkəmləndirilməsindən ibarət idi. Üçüncü beşillikdə muxtar respublikada kolxozlardan kənarda qalmış tək-tək kəndli təsərrüfatlarının da demək olar ki, hamısı kolxozlara daxil olmuşdur. Naxçıvan MSSR-də kənd təsərrüfatının dirçəldilməsi yeni sosialist münasibətlərinin tətbiqi ilə eyni vaxta düşdüyündən böyük çətinliklərlə üzləşərək ciddi məhrumiyyətlərlə qarşılaşsa da, 30-cu illərin ortalarına doğru bu çətinliklər, əsasən, aradan qaldırılmışdır. 1939-cu il iyulun 8-də XKS və ÜİK(b)P MK "Kolxozlarda ictimai heyvandarlığı inkişaf etdirmək tədbirləri haqqında" qərar qəbul etdilər və hər kolxozda üç heyvandarlıq ferması: qaramal, qoyunçuluq və donuzçuluq fermaları olmasını məqsədəuyğun bildilər. Əsas məqsəd heyvandarlığı inkişaf etdirmək idi.

Göründüyü kimi, kənd təsərrüfatının aparıcı olduğu bir dövrdə kənd təsərrüfatı sahəsində təhsil ocaqlarının yaradılması əsas məqsədlərdən birinə çevrilmişdir. Naxçıvan Muxtar Respublikası ərazisində kənd təsərrüfatı sahəsində yaranan ilk təhsil ocağı 25 fevral 1925-ci ildə Naxçıvan Muxtar Respublikasının IV Sovetlər qurultayında yaradılan "Naxçıvan Kənd Təsərrüfatı Texnikumu" olmuşdur. Texnikumun fəaliyyətə başlaması, əlbəttə ki, kolxoz və sovxozlar üçün olduqca faydalı idi. Belə bir dövrdə texnikumun yaranması atılan önəmli addımlardan biri idi. Hakimiyyətin Sovet Rusiyasının əlində cəmlənməsinə baxmayaraq, əsas istehsal sahəsi kənd təsərrüfatı olduğundan, o cümlədən iqtisadi sahənin inkişaf etdirilməsi baxımından texnikumun yaradılması olduqca faydalı idi. Lakin tədris zamanı bir sıra məhdudiyyətlərin qoyulması da danılmaz idi. Əlbəttə ki, bir əsr müddətində fəaliyyət göstərən kollec müasir dövrə qədər müxtəlif adlarla fəaliyyət göstərmiş, elmə və təhsilə müxtəlif töhfələr vermişdir.

1971-ci ilin sentyabr ayına qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumu fəaliyyətini davam etdirmiş və daha sonra Naxçıvan Sovxoz Texnikumu adını almışdır. Daha sonra isə Babək rayonunun Şıxmahmud kəndinə köçürülərək toxumçuluq sovxozu ilə birləşdirilmiş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş Mehdi Hüseynzadə adına "Naxçıvan Sovxoz Texnikumu" adını almışdır. 1990-1991-ci tədris

ilinədək Şıxmahmud kəndində fəaliyyət göstərmişdir. Sonrakı dövrlərə nəzər salsaq, görərik ki, texnikum 1991-ci ilin sentyabr ayında Naxçıvan şəhərində yerləşən tələbə üçün təşkil olunmuş yataqxanaya köçürülmüş və Naxçıvan Kənd Təsərrüfatı Texnikumu adlandırılmışdır. Növbəti illərdə texnikum 03 may 1997-ci ildən 11 sentyabr 1999-cu ilədək Naxçıvan Aqrar Sənaye Kolleci, 15 sentyabr 1999-cu ildən 25 oktyabr 2002-ci ilədək yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, 26 avqust 2002-ci ildən Azərbaycan Respublikası Nazirlər Kabinentinin 140 nömrəli qərarı ilə Naxçıvan Dövlət Texniki Kolleci adlandırılmışdır. Muxtar respublikanın sayılıb-seçilən təhsil ocaqlarından biri olan kollec 2000-ci ildən Azərbaycan Respublikası Təhsil Nazirliyinin, 2012-ci ildən isə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyinə verilmiş və kollecin fəaliyyət istiqamətləri genişlənmişdir. Kollec 2023-cü ildən Naxçıvan Dövlət Universitetinin nəzdinə verilmişdir.

# III BÖLMƏ
# KOLLECİN İNKİŞAF TARİXİ

Doğma diyar Naxçıvanda kənd təsərrüfatı sahəsini inkişaf etdirmək üçün 25 fevral 1925-ci ildə Naxçıvan Muxtar Respublikasının IV Sovetlər qurultayında "Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun yaradılması haqqında" qərar verildi. Həmin gündən texnikum fəaliyyətə başladı. 1925-1926-cı tədris ilində Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kənd təsərrüfatının mexanikləşdirilməsi və aqronomluq ixtisasları üzrə 41 nəfər tələbə ilə fəaliyyətə başlamışdır. Texnikum fəaliyyət göstərdiyi bir zamanda istər kənd təsərrüfatı, istərsə də ictimai münasibətlərin formalaşması üçün mühüm addım idi. Kollec 1971-ci ilin sentyabr ayınadək Naxçıvan Kənd Təsərrüfatı Texnikumu kimi fəaliyyətini davam etdirərək müxtəlif ixtisaslar üzrə kadr hazırlığı ilə məşğul olmuşdur. Ümumiyyətlə, texnikumun fəaliyyəti və inkişafı onun dövrləri ilə sıx əlaqəli və bağlıdır. Belə ki, dövrün tələblərinə uyğun olaraq, texnikum bir neçə adla fəaliyyət göstərsə də, olduqca şərəfli inkişaf yolu keçmişdir. Əlbəttə ki, həmin dövrdə dövrün tələblərinə uyğun baş verən ictimai-siyasi hadisələrin olmasına baxmayaraq, kollec fəaliyyətini davam etdirməyi bacarmış və artıq bir əsrdir ki, uğurlu addımların atılmasına nail olmuşdur. Təbii haldır ki, uzunömürlü təhsil ocağının inkişaf tarixində onun qarşılaşdığı çətinlikləri müəyyən dərəcədə görmək mümkündür.

25 fevral 1925-ci il Naxçıvan IV Sovetlər qurultayında maarif komissarı V.Həsənzadə çıxış edərək bildirdi ki, 1924-cü ilin birinci yarısında savadsızlığın ləğv olunması üzrə bütün diyarda 70 məktəb var idi və burada 2000 nəfər təhsil alırdı. 1925-ci ilin yanvar ayında Rəyasət Heyəti AK(b)P MK-nin 27 dekabr 1924-cü il tarixli məktubuna əsasən, "Fəhlə və kəndlilər arasında savadsızlığın ləğv olunması haqqında" xüsusi məsələyə baxdı. Qəbul olunmuş qərarda qeyd olunurdu: "AK(b)P Naxçıvan Vilayət Komitəsi nəzdində "Savadsızlıq ləğv olsun" - cəmiyyəti yaradılsın". Əlbəttə ki, çağırılan bu şüarlar təhsil ocaqlarının yaradılması və onun inkişafı üçün mühüm addımlardan biri idi. 12 iyun 1926-cı ildə Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi yeni əlifbaya keçmə planını müzakirə etdi və qərara aldı ki, bütün təşkilat və müəssisələrdə yeni əlifbaya

keçirilmə respublika, qəza və rayon mərkəzlərindən başlansın. Naxçıvan MSSR-də birinci beşilliyin başlanğıcı savadsızlıq ilə mübarizə sırasında mühüm hücum kimi göründü. Əhalinin böyük kütləsinin savadsızlığının ləğv olunması və dövrələnməsi üzrə çox böyük iş qarşıda dururdu. 1926-cı ilin verilmiş siyahısına görə bu zamana qədər respublika əhalisinin 12%-i savadlı idi.

1930-1940-cı illərə nəzər saldıqda yaradılan texnikumun vəziyyətini yaxşılaşdırmaq məqsədilə göndərilən məruzələrdə istər təhsil, istərsə də yataqxanada qalan tələbələr üçün lazımi şəraitin yaradılması tələb olunurdu. Həmin dövrdə texnikumun direktoru Abatov Əkbər idi. O, Mehin Axnazarova göndərdiyi məruzədə texnikuma köməklik göstərilməsini tələb etmişdir. Göndərdiyi məruzədə 1 ədəd traktor, 200 ədəd kravat, 200 ədəd döşək və 400 ədəd mələfə tələb edirdi. Çünki bəzi tələbələr uzaq məsafədən gəldikləri üçün onların təhsil almasını asanlaşdırmaq məqsədilə yataqxanada şəraitin yaradılması vacib məsələlərdən birinə çevrilmişdi. Bu, həmçinin təhsil alanların sayının çoxalmasına da təsir edəcəkdir. Bundan əlavə, Abatov Əkbər 2 nəfər zootexnik və 2 nəfər baytar müəllim göndərilməsini tələb edirdi. Çünki həmin dövrdə fənlərin tədrisi üçün müəllim saylarında bəzi azalmalar var idi.

Azərbaycanda, eləcə də Naxçıvanda mədəni quruculuq sahəsində, xüsusilə savadsızlığın ləğv olunması sahəsində ikinci beşillik planın həyata keçirilməsi işi genişləndirilmişdir. 1933-cü il Naxçıvan Muxtar Respublikası zəhmətkeşləri tərəfindən geniş mühafizə edilən və bəyənilən mədəni yürüşün daha da yaxşı həyata keçirilməsi ili idi. Naxçıvan Muxtar Respublikasının qabaqcıl müəllimləri ödənişsiz təhsil verməyi öz üzərlərinə götürdülər və digər müəllimlərin də bu çağırışa qoşulmalarını istədilər. Məsələn, İsa Məmmədov, Abdulla Axundov, Əsəd Səfərov, Mircəfər Mirişli, Səkinə Kazımova, Zəkiyə Sadıqlı, Fatma Məmmədova, Əli Hüseynov və başqaları. Hər biri 30 nəfərə ödənişsiz təhsil verirdilər.

1937-ci il 10 aprel tarixində Vəzirovun Azərbaycan SSRİ Torpaq Komissarlığı üzrə əmri ilə Azərbaycanda texniki işçilərin əməkhaqqı 1935-ci ilə nisbətən artırılmışdır. Əlbəttə ki, bu qərarın verilməsi texnikuma qəbul olanların sayını nisbətən yüksəltmişdir. 1937-ci il 7 dekabr tarixində Azərbaycan SSRİ Torpaq Komissarlığı üzrə verilən

əmrdə göstərilmişdir ki, “Bəzi rayon torpaq şöbələri qəbul şəraitini pozub, ona riayət etməmişlər. Kursantlara ayrılan xərclər tam ödənilməmiş, onlar yataqsız və əşyasız göndərilmişlər. Nəticədə kursantlar geri qayıtmışlar”. Baş verən bu hadisə ilə bağlı Azərbaycan SSRİ Torpaq Komissarlığının qərarına əsasən, qəbulun aparılması prosesi məsul idarəyə tapşırılmalı idi. Kursantların dekabrın 25-nə qədər məktəbə göndərilməsi torpaq şöbə müdirlərinə və MTS-lərin direktorlarına həvalə edildi. Həmçinin qəbul müddətində dekabr ayının 25-nə kimi aparılmalı idi.

1938-ci ildə Əfəndiyevin başçılığı altında Azərbaycan X.T.Q kadr hazırlıq idarəsinin fəaliyyəti həmin dövrdə açılan təhsil ocaqlarına da öz təsirini göstərirdi. Belə ki, bütün təhsil ocaqlarında vahid dildə tədris aparılmırdı. Bəzi texnikumlar var idi ki, Azərbaycan dilində, bəziləri isə rus dilində fəaliyyət göstərirdi. Ana dili və ədəbiyyat fənni isə rusca fəaliyyət göstərən texnikumlarda tədris olunmurdu. 1938-1939-cu illərdə texnikum üçün hazırlanmış dərs planlarında “Ümumi əkinçilik, torpaqşünaslıq, meyvəçilik, heyvandarlığın əsasları, istehsalatın mexanizmi və s.” bir sıra fənlərin tədrisi üçün müəyyən qeydlər və əlavələr olmuşdur. Əlbəttə ki, Azərbaycan Sovet Rusiyasının tərkibində olduğu bir vaxtda dərs planlarına və onların tədrisinə nəzarət də olduqca güclü idi. Bu dövrdə SSRİ XTQ Ali məktəb naçalnikinin müavini Zakarov idi.

Azərbaycanda zəhmətkeşlərin savadsızlığının ləğv olunması işləri yazı məsələləri ilə sıx, ayrılmaz şəkildə bağlı idi. Bu illərdə yeni latın əlifbasına keçmək haqqında məsələ öz gərginliyi ilə günün vacib məsələləri sırasında dururdu. Xalq təhsili sahəsindən başlayaraq Azərbaycanda insanlar hamılıqla bu məsələyə xüsusi diqqət yetirirdilər. H.Musabəyov qeyd edirdi: “Əgər biz həqiqətən Azərbaycan əhalisini 100% savadlı etmək, Azərbaycan əhalisini mədəni millətlərə birləşdirmək istəyiriksə, biz yalnız vaxtımızın 80%-ni yeni əlifbaya ayırsaq, buna nail olarıq. Bu məsələ xalq maarifimizin irəliləyişi işində əsas məsələdir”.

15 avqust 1938-ci ildə texnikumların tarlaçılıq şöbələrinə tədris prosesində bir sıra dəyişikliklərin edilməsi haqqında göstəriş verilmişdir. “Darvinizm əsasilə botanika” predmetində “Darvinizm”, “Genetikanın əsasları, seleqsiya və toxumçuluq” predmeti “Bitkiçilik” üzrə keçirildi. Daha

sonra isə "Yer quruluşu əsasilə geodeziya" proqramına topoqrafiq çizgiçilik teması daxil edildi. Həmçinin ixtisas dərslərinə də bir sıra əlavə və yeniliklər edildi. Torpaqşünaslıq, geodeziya, bitkiçilik, genetikanın əsası, seleqsiya və toxumçuluq, bitki mühafizəsi, heyvandarlıq, kənd təsərrüfatı istehsalının mühafizəsi və s. ixtisas fənləri, tarlaçılıq şöbələrində tədris ilində keçirilməyə başlandı.

1937-1938-ci illərdə kənd təsərrüfatı heyvanlarının anatomiyası və fiziologiyası, toyuqçuluq, kənd təsərrüfatı heyvanlarının yemlənməsi, analitik kimya və aqrokimyəvi analiz, molekulyar fizikası, ümumi heyvandarlıq, donuzçuluq, zoologiya, zoogigiyena, fiziologiya və s. kitablardan istifadə etməklə tələbələr müəyyən biliklərə yiyələnirdilər. Təbii haldır ki, keçirilən dərslərin praktiki və təcrübə cəhətdən öyrənilməsi üçün kabinələr yaradılmışdır. Fəaliyyət göstərən kabinələrdə sadə mikroskop, mürəkkəb mikroskop, preperat şüşələri, mikroskop üçün müxtəlif baçoklar, donuz, qoyun və atların maketləri, sperator, amil spirti, spirt, analitik tərəzi, termometr, NaCl, $Na_2$, $CO_3$ və.s mövcud idi. 1938-1939-cu illərdə Siyasi iqtisadiyyat adlı fənnin tədrisi də aparılırdı.

1939-cu ildə texnikumda iclas keçirildi. İclasda gündəlik məsələlər, tələbələrin davamiyyəti və s. məsələlərə toxunuldu. İclasın protokolunda sədr olaraq Həsən Səfərli, katib olaraq isə N.Nasıyev olmuşdur. İclas zamanı məlum olmuşdur ki, məktəbdə radio və işıq yoxdur. Həsən Səfərli, həmçinin komitə katibi idi. İşıq sisteminin zəifliyi, əlbəttə ki, dərslərin keçirilməsinə öz mənfi təsirini göstərirdi. Hərbi, geoqrafiya və bitkiçilik üzrə texnikumda müəllim yox idi. Gündəlikdə duran məsələlərdən biri də bu olmuşdur. Həmin fənlər üzrə müəllimin olmaması və fənlərin tədrisinin dayanması tələbələrin həmin sahədə zəif olmalarına gətirib çıxartmışdır. Bu dövrdə Mamedov Şulan dərs hissə müdiri olmuşdur. Özü şəxsən iclasda çıxış etmiş və texnikumdakı vəziyyət, o cümlədən qarşı çıxdığı məsələlərə toxunmuşdur. Mamedov Şulan öz çıxışında qeyd edirdi ki, bəzi tələbələr olduqca intizamsızdır. Tələbələrin dəfələrlə dərsdən qaçdıqlarını onların intizamsızlığından irəli gəldiyini vurğulamışdır. Həmçinin bəzi müəllimlər texnikumda istilik sistemi olmadığına görə öz paltolarını tələbələrə vermələrinə qarşı çıxdığını söyləmişdir. Onun fikrincə, bu hallara yol verməklə tələbələrin intizamını düzəltmək qeyri-mümkündür. Bundan

əlavə, Fərəcov Qulu, Sadiqov Kamil, Həsənquliyev Müzəffər və başqa müəllimlər də keçirilən iclasda öz fikirlərini söyləmişlər. Çıxışlardan aydın olurdu ki, texnikumun vəziyyəti həmin dövrdə o qədər də yaxşı deyildi. Belə ki, kadr çatışmazlığının olması da bir sıra geriləmələrin yaranmasına səbəb olan amillərdən biri idi.

1940-cı illərdə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunun Komsomol Komitəsinin ümumi iclası keçirildi. Həmin dövrdə komsomol katibi J.Tağıyev idi. Burada gündəlikdə duran məsələlərdən əlavə, Allahsızlar cəmiyyətinin fəaliyyəti, o cümlədən onun üzvlərinin mövqeyi haqqında da danışılırdı.

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətinin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu. Ulu Öndər Heydər Əliyev deyirdi ki, "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır". Bu məqsədlərə xidmət edən təhsil islahatları bilavasitə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başladı.

Göstərilən dövrdə Naxçıvan Sovxoz Texnikumu kənd təsərrüfatını ixtisaslı kadrlarla təmin edən əsas təhsil ocağı idi. 70-ci illərdə burada 2000 nəfərə yaxın mütəxəssis hazırlanmışdı ki, bu da əvvəlki onillikdən təqribən 2 dəfə çox idi. 1970-1980-ci illərdə Naxçıvan Dövlət Texniki Kollecində təhsil o dövrün sosial-iqtisadi və mədəni şəraitini nəzərə alaraq, xüsusi əhəmiyyət kəsb edirdi. Bu illər Azərbaycanın müxtəlif bölgələrində texniki və peşəkar kadrların hazırlanması üçün vacib bir dövr idi. Naxçıvan öz geostrateji mövqeyi ilə yanaşı, o dövrdə də mühüm bir mərkəz idi. Bəhs edilən dövrdə burada tələbələr mühəndislik, maşınqayırma, elektrofizika, mühasibatlıq və digər texniki ixtisaslar üzrə təhsil alırdılar. Təhsil prosesi həm nəzəri, həm də praktiki biliklərin alınmasını əhatə edirdi ki, bu da tələbələrin əmək bazarına daxil olmalarını asanlaşdırırdı. Naxçıvan Dövlət Texniki Kolleci yerli iqtisadiyyata cəlb olunan mütəxəssislərin yetişdirilməsi ilə yanaşı, regionun sosial inkişafına da töhfə verirdi.

Naxçıvan Dövlət Texniki Kollecinin məzunları təhsil aldıqları dövrdən sonra müxtəlif sektorlarda çalışaraq Naxçıvanın sosial-iqtisadi inkişafına öz töhfələrini vermişlər. Bu dövrün gəncliyi, peşəkar bacarıqları və ixtisasları ilə ölkənin inkişafına müsbət təsir etmişdir.

Azərbaycanın Sovet Rusiyasının tərkibində olduğu müddətdə yaradılan sərt rejim və qoyulan kəskin ideya təhsil sahəsinə də öz təsirlərini göstərmişdir. Sovet Rusiyasına sədaqətli məmurlar yetişdirmək əsas məqsədlərdən birinə çevrilmişdir. Məhz buna görə istər dövlət idarələrində, istərsə də təhsil ocaqlarında əsli rus olan və sovet, marksizm, leninizm ideyalarına xidmət edənlər yüksək vəzifələrə gətirilirdi. Aparılan araşdırmalardan məlum olur ki, 1941-1946-cı illərdə texnikumda direktor olmamış, onun vəzifə səlahiyyətlərini dərs hissə müdiri Sadıqov Novruz Miri oğlu həyata keçirmişdir. Hər zaman vətənpərvərliyi ilə seçilən bu insan Baytarlıq ixtisası üzrə tələbə yetişdirməklə yanaşı, bir çox mütəxəssis müəllimlərin yetişdirilməsində də mühüm rol oynamışdır. Novruz Sadıqov 1978-ci ilədək 35 ilə yaxın texnikumda fəaliyyət göstərmişdir. Seyid nəslindən olan Novruz Sadıqov siyasi təqiblərə məruz qaldığından soyadını dəyişdirməli olur. Novruz Sadıqov həm də əl işləri ilə seçilmiş, çertyojların və lövhələrin hazırlanmasında xüsusi rol oynamışdır. Onun direktor olması üçün sənədləri təqdim olunsa da, Kommunist Partiyasının üzvü olmadığından sənədləri geri qaytarılmışdır.

Əlbəttə ki, Sovet Rusiyasının tərkibində olan Azərbaycanın təqiblərə məruz qalması onun iqtisadi və sosial həyatına öz təsirini göstərmişdir. Bütün bu halların baş verməsi kənd təsərrüfatı sahəsində bir sıra geriləmələrin yaranmasına səbəb olmuşdur. Bunun nəticəsi olaraq genişləndirilmiş və məqsədyönlü tədbirlərin həyata keçirilməsi başlıca məqsədlərdən birinə çevrilmişdir.

Ümummilli Lider Heydər Əliyevin məqsədyönlü, qətiyyətli, prinsipial və gərgin əməyinin, yaradıcı fəaliyyətinin nəticəsi olaraq 1969-1982-ci illərdə respublikanın kənd təsərrüfatında uzun illər davam edən tənəzzülə və böhrana birdəfəlik son qoyulmuş, onun dinamik inkişafı təmin edilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin apardığı müdrik siyasət nəticəsində 70-80-ci illərdə respublikada mənəvi-siyasi iqlim sallaşmış, fəhlə-

lərin, kəndlilərin və ziyalıların qurub-yaratmaları üçün hər cür şərait yaranmışdır. Həmin dövr Azərbaycanda, o cümlədən Naxçıvanda kənd təsərrüfatının yüksələn xətlə inkişafı dövrü kimi səciyyələnir.

1971-ci ilin sentyabr ayına qədər Naxçıvan Kənd Təsərrüfatı Texnikumu fəaliyyətini davam etdirmiş, həmin ildə isə Naxçıvan Sovxoz Texnikumu adını almışdır.

1925-ci ildə yaradılan texnikum Babək rayonunun Şıxmahmud kəndinə köçürülərək toxumçuluq sovxozu ilə birləşdirilmiş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Yuqoslaviyadakı partizan hərəkatlarında iştirak edən "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə adına "Naxçıvan Sovxoz Texnikumu" adını almışdır.

1980-1981-ci illərdə texnikumun bazasında bir sıra dəyişikliklər oldu. Belə ki, 30 nəfər tələbə təhsil alırdı. Həmçinin şöbələrdə və ixtisaslarda müəyyən dəyişikliklər olmuşdur. Baytarlıq və mühasibatlıq aparıcı ixtisaslardan biri idi. Daha sonra mexaniklə işləmə şöbəsi, aqronom, meyvə-tərəvəz şöbəsi və s. şöbələr fəaliyyətdə olmuşdur.

19 avqust 1981-ci ildə meyvə-tərəvəz şöbəsi haqqında əmr verildi. Verilən əmr həmin şöbəyə imtahan aparmaq məqsədi daşıyırdı. İmtahanın aparılması üçün komissiya yaradıldı. Komissiyanın tərkibində İbrahimov Vaqif, Kərimov Allahverdi, Hüseynov Sabir, Seyidov Əhməd iştirak edirdi.

1985-ci ilədək texnikumun direktoru C.Bağırov idi. 80-ci illərdə texnikumda bəzi şöbələrin dəyişdirilməsi üçün əmr verildi.

1985-1989-cu illərdə Naxçıvan Sovxoz Texnikumunun direktoru İbrahim Əliəşrəf oğlu İbrahimov olmuşdur. İbrahim İbrahimov əmək fəaliyyətinə aqronom kimi başlamışdır.

1957-ci ildə Düdəngə kəndində kolxoz idarə heyətinin sədri seçilmişdir. O, daha sonra işgüzar fəaliyyətinə görə keçmiş Noraşen rayon Kənd Təsərrüfatı Müfəttişliyinin rəisi vəzifəsinə təyin olunur. İbrahim İbrahimov 1962-ci ildən partiya işində fəaliyyət göstərməyə başlayır.

1973-cü ildən İ.İbrahimov Naxçıvan üzümçülük sovxozunun iqtisadiyyatında gerilik yarandığından həmin sovxoza direktor təyin olunur.

O, 1976-cı ildə Naxçıvan üzümçülük və şərabçılıq trestinin baş direktoru vəzifəsinə təyin olunmuşdur. İbrahim İbrahimov 1984-cü ildə Naxçıvan MSSR Nazirlər Sovetinin aqrar sənaye kompleksinə şöbə müdiri,

bundan 1 il sonra isə Naxçıvan Sovxoz Texnikumuna direktor təyin olunmuşdur. Onun direktor olduğu dövrdə texnikum yüksək göstəricilər əldə edərək SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgisinin iştirakçısı olmaqla sərginin diplomu və gümüş medalı ilə təltif edilmişdir. İbrahim İbrahimov, həmçinin müxtəlif dövrlərdə deputat vəzifələrində çalışmışdır.

Bildiyimiz kimi, 1991-ci il dekabr ayının 8-də Sovet İttifaqı dağıldı. Azərbaycan müstəqillik əldə edəndə ölkədə ictimai həyatın bütün sahələrində islahatların aparılması vacib və zəruri bir problem kimi qarşıya qoyulmuşdur. Bunun əsas səbəbi kimi uzun illər ərzində qurulmuş ittifaq daxili sabit istehsal-təsərrüfat əlaqələrinin dağılması, dövlətin yeni şəraitdə, xüsusilə aqrar sahə üzrə öz tənzimləmə funksiyalarını lazımi şəkildə yerinə yetirə bilməməsi, kəskin sosial-siyasi böhranlar, ölkəmizin bir sıra mühüm kənd təsərrüfatı rayonlarının düşmən işğalına məruz qalması, ölkə daxilində sahələrarası iqtisadi əlaqələrin qırılması və s. göstərmək olar.

Nəticədə aqrar sahədə istehsal kəskin aşağı düşmüş, bir sıra aqrar sahə müəssisələri dağıdılmış, kənd təsərrüfatı məhsulları daxili bazarda aşağı səviyyəyə düşmüşdür. Əlbəttə ki, bunun qarşısının alınması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir.

1995-ci ildə 2 ixtisas üzrə qəbul aparılmışdır. Elə həmin illərdən başlayaraq yeni ixtisasların açılmasına başlanılmışdır. Bununla da kollecə maraq artmışdır.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq olmalarını xüsusi vurğulayır: “Biz keçmişlərdən fərqli olaraq, indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər”.

1997-ci il 3 may tarixində texnikum Naxçıvan Aqrar Sənaye Kolleci adlandırılmışdır. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 6 may 1997-ci ildə verilən əmrə əsasən, kollecə peşə ixtisas

təhsili, orta ixtisas təhsili, ixtisaslaşdırma və kadrların yenidən hazırlanması ilə bağlı şəhadətnamə verildi. Bu qərarın verilməsi ilə kollecin fəaliyyət istiqamətləri genişləndi. Həmçinin bu qərar kollecə şagird qəbulunun artmasına da səbəb oldu.

1999-cu ildə kollecin müəllim heyəti olduqca zəngin və işində peşəkar müəllimlər idi. Həmin müəllimlər Hüseynov Fikrət, Tağıyev Nağı, Bağırova Rəna, Məmmədova Nazlı, Canbaxşıyeva Sevingül, Kərimov Allahverdi, İmanov Qüdrət, Məmmədov Qasım, İsmayılov Yaqub, Hüseynova Məfkurə, Hacızadə Gülcahan, Qurbanova Sara, Axundova Tamella, Qocayeva Samirə, Mürsəlova Gülarə, Zeynalov Tahir və s. idi. Əlbəttə ki, həmin müəllimlər tələbələrin öz ixtisaslarını dərindən mənimsəmələri üçün lazımi şəkildə tədris işlərini aparırdılar. Həmin dövrdə dərslərin keçirilməsi üçün nəşr olunan kitablar tələbələrin ixtisaslarına daha yaxından yiyələnmələrinə gətirib çıxarırdı.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli fərmanı ilə bir sıra dövlət qurumlarının tabeliyində olan orta ixtisas təhsil müəssisələrinin Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilməsi ilə orta ixtisas təhsilinin məzmununda köklü dəyişikliklərin aparılmasına, kadr hazırlığı strukturunun və təhsil müəssisələri şəbəkəsinin təkmilləşdirilməsinə imkan yaratmışdır. Həmin fərmanın qəbul edilməsinədək kollec Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olmuşdur. Fərmanın qəbul edilməsindən sonra isə kollec Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindən çıxarılıb, Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. 30 aprel 2012-ci ilədək Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan kollec həmin tarixdən Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. Eyni zamanda ölkədə təhsil komplekslərinin yaradılması sahəsində 2000-ci ildən başlayaraq müəyyən işlər görülür.

2001-ci ilədək Adəm Əliyev kollecin direktoru idi. **Adəm Bayram oğlu Əliyev** 1959-cu ildə Kənd Təsərrüfatı Texnikumuna daxil olub. 1963-cü ildə Zootexnik şöbəsini bitirmişdir. 1967-ci ildə Azərbaycan Kənd Təsərrüfatı texnikumuna daxil olub və həmin texnikumu 1972-ci ildə bitirmişdir.

1967-ci ildən 1969-cu ilədək Naxçıvan Dövlət Damazlıq İdarəsində zootexnik işləmişdir. 1969-cu ildən 1975-ci ilədək Naxçıvan Vilayət Komissiyası Komitəsində, 1975-1978-ci illərdə Naxçıvan şəhər Partiya Komitəsində, 1978-1980-ci illərdə Babək rayon Partiya Komitəsində təlimatçı vəzifəsində işləmişdir. 1988-1991-ci illərdə Naxçıvan Sovxoz Texnikumuna direktor təyin olunmuşdur. Fəaliyyəti dövründə texnikum bir sıra nailiyyətlər əldə etmişdir. 1991-ci ildən isə yenidən Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna direktor təyin olunmuşdur.



2001-ci ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilən müvafiq əmrə əsasən, **Canbaxşıyeva Sevingül** 1 (bir) il müddətinə kollecin direktoru vəzifəsinə təyin olundu. Qeyd etmək lazımdır ki, Sevingül Canbaxşıyeva kollecin müəllimlərindən biri olmuşdur.

Sevingül Canbaxşıyeva Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonunda anadan olmuşdur.

1978-ci ildə Azərbaycan İqtisadiyyat Universitetini bitirmişdir.

1990-cı ildən isə Naxçıvan Dövlət Texniki Kollecində müəllim olaraq fəaliyyətini davam etdirmişdir.

2001-ci ildən isə pedaqoji fəaliyyət göstərdiyi Naxçıvan Dövlət Texniki Kollecində direktor vəzifəsində fəaliyyətini davam etdirmişdir. Direktor olduğu müddətdə kollecin vəziyyətinin yaxşılaşdırılması üçün uğurlu addımlar atmışdır.

2006-cı il 16 oktyabr tarixində Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin verdiyi qərar müəssisə və təşkilatlarda işçi qüvvəsinin vəzifə və peşə tərkibinə dair statistik müşahidənin proqram və metodoloji tövsiyələrin hazırlanması ilə bağlı idi. Əsas məqsəd ölkə iqtisadiyyatında həyata keçirilən siyasi və iqtisadi dəyişikliklər kompleksinə uyğun olaraq, işləyənlər haqqında əməkhaqqı və peşələr üzrə informasiyanın toplanması və təhlili metodlarını, əməyin ödənilməsi şərtlərini təhlil etməkdən, mövcud nöqsanları aşkar etməkdən,

əməkhaqqına dair statistik göstəricilərin beynəlxalq müqayisəliliyini təmin etməkdən ibarət idi.

Mənbələrdən bizə aydın olur ki, 2002-2003-cü illərə nəzər saldıqda əyani şöbədə 12 nəfər tələbə, 75 nəfər başqa tədris müəssisələrindən gələn, 31 nəfər buraxılış, 26 nəfər müəllim olmuşdur. Qiyabi şöbədə isə həmin tədris ilində qəbul olmamışdır. Buradan aydın olur ki, həmin dövrdə kollec durğunluq dövrünü yaşamışdır.

Statistikalara nəzər salsaq, görərik ki, 1963-1964-cü illərdə 68 nəfər məzun, 1964-1965-ci illərdə 92 nəfər məzun, 1965-1966-cı illərdə 22 nəfər məzun, 1966-1967-ci illərdə 35 nəfər məzun, 1968-1969-cu illərdə 149 nəfər məzun, 1970-1971-ci illərdə 106 nəfər məzun, 1972-1973-cü illərdə 145 nəfər məzun, 1974-1975-ci illərdə 17 nəfər məzun, 1976-1977-ci illərdə 25 nəfər məzun, 1988-1989-cu illərdə 251 nəfər məzun, 1990-1991-ci illərdə 493 nəfər məzun, 1996-1997-ci illərdə 88 nəfər məzun, 1998-1999-cu illərdə isə 14 nəfər məzun olmuşdur.

2008-2011-ci illərdə Gömrükxana işi adlı şöbə mövcud olmuşdur. Həmçinin həmin dövrdə ixtisasların qiyabisi də mövcud idi.

**Cəmilə Haqverdi qızı Haqverdiyeva** bitirdiyi təhsil müəssisəsində pedaqoji fəaliyyətini davam etdirmiş və tədris işləri üzrə direktor müavini olmuşdur.

2011-ci il 12 yanvar tarixində Nazirlər Kabinetinin verdiyi qərar təhsil müəssisələrində fəaliyyət göstərən pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında idi.

2011-ci ildə  Azərbaycan Respublikasının Təhsil Nazirliyinin məktubuna əsasən, həmin ildən ali və orta ixtisas təhsili müəssisələrində ödənişli təhsil alan "Qaçqın və məcburi köçkünlərin siyahısının təqdim olunması ilə bağlı idi. Bundan əlavə, bu qərarın verilməsi həmin dövrdə bəzi təhsilalanların işinin bir qədər asanlaşmasına səbəb olmuşdur.

Kollecin direktorlarından biri olmuş **Məmməd Qəribovun** əmək fəaliyyətinə nəzər saldıqda görmək olar ki, o, 2006-2007-ci tədris ilində Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbdə tərbiyə işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

2009-cu ildə Naxçıvan Regional Peşə Tədris Mərkəzinə direktor vəzifəsinə təyin edilmişdir. Peşə təhsilində aparılan islahatların iştirakçısı

olaraq əmək bazarında iş axtaran vətəndaşların məşğulluqlarının təmin olunması və iş axtaran vətandaşların peşəkarlıq səviyyələrinin artırılması prosesində yaxşı fəaliyyəti nəzərə alınaraq Naxçıvan Dövlət Texniki Kollecinə direktor vəzifəsinə təyin olunmuşdur.

2013-cü ildə təyin olunduğu kollecdə ixtisaslı kadrların yetişməsi və gənc nəslin vətənpərvər ruhunda təhsil alması sahəsində bir çox işlərə imza atmışdır. Növbəti illərdə Naxçıvan Muxtar Respublikası Təhsil nazirinin müavini vəzifəsinə təyin olunmuş və muxtar respublikanın təhsilində distant təhsilin inkişafına və informasiya texnologiyalarından istifadənin əhatəsinin genişləndirilməsi sahəsində bir çox xidmətləri olmuşdur.

2016-cı ildən 2018-ci ilə qədər Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifəsində çalışmış və çalışdığı müddətdə yüksək bal toplayan şagirdlərin sayında artımların olması muxtar respublikada şəffaflığın artırılması və təhsil sisteminin bütün pillələrində yüksəlişin olmasına nail olmuşdur.

2020-ci ildən Naxçıvan şəhər peşə liseyində istehsalat təlim ustası və 2022-ci ildən direktor müavini Məmməd Qəribovun kollecdəki fəaliyyətini uğurla davam etdirmişdir. Daha sonra isə Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbində müəllim vəzifəsində çalışmışdır.




***Kollecin direktoru Məmməd Qəribov və direktor müavini Asəf Ruşanov tələbələrlə birlikdə (2013-cü il)***



Kollecin hazırkı direktoru **Asəf Əyyub oğlu Ruşanovun** əmək fəaliyyətinə nəzər saldıqda görərik ki, o, 1992-1998-ci illərdə Qəzənfər Əkbərov adına kolxozda zootexnik vəzifəsində çalışmışdır.

1998-1999-cu illərdə Naxçıvan Təsərrüfat Hesablı Kooperativ İttifaqının Təmir Tikinti İdarəsində mühəndis-texnik, 1999-2002-ci illərdə Babək rayon Cəhri kəndindəki Baytarlıq məntəqəsində baytar texniki vəzifəsində çalışmışdır. 2002-2005-ci illərdə Naxçıvan Dövlət Texniki Kollecində Aqrar ixtisası üzrə müəllim vəzifəsində çalışaraq fəaliyyətini davam etdirmişdir.

2005-ci ildən 2010-cu ilin may ayına qədər Azərbaycan Dövlət Aqrar Universitetinin dissertantı olmuş və elmi iş üzrə tədqiqat işi aparmışdır.

2005-ci il 29 dekabr tarixli əmrə əsasən, tələbələr arasında ideya-siyasi və əxlaq tərbiyəsinin daha da təkmilləşdirilməsi, onların asudə vaxtlarının səmərəli təşkilinə diqqətin artırılması, habelə davranış normaları, dərsə davamiyyət və nizam-intizam qaydalarının daha da gücləndirilməsi məqsədilə direktor müavini vəzifəsinə təyin olunmuşdur.

2005-2008-ci illərdə ictimai əsaslarla təlim-tərbiyə işləri üzrə direktor müavini vəzifəsinə təyin olunmuşdur. Həmçinin 2005-ci ilin 24-28 oktyabr tarixlərində Azərbaycan Respublikasının Gəncə şəhərində Almaniya Texniki Əməkdaşlıq Cəmiyyəti tərəfindən keçirilən "Heyvandarlıq" seminarında yaxından iştirak etmişdir.

2006-cı ildə Asəf Ruşanov Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən təşkil olunan "Kənd təsərrüfatı heyvanlarının süni mayalanmasının təşkili və aparılması" proqramı üzrə treninqin iştirakçısı olmuşdur. Fəaliyyəti dövründə təhsil sisteminin səmərəli olması üçün uğurlu addımlar atmışdır.

2008-2012-ci illərdə Naxçıvan Dövlət Texniki Kollecində qiyabi şöbənin müdiri olmuşdur.

2008-ci ildə Almaniya Respublikasında aqrar təhsillə bağlı keçirilən Beynəlxalq konfransda Azərbaycanı təmsil etmişdir.

2010-cu ildə hazırladığı elmi işini müdafiə etmiş, 2011-ci il dekabr ayının 7-də Azərbaycan Respublikasının Prezidenti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyası tərəfindən aqrar elmlər üzrə fəlsəfə doktoru adını almışdır. Öz fəaliyyəti ilə təhsil sahəsində hərkəsə nümunə olan Asəf Ruşanov 30 elmi əsərin müəllifidir. O cümlədən "Heyvandarlıq praktikumu", "Genetikadan praktikum", "Balbas cinsli qoyunların bioloji-təsərrüfat xüsusiyyətləri" adlı kitabların müəllifidir.

2012-2016-cı illərdə tədris işləri üzrə direktor müavini vəzifəsində çalışmışdır.

2014-cü ildə isə Naxçıvan Dövlət Universitetində "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili" mövzusunda keçirilən təlim kurslarını müvəffəqiyyətlə bitirmişdir.

2014-2016-cı illərdə direktor əvəzi vəzifəsində çalışmışdır. 2016-cı ildən bu günə kimi direktor vəzifəsində çalışır. Kollecin direktoru, aqrar elmlər üzrə fəlsəfə doktoru Asəf Ruşanovun fəaliyyət dövrünə nəzər salsaq, görərik ki, Naxçıvan Dövlət Texniki Kollecində istər tədris, istər təlim, istərsə də tərbiyə istiqamətlərində uğurlu addımlar atmışdır. Həmçinin kollecin direktoru Asəf Ruşanov "Təmiz dünya" İctimai Birliyinin Naxçıvan şəhər Texniki Kollecində keçirilən "Gənclərlə ekoloji təfəkkürün inkişafı və etik davranış üsullarının təkmilləşdirilməsi" seminar-treninqində fəal iştirak etdiyinə görə 2017-ci ildə sertifikatla təltif olunmuşdur.

Azərbaycan Respublikasında təhsil strategiyasının formalaşmasında xüsusi xidmətləri olan Ümummilli Lider Heydər Əliyevin hər zaman siyasi kursunu bəyənmiş, nümunə götürmüş və bu yolda öz səmərəli fəaliyyətini davam etdirmişdir. Heydər Əliyevin təhsilə verdiyi töhfələr və təhsilin inkişafı məqsədilə gördüyü işləri akademik cəhətdən araşdırmış və bu istiqamətdə bir sıra məqalələrin müəllifi olmuşdur. "Siyasət və Gerçək Uğur" ictimai-siyasi jurnalının idarə heyətinin qərarı ilə bütün ömrünü gənc nəslin maariflənməsinə həsr edən, tanınmış fəxri ziyalı Ulu Öndər Heydər Əliyev irsinin təbliğatçısı, Naxçıvanın ictimai-siyasi həyatına, yüksək ziyalılıq mövqeyindən göstərdiyi xidmətlərə görə Asəf Əyyub oğlu Ruşanov fəxri diplomla təltif olunmuşdur. 25 fevral 2025-ci il tarixində kollecin 100 ilinin tamam olması və səmərəli fəaliyyəti nəzərə alınmaqla,

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” döş nişanı ilə təltif edilmişdir.

2023-cü ildə isə beynəlxalq dəyərlərdən bəhrələnərək ölkəmizdə demokratik cəmiyyət, hüquqi dövlət, insan azadlığı, vətəndaş haqlarının aliliyi və siyasi plüralizm prinsiplərinin xalq və cənab Prezident İlham Əliyev tərəfindən birlikdə həyata keçirilməsində vətəndaşlıq mövqeyinə, əməli uğurlarına görə, o cümlədən Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq və sədaqətlə dövlətə, dövlətçiliyimizə sağlam əqidə ilə təhsilin inkişafında dövlətə və xalqa göstərdiyi yüksək keyfiyyətli nümunəvi xidmətlərinə görə kollektivimizin direktoru Asəf Ruşanov Heydər Əliyev fəxri diplomu ilə iltifatla təltif olunmuşdur.




***Hörmətli direktorumuzun Heydər Əliyev fəxri diplomu ilə iltifatla təltif olunması***




***"Siyasət və Gerçək Uğur" ictimai-siyasi jurnalının idarə heyətinin qərarı ilə Asəf Ruşanova verilən fəxri diplom***

Azərbaycan Respublikasının suverenliyi, torpaqlarının işğalçılardan azad olunması və vətənimizin təhlükəsizliyi üçün canlarından keçmiş oğullarımızın xatirəsi bizlər üçün olduqca əzizdir. Çünki bu gün bizim təhlükəsiz, qorxusuz, sağlam bir şəkildə yaşamağımıza əsas səbəb öz xalqı üçün şəhid olan əsgərlərimiz, qəhrəman oğullarımızdır. Onların ruhunu yaşatmaq, onları unutmamaq bizim üçün olduqca vacibdir.

Kollecimizin pedaqoji heyətinin əsas məqsədi gənc təhsilalanlarımıza vətənpərvərlik ruhunu aşılamaq və onları müstəqil Azərbaycanımıza hərtərəfli biliklərə sahib olan vətəndaş kimi yetişdirməkdir. Əlbəttə ki, Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanovun bu sahəyə göstərdiyi diqqət və qayğı danılmazdır.

Sevindirici haldır ki, tələbələrimiz kollecimizdə şəhidlərin ruhunu əbədiləşdirmək məqsədilə hazırlanan tədbirlərdə olduqca maraqla və böyük həvəslə iştirak edirlər. Həmçinin bacardıqları qədər fəal və aktiv olurlar. Şəhid ailələrini ziyarət etmək, onların övladlarına, ailə üzvlərinə

diqqət və qayğı ilə yanaşmaq kollecin əsas məqsədlərindən birinə çevrilmişdir. Həmin oğulları böyüdən, boya-başa çatdıran, onlara lazımi vətən sevgisini aşılayan anaların haqqı danılmazdır. Müəllim kollektivi və tələbələrlə birgə şəhid ailələrinə baş çəkilir, həmçinin şəhid məzarları ziyarət edilir.

Əlbəttə ki, digər şəhidlərimizin xatirələrini əbədiləşdirdiyimiz kimi, şəhid Ülvi Cəfərovun da xatirəsini əbədiləşdirmək məqsədilə genişmiqyaslı tədbir hazırlanmışdır. Tədbir zamanı şəhidimizin ailə üzvləri də dəvət olunmuş və tələbələrimiz tədbirdə aparıcı rol oynamışdır. Hazırlanan bu tədbirə görə şəhidimizin valideynləri kollecin direktoru Asəf müəllimə öz təşəkkürlərini bildirmiş və təşəkkürnamə təqdim etmişlər. Vətən onun uğrunda qorxmadan canından keçən qəhrəman oğullarımızı, şəhidlərimizi unutmur...




***Şəhidimizin valideynləri tərəfindən kollecin direktoru Asəf Ruşanova təqdim olunan təşəkkürnamə***

Vətənin müqəddəs oğullarının doğum günləri və anım günləri pedaqoji heyətin hər zaman diqqətində olur və bu sahədə hazırlanan tədbirlər saysız-hesabsızdır.

Kollecin direktoru Asəf Ruşanovun bu sahədə əvəzsiz xidmətləri olmuş və pedaqoji kollektivi də bu cür tədbirlərdə fəallıq göstərməyə lazımi

səviyyədə istiqamətləndirmişdir. Asəf müəllimin rəhbərliyi altında hazırlanan tədbirlərimiz təqdirəlayiq hesab olunur. Muxtar respublika ərazisində şəhid ailələrinə, müharibə veteranlarına göstərdiyi qayğı və nəvazişə görə “Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi” Naxçıvan Muxtar Respublika Təşkilatı adından hörmətli direktorumuza öz dərin təşəkkürünü bildirmişdir.

Naxçıvan Dövlət Texniki Kollecinin kollektivi Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi tərəfindən “Naxçıvan Muxtar Respublikasında 35 ildən sonra baramaçılığın yenidən bərpa edilməsi” prosesində fəal iştirak etdiklərinə görə təltif olunmuşlar. Kollec kollektivinin bu fəaliyyətə cəlb olunmasında Asəf müəllimin xidmətləri böyük olmuşdur.

Kollecimizin adına verilən bu təşəkkürnamə istər pedaqoji kollektiv, istərsə də tələbələr üçün böyük uğur hesab olunur.




Bildiyimiz kimi, 2024-cü il “Yaşıl dünya naminə həmrəylik ili” adlandırılmışdır. Əsas məqsəd ətraf mühitin qorunması və bu sahədə görülən məqsədli işlər idi. COP29 adlı konfransa Azərbaycanın sədrlik etməsi olduqca qürurverici hal idi. Bu sahədə kollecimizdə çoxlu tədbirlər və açıq dərslər keçirilmiş, tələbələrimizə “COP29 nədir?” və onun mahiyyəti haqqında ətraflı şəkildə məlumat verilmişdir. Keçirilən tədbirlərimiz təqdirəlayiq hesab olunmuşdur. Əlbəttə ki, kollecin direktoru Asəf müəllimin verdiyi istiqamətlər tədbirlərin daha intensiv və operativ

olmasına səbəb olmuşdur. “COP29: Azərbaycanın iqlim hərəkatı təşəbbüsləri” adlı layihənin keçirilməsində göstərdiyi dəstəyə görə kollecin direktoru Asəf Ruşanov təşəkkürnamə ilə təltif olunmuşdur.




Müasir tələblər səviyyəsində inkişaf yolunu tutmuş Naxçıvan Dövlət Texniki Kolleci Asəf Ruşanovun rəhbərliyi dövründə demək olar ki, çiçəklənmə dövrünü yaşayır və günü-gündən inkişaf edir.

Təhsil və təlim prosesində göstərilən diqqət və qayğı nəticəsində təhsilin inkişafı sürətlənmiş və məzunlarımızın sayı bir o qədər artmışdır. O cümlədən pedaqoji kadrların müəllim heyətinin işində peşəkarlığı tədris prosesinin inkişafını sürətləndirən amillərdən biri olmuşdur.

Kollecin 2002-ci ildə profilinin dəyişməsinə baxmayaraq, kənd təsərrüfatının heyvandarlıq sahəsinə verilən önəm burada Baytarlıq ixtisası üzrə kadr hazırlığı ilə özünü göstərmişdir. Hal-hazırda aparılan düzgün siyasət sayəsində Baytarlıq ixtisası kollecin ən yaxşı ixtisaslarından birinə çevrilmişdir. Naxçıvan Dövlət Texniki Kollecində tədrisin keyfiyyətinin yüksəldilməsi daim diqqət mərkəzində saxlanılmış və kollec üçün ayrılmış yeni bina əsaslı şəkildə yenidənqurmadan sonra, 10 oktyabr 2016-cı ildə tələbə və müəllimlərin istifadəsinə verilmişdir. Yeni istifadəyə verilən 5 mərtəbəli, müasir tipli, 784 yerlik təhsil ocağında, 15 elektron lövhəli sinif otağı, kimya-biologiya, fizika və baytarlıq laboratoriyaları, internetə qoşulmuş 62 kompüterlə təchiz olunmuşdur. Beləliklə, kollecdə 3 kompüter otağı, 10 fənn kabinəsi, 120 yerlik iclas zalı fəaliyyət göstərir. Kadr hazırlığını yüksək şəkildə həyata keçirmək, tələbələrin öz

ixtisaslarına mükəmməl şəkildə yiyələnmələrini təmin etmək və aldıqları nəzəri biliklərə hər cür şərait yaradılmışdır.

2010-cu ildən başlayaraq ixtisaslar üzrə təcrübələrin istehsalat müəssisələrində keçirilməsi işi həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" 27 iyul 2015-ci il tarixli Sərəncamına uyğun olaraq, kollecdə tədris edilən ixtisaslar üzrə muxtar respublikada fəaliyyət göstərən müvafiq dövlət qurumları ilə ikitərəfli müqavilələr bağlanılaraq əməkdaşlıq edilir.

Göründüyü kimi, kollec daim diqqət mərkəzində olmuş və muxtar respublika rəhbərliyinin qayğısı ilə əhatə olunmuşdur. Müasir dövrdə kollecin tələbələri yaradılan yüksək şəraitdən və göstərilən qayğıdan istifadə edərək, Naxçıvan Muxtar Respublikasında həyata keçirilən təhsil sahəsində, ictimai-sosial və mədəni tədbirlərdə iştirak edərək böyük uğurlar qazanmışlar. Əlbəttə ki, sadalanan məqsədyönümlü işlər kollecin inkişaf etməsində, o cümlədən təhsil sistemində müsbət mənada inkişafın olmasında kollecin direktoru Asəf Ruşanovun xidmətləri böyük olmuşdur.

XX əsrin 60-70-ci illərinə nəzər saldıqda, burada çalışan müəllimlərin öyrədici metodlarının tələbələrə necə təsir etdiyini görmək olar. Həmin dövrün müəllimləri dövrün tələblərinə uyğun, o cümlədən qismən əllərində olan materiallarla tələbələrə dərsi izah etmək üçün bütün bacarıqlarını səfərbər etmişlər. Əlbəttə ki, tələbələr həmin müəllimlərdən faydalanmış və öz ixtisasları üzrə fənləri dərindən öyrənmişlər.



***Botanika müəllimi Yusif Nağıyev, Ceyran Nəcəfova və Gülşən Məmmədovanın kimya kabinəsində tələbələrə dərs izahı zamanı***



***Rail Hacıl, Tamar Maqsudov,***
***Xavər Nəsirova, Fərəməz Kərimov və İnayət Abdullayev***



***1968-ci ildə Mühasibat uçotu ixtisasının tələbələrinə hesablama qaydalarının öyrədilməsi zamanı***

Tələbələrin öyrəndikləri fənlərlə bağlı onların bilik səviyyələrini öyrənmək üçün texnikumda imtahanlar keçirilirdi. İmtahanlar ixtisas müəllimləri tərəfindən yazılı olaraq həyata keçirilirdi və tələbələrin bilik səviyyəsi maksimum olaraq yoxlanılırdı.



***İmtahan zamanı tələbələr***

Texnikumda təhsil alan tələbələrin bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə kitabxana da fəaliyyət göstərirdi. Hətta XX əsrin 60-70-ci illərinə nəzər saldıqda kitabxanaya ixtisaslar üzrə kitabların da gətirildiyini görə bilərik.

1968-ci ildə kitabxanada kitabxanaçı vəzifəsində **Şəfiqə Nərimanbəyova** fəaliyyət göstərirdi. O, tələbələrə kitabları mənimsəmələri üçün yaxından köməklik göstərmiş və onları kitablarla tanış etmişdir.



***1968-ci il Kitabxanaçı Şəfiqə Nərimanbəyova***

Kollecdə uzun müddət tarix müəllimi kimi fəaliyyət göstərən və Əməkdar müəllim adına layiq görülən, işində peşəkar fəaliyyət göstərən pedaqoqlarımız da vardır.



Bunlardan biri də kollecimizin tarix müəllimi **Ələkbərova Sürəyyadır**. Əməkdar ada layiq görülən və öz peşəsini layiqincə yerinə yetirən Sürəyya müəllim 1981-ci ildə 32 №-li Texniki Peşə Məktəbində tərbiyəçi vəzifəsində çalışmışdır.

1983-1992-ci illərdə Naxçıvan E.T.İ.M-də mühəndis vəzifəsində çalışmışdır.

1992-ci ildə isə 6 №-li orta məktəbdə kitabxanaçı, 1993-cü ildən isə həmin məktəbdə tarix müəllimi kimi pedaqoji fəaliyyətə başlamışdır.

2002-ci ildən isə Naxçıvan Dövlət Texniki Kollecində öz ixtisası üzrə fəaliyyətini davam etdirmişdir. Fəaliyyəti dövründə işində ustalığı və peşəkarlığı ilə seçilən, başqalarına örnək olacaq müəllimlərdən biri olmuşdur.

2014-cü ildə isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi adına layiq görülmüşdür. Sürəyya müəllim hal-hazırda Naxçıvan Dövlət Texniki Kollecində tarix müəllimi olaraq fəaliyyət göstərir. Öz nümunəvi davranışı ilə hamının örnək aldığı müəllimlərdən biridir. Kollecdə keçirilən konfranslarda, tarixi əhəmiyyət daşıyan tədbirlərdə zəhmətkeş müəllimimiz mükəmməl tarixi biliklərini əsirgəmir, tələbələrimizin maariflənməsi üçün bütün bacarığını səfərbər edir.

Onu da qeyd edək ki, Sürəyya müəllimin həyat yoldaşı Bahadur Abbasov Naxçıvan şəhər Sədərək rayonunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Öz qəhrəmanlığı ilə seçilən şəhidin məzarı Naxçıvan şəhər Şəhidlər Xiyabanında yerləşir.



Kollecdə uzunmüddətli pedaqoji staja malik olan, savadlı, ixtisaslı, işində peşəkar və bacarıqlı pedaqoqlarımızdan biri də **Gülsüm Novruzovadır**. Gülsüm müəlliminin əmək fəaliyyətinə nəzər saldığımız zaman görərik ki, 1978-ci ildə Naxçıvan şəhər 15 №-li tam orta məktəbdə öz ixtisası üzrə coğrafiya müəllimi vəzifəsində çalışmışdır. Fəaliyyəti dövründə peşəkar pedaqoqun əsas məqsədi uşaqlara öz vətənimizin ərazisini, təbiətini və coğrafiyasını daha dərindən və mükəmməl bir şəkildə öyrətməkdir. Dərs dediyi tələbələr Coğrafiya fənni üzrə lazımi biliklərə yiyələnmiş və gələcək üçün ixtisaslı kadrlar kimi yetişmişlər.

2000-ci ildə Gülsüm müəllimə Naxçıvan Dövlət Texniki Kollecinə Coğrafiya müəllimi vəzifəsinə təyin olunmuşdur. Kollecdə səmərəli fəaliyyətinə görə dəfələrlə kollec rəhbərliyi tərəfindən təşəkkürnamələrə layiq görülmüş və fəaliyyəti yüksək qiymətləndirilmişdir. Həmçinin 10 oktyabr  2020-ci ildə Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi tərəfindən "Təhsil sahəsində göstərdiyi fəaliyyətə" görə fəxri fərmanla təltif olunmuşdur. Göründüyü kimi, Gülsüm müəllim kollecin  ən yaxşı və nümunəvi  müəllimlərindən biridir.



Kollecdə uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş, savadlı və bacarıqlı müəllimlərdən biri də **Qurbanova Saradır**. Sara müəllim 1953-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur.

1970-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialının Azərbaycan dili və ədəbiyyat ixtisasına daxil olub.

1975-ci ilin avqust ayında isə Naxçıvan Dövlət Texniki Kollecində müəllim olaraq çalışmağa başlamışdır. Öz işini həvəslə və nümunəvi bir şəkildə yerinə yetirən Sara müəllimə, həmçinin işində də öz peşəkarlığı ilə seçilmişdir. Bundan əlavə, dərs

dediyi tələbələrə Azərbaycan dilinin saflığını və mükəmməlliyini hərtərəfli şəkildə öyrətmişdir.



Kollecdə tanınmış, öz savadı ilə hər zaman seçilən müəllimlərdən biri də **Musayeva Aybənizdir**. Musayeva Aybəniz 1958-ci il aprel ayının 18-də Naxçıvan Muxtar Respublikasının Şərur rayon Kürçülü kəndində anadan olmuşdur.

1975-ci ildə Şərur rayon Qəsəbə orta məktəbini bitirmişdir.

1979-cu ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun Riyaziyyat fakültəsini bitirmişdir. Daha sonra isə təyinatla Kürçülü kənd 8 illik məktəbində riyaziyyat müəllimi vəzifəsinə təyin olunmuşdur.

1982-ci ildə isə Naxçıvan şəhər 11 №-li orta məktəbinə riyaziyyat müəllimi təyin olunmuşdur.

2002-ci ildən Naxçıvan Dövlət Texniki Kollecində Riyaziyyat müəllimi olaraq pedaqoji fəaliyyətini davam etdirmişdir. Kollecimizdə fəaliyyət göstərdiyi müddətdə öz uğurları və xüsusi dərs metodları ilə seçilən müəllimlərdən biri olmuşdur.



Kollecimizdə tanınmış, uzun müddət fəaliyyət göstərən müəllimlərimizdən biri də **Hacızadə Gülcahan** Abdulla qızı olmuşdur. Hacızadə Gülcahan 1954-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur.

İşində öz peşəkarlığı ilə seçilən tanınmış müəllim 1975-ci ildə Azərbaycan Dövlət Xarici Dillər İnstitutunu bitirmişdir. Bitirdiyi ildən göndərişlə Naxçıvan şəhər 10 №-li orta məktəbinə ingilis dili müəllimi təyin olunmuşdur.

1998-ci ildə isə Naxçıvan Dövlət Texniki Kollecində öz əmək fəaliyyətini ustalıqla davam etdirmişdir. Kollecdə fəaliyyət göstərdiyi müddətdə xüsusi savadı və özünəməxsus metodları ilə tanınmış bir müəllim olmuşdur. Həmçinin bir neçə dəfə mükafatlara layiq görülmüşdür.

Gülcahan müəllimin əsas məqsədi gələcəyə örnək olacaq bir gənc nəsil yetişdirmək olmuşdur.



Kollecimizin tanınmış ziyalısı, hər zaman savadı ilə bərabər, öz xarakteri və sadə davranışıyla seçilən müəllimlərdən biri də **İsmayılov Cəmşid** olmuşdur. Kollecin Avtonəqliyyat müəllimi olmuş Cəmşid müəllim kollektivdə böyük rəğbət qazanmış, tələbələrin sevimlisi olmuşdur.

Ömrünün böyük hissəsini kollecə, təhsilə, gəncliyə həsr etmiş dəyərli pedaqoq həm tələbə, həm də müəllim kollektivinin dərin sevgisini qazanmışdır. Pedaqoji fəaliyyəti və humanizmi ilə ürəklərdə özünə daimi yer tapmışdır.

Cəmşid müəllim işlədiyi müddətdə kollecdə təlim-tərbiyə prosesinin təşkilində və həyata keçirilməsində hər zaman aktiv iştirak etmiş, üzərinə düşən vəzifəni məsuliyyətlə və layiqincə yerinə yetirmişdir. Həyat və fəaliyyəti ilə gənc nəsillər üçün örnək olmuşdur.

Cəmşid İsmayılov 1987-1991-ci illərdə KEÇ Naxçıvan İdarəsində mexanik, 1991-1994-cü illərdə Naxçıvan 7 №-li JQQJ-də mühəndis, 1994-2001-ci illərdə Naxçıvan Yük Avto Nəqliyyat müəssisəsində mühəndis, 2001-2003-cü illərdə Bakı Texniki Kollecinin Naxçıvan şöbəsində müəllim vəzifəsində işləmişdir.

2005-ci ildən isə Naxçıvan Dövlət Texniki Kollecində müəllim və "Nəqliyyat" fənn birləşməsi komissiyasının sədri olmuşdur. Dəyərli pedaqoq peşəkar ixtisaslı kadrların hazırlanmasında böyük rol oynamışdır.

05 mart 2024-cü il tarixdə kollecin dəyərli müəllimi İsmayılov Cəmşid 67 yaşında dünyasını dəyişmişdir.

Kollecin savadlı, işində peşəkar olan müəllimlərindən biri də **Cabbarov Allahverdi** olmuşdur. Allahverdi müəllim hərbi xidməti bitirdikdən sonra "Çingiz İldırım" adına Azərbaycan Politexnik İnstitutuna daxil olmuşdur.

Təhsilini bitirdikdən sonra müxtəlif qurumlarda işləyən Allahverdi müəllim 1998-ci ildən Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna müəllim vəzifəsinə təyin olunmuşdur.

2014-cü ildə Allahverdi müəllimə Əməkdar müəllim adı verilmişdir.

2019-cu ilədək kollecdə ixtisası üzrə fəaliyyət göstərən Allahverdi müəllim elə həmin ildə vəfat etmişdir.

Göründüyü kimi, uzun zaman tarixindən keçən Naxçıvan Dövlət Texniki Kolleci günü-gündən inkişaf etmiş və təkmilləşmişdir. Əlbəttə ki, bu şərəfli yolda pedaqoji heyətin rolu böyük olmuşdur.

Zaman keçsə də, ənənəyə sadiq qalmış və öz uğurlu fəaliyyətini davam etdirən pedaqoji heyət yetişdirdikləri gənc nəsil ilə gələcəyə miras qoymuşlar.

100 ilin ənənəsinə sadiq qalaraq keçmiş müəllimlərin davamçıları olaraq tələbələrimizə örnək müəllim olmağı özümüzə borc bilirik, onları istər təhsil, istərsə də təlim baxımından ən yaxşı şəkildə yetişdirməyi ən vacib məqsədlərimizdən birinə çevirmişik.

Pedaqoji fəaliyyəti zamanı əsas məqsədi tələbələrə və gənc nəslə öz sevdiyi ixtisasını dərindən öyrətmək və bu barədə müəyyən bilik və bacarıqlara yiyələnmələrinə kömək etməkdir.

# IV BÖLMƏ
# KOLLECİN FƏXRİ MƏZUNLARI

Qədim Naxçıvan hər zaman dünya elminə öz töhfələrini vermiş və dünyaya görkəmli simalar bəxş etmişdir. Təsadüfi deyil ki, Naxçıvan Dövlət Universiteti nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecin məzunları da vətənpərvərlik ruhunda yetişmiş və gənc nəslə ən böyük nümunə olmuşlar. 100 illik fəaliyyətini davam etdirmiş kollecin məzunları sayca çoxluq təşkil edir. Əlbəttə, dövrün tələblərinə uyğun olaraq müəyyən dərəcədə inkişaf etmiş kollecin ən böyük uğurlarından biri isə həmin məzunlar arasında fəxri məzunların olmasıdır. Sevindirici və qürurverici haldır ki, öz miqyasında geniş və hərtərəfli şəkildə fəaliyyət göstərən kollecin uğurları siyahısında həmin fəxri məzunlar da yer almışdır. Fəxri məzunlardan bəziləri tanınmış akademik, professor, bəziləri vətənpərvərlik ruhu ilə böyümüş, öz igidliyi ilə seçilən Sovet İttifaqı Qəhrəmanları, bəziləri isə Sosialist Əmək Qəhrəmanları olmuşdur.

Kollecin məzunları sırasında Azərbaycan Respublikasının tanınmış elm xadimləri: Akademik Həsən Əliyev, professor Yunis Səfərov, professor Hacı Hacıyev, professor Paşa Zamanov, Sovet İttifaqı Qəhrəmanlarından: Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev, Sosialist Əmək Qəhrəmanlarından: Məmməd Əsgərov və Narı Quliyeva olmuşlar.

Əlbəttə ki, hər bir məzun kollecimizin fəxri hesab olunur. Ona görə ki, onlar bizim təhsil ocağımızı təmsil edir və onların inkişaf etməsi üçün hərtərəfli şərait yaradılır.



Kollecin tanınmış məzunlarından biri akademik **Həsən Əlirza oğlu Əliyevdir**. Həsən Əliyev 1907-ci il dekabr ayının 15-də keçmiş Zəngəzur qəzasının Comərdli kəndində anadan olmuşdur.

1917-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri qırğınlar zamanı akademik Həsən Əliyevin də ailəsi Naxçıvana deportasiya olunmuşdur.

1925-ci ilədək Naxçıvanda müxtəlif işlərdə çalışan akademik həmin ildə kənd axşam məktəbinə daxil olur.

O, 1930-cu ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. Hələ tələbəlik illərində akademik Həsən Əliyev Naxçıvan MSSR Torpaq Komissarlığında öz fəaliyyətini Kənd Təsərrüfatı Zərərvericilərinə Qarşı Mübarizə şöbəsində işçi olaraq davam etdirmişdir. Həsən Əliyev bitirdiyi texnikumdan öz sahəsi üzrə fəaliyyətini davam etdirmiş, sonrakı dövrlərdə isə fəaliyyətini daha da genişləndirərək təhsilini Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda davam etdirmişdir. Bu ali təhsil müəssisəsini 1932-ci ildə bitirmişdir. Həmçinin II Dünya müharibəsinin baş verdiyi bir dövrdə o, müharibədə yaxından iştirak etmişdir.

1941-ci ildə bütün Cənubi Qafqaz Respublikalarında olduğu kimi Azərbaycanda da hərbi vəziyyət elan edilmişdir. Bu zaman akademik Həsən Əliyev könüllü olaraq ordu sıralarına getmiş, lakin ağır yaralandığına görə Bakıya geri qayıtmışdır.

O, daha sonra SSRİ Elmlər Akademiyasının Azərbaycan filialında Coğrafiya bölməsinin rəhbəri vəzifəsinə təyin olunmuş və 1944-cü ildə namizədlik dissertasiyası müdafiə etmişdir.

Tanınmış alim 1944-cü ildə aqrar elmlər üzrə fəlsəfə doktoru, 1965-ci ildə aqrar elmlər üzrə elmlər doktoru elmi dərəcələrini almışdır. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutu, o cümlədən bir sıra küçələr akademikin adını daşıyır. Bu gün Naxçıvan Dövlət Texniki Kollecin fəaliyyət göstərdiyi inzibati bina da məhz akademik Həsən Əliyevin adını daşıyan küçədə yerləşir.

Kollecimizin digər bir fəxri məzunu akademik **Həsən Məmmədbağır oğlu Abdullayevdir.** Akademik Həsən Abdullayev 20 avqust 1918-ci ildə Culfa rayon Yaycı kəndində anadan olmuşdur. İlk təhsilini Yaycı kənd məktəbində alan Həsən Abdullayev daha sonra Naxçıvan Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur.

Hələ ilk dövrlərdən fizika elminə xüsusi maraq göstərmişdir. Texnikumu bitirdikdən sonra doğulduğu kəndə qayıdan akademik Yaycı kənd məktəbində müəllim işləmişdir. Akademik Həsən Abdullayev daha sonra təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirmişdir. Ali təhsilini başa vuran akademik doğma yurdu Naxçıvana geri dönmüşdür.

O, bundan sonra Ordubaddakı pedaqoji məktəbdə müəllim işləməyə başlamışdır. Aspirantura təhsili almaq üçün Bakıya gələn Həsən Abdullayev Azərbaycan Elmlər Akademiyasında laborant vəzifəsində çalışmışdır. Akademik Həsən Abdullayev aspiranturanı bitirmiş və 1957-ci ildən ömrünün sonunadək AMEA-nın Fizika İnstitutunun direktoru, 1968-1970-ci illərdə AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, 1970-1984-cü illərdə AMEA-nın prezidenti olmuşdur. Azərbaycanda Yarımkeçiricilər Fizikası Məktəbinin yaranması və inkişafı məhz Həsən Abdullayevin adı ilə bağlıdır. Hətta tanınmış akademikin məqalələri müxtəlif dillərə tərcümə olunaraq ölkəmizdən kənarda da çap edilmişdir.

Görkəmli alim Həsən Abdullayev 1 sentyabr 1993-cü ildə uzun sürən xəstəlikdən sonra dünyasını dəyişmişdir. Akademik Həsən Abdullayev Fəxri Xiyabanda dəfn olunmuşdur.

Akademik heyətlə yanaşı kolleci bitirən, öz təhsil həyatını layiqincə davam etdirən gənc tələbələr ixtisaslarında püxtələşmiş və bunlardan bəziləri isə professor adına layiq görülmüşdür. Yunis Səfərov və Hacı Hacıyev tanınmış professorlar sırasındadır. Bu əlbəttə ki, kollecdə aldıqları təhsillə yanaşı onların istedadlarından da asılı idi.



Professor **Yunis Baxşəli oğlu Səfərov** da kollecin tanınmış fəxri məzunlarından biridir.

O, 15 may 1926-cı ildə Şərur rayon Xanlıqlar kəndində anadan olmuşdur.

Yunis Səfərov Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu Baytarlıq ixtisası üzrə bitirmişdir.

O, fəaliyyəti dövründə təhsilini daha da artırmış, həmçinin elmi sahədə bir sıra nailiyyətlər əldə etmişdir.

1964-1971-ci illərdə Kənd Təsərrüfatı İnstitutunda Baytarlıq fakültəsinin dekanı olmuşdur.

1971-1977-ci illərdə "Epizootologiya və mikrobiologiya" kafedrasının müdiri olmuşdur.

1977-1994-cü illərdə Naxçıvan Dövlət Universitetində "Zoologiya" kafedrasının müdiri işləmişdir. Öz işləri və uğurlu addımları ilə böyük

nailiyyətlər qazanmış məzunlardan biri olmuşdur. Professor Yunis Səfərov 200-dən çox elmi məqalənin, 4 monoqrafiyanın, 14 dərslik və tədris metodiki vəsaitin müəllifidir. Professorun fəaliyyətinin böyük hissəsini baytarlıq işinin inkişafı, planlaşdırılması təşkil etmişdir.

Tanınmış professor 1994-cü ildə Naxçıvanda dünyasını dəyişmişdir.

Kollecin tanınmış məzunlarından biri də baytar alim, tibb elmləri doktoru, professor **Hacı Məmmədbağır oğlu Hacıyevdir**. 21 mart 1919-cu ildə Culfa rayonunun Yaycı kəndində anadan olan Hacı Hacıyev təhsilini layiqincə davam etdirmiş və Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu Baytarlıq ixtisası üzrə bitirmişdir. Daha sonra təhsilini Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda davam etdirmişdir. Onun fəaliyyətinə nəzər salsaq görə bilərik ki, elmi dərəcələri və təhsilə verdiyi töhfələr olduqca çoxdur.

1962-ci ildən dosent, 1967-ci ildən kənd təsərrüfatı elmləri doktoru, 1967-ci ildən professor, 1978-ci ildən Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun elmi işlər üzrə prorektoru olmuşdur.

Tanınmış professor 3 monoqrafiyanın, 5 dərsliyin, 200-dən çox elmi məqalənin müəllifidir. Həmçinin Baytarlıq ixtisası üzrə terminlər lüğətini də professor Hacı Hacıyev hazırlamışdır.

Professor Hacı Hacıyev həm də bir sıra elmi əsərlərin də müəllifidir. Bu əsərlərə "Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəlikləri", "Kənd təsərrüfatı heyvanlarının müayinəsi", "Klinik diaqnostika" və s. aiddir. Hacı Hacıyev uğurlu fəaliyyəti və gördüyü örnək işlər ilə kollecimizin tanınmış və fəxri məzunlarından birinə çevrilmişdir.



Kollecin fəxri məzunlarından biri də professor **Paşa Bayram oğlu Zamanovdur**.

Məşhur kimyaçı alim, aqranom Paşa Zamanov 13 mart 1927-ci ildə Sədərək rayonunda anadan olmuşdur. Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu bitirən professor daha sonra Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının Aqronomluq fakültəsində təhsil almışdır. Suvarma əkinçiliyi ixtisası üzrə akademiyanı bitirən alim Azərbaycan Pambıqçılıq İnstitutunun Naxçıvan Təcrübə Tarlasına müdir təyin

olunmuşdur. Bu dövrdə alim həm də elmi tədqiqat işləri ilə məşğul olmuşdur. Daha sonra aspiranturaya qəbul olan professor oranı bitirdikdən sonra öz üzərində daha səylə çalışaraq kənd təsərrüfatı elmləri namizədi və alimlik dərəcəsi almışdır.

1967-1968-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Torpaqşünaslıq və Aqrokimya İnstitutunun elmi katibi vəzifəsində çalışmışdır.

1970-ci ildə "Rəşadətli əməyə görə" yubiley medalı ilə təltif edilmişdir. Fəaliyyəti dövründə bir neçə medallara və adlara layiq görülmüşdür. 1975-ci ildən institutun Üzvi gübrələr laboratoriyasının müdiri işləmişdir.

2013-cü ildə Avropa Nəşriyyatı mətbuat evi aqrar elmin inkişafındakı xidmətlərinə görə "Qızıl ulduz" medalı ilə təltif edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2015-ci il 3 noyabr tarixli 1509 nömrəli Sərəncamı ilə "Əməkdar elm xadimi" fəxri adı verilmişdir.

Professor 2018-ci ildə Bakı şəhərində dünyasını dəyişmişdir.

Əlbəttə ki, kollecin tanınmış məzunları içərisində akademik və professorlarla yanaşı, Sovet İttifaqı Qəhrəmanları da vardır. Azərbaycanın Sovet Rusiyasının tərkibində olduğu bir müddətdə II Dünya müharibəsinin baş verməsi azərbaycanlıların taleyinə bir sıra təsirlər etmişdir. Almaniya ilə SSRİ-nin arasında 1941-1945-ci illərdə Böyük Vətən müharibəsinin baş verməsi Azərbaycanı SSRİ-nin tərkibində faşist Almaniyasına qarşı mübarizə aparmağa çağırdı. Təbii ki, müharibə zamanı azərbaycanlıların əməkləri danılmaz olmuşdur. Buna görə də azərbaycanlı döyüşçülərdən 123 nəfərə "Sovet İttifaqı Qəhrəmanı" adı verilmişdir.



Sovet İttifaqı Qəhrəmanlarından biri də **Qəzənfər Qulam oğlu Əkbərovdur**. Qəzənfər Əkbərov 4 aprel 1917-ci ildə Cəhri kəndində anadan olmuşdur. Qəzənfər Əkbərovun fəaliyyət dövrünə nəzər salsaq görərik ki, onun təhsil sistemi ilə bağlı olduqca böyük uğurları olmuşdur. Kollecin fəxri məzunu hesab olunan

qəhrəmanımız qazandığı nailiyyətlər ilə məzunlar arasında ön cərgədə yer almışdır. Belə ki, o texnikum təhsilini bitirdikdən bir müddət sonra Naxçıvan Müəllimlər İnstitutunda təhsilini davam etdirmişdir.

Qəzənfər Əkbərov 1941-ci ildə Qoşadizə kənd məktəbinin müdiri vəzifəsinə təyin olunmuşdur. Lakin müharibənin başlanması ilə əlaqədar olaraq o, cəbhəyə yollanmış və öz igidliyi ilə fərqlənmişdir. Döyüş zamanı qəhrəmanlığı ilə seçilən Qəzənfər Əkbərov, həmçinin düşmən hücumundan öz yoldaşlarını qorumaq üçün göstərdiyi igidliklə fərqlənmişdir. Buna görə də fəxri məzunumuz Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

O, Naxçıvan Muxtar Respublikasının 3 Sovet İttifaqı Qəhrəmanından biridir. Qəzənfər Əkbərovun xatirəsini əbədiləşdirmək məqsədi ilə doğulduğu Cəhri kəndində ona abidə qoyulmuş və Cəhri qəsəbə 1 nömrəli məktəbə onun adı verilmişdir.

Kollecin fəxri məzunlarından biri də **Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev** olmuşdur.

Nəcəfqulu Rəfiyev 22 mart 1915-ci ildə Ordubad şəhərində anadan olmuşdur. Kollecin fəxri məzunlarından olan Nəcəfqulu Rəfiyev təhsilini hərbi sahədə davam etdirmişdir. Qəhrəmanımız Nəcəfqulu Rəfiyevdə hər zaman vətənpərvərlik və qəhrəmanlıq ruhu olduqca yüksək olmuşdur.

1935-ci ildə orduya çağırılmış və daha sonra hərbi təhsil almışdır.

1944-cü ildə Minsk şəhəri yaxınlığında gedən döyüşlərdə öz şücaətini göstərmiş və öz igidliyi ilə seçilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin verdiyi qərara əsasən, 1944-cü il sentyabr ayının 9-da Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Nəcəfqulu Rəfiyevin adına Ordubadda zavod və küçə, Babək rayonunda sovxoz, texnikum var. Həmçinin Ordubadda qəhrəmanın şərəfinə büst də qoyulmuşdur.

Kollecin şanlı tarixinə nəzər salsaq görərik ki, Sosialist Əməyi Qəhrəmanlarından da kolleci bitirən məzunlar olmuşdur.



Onlardan biri də **Məmməd Əsgərov** olmuşdur. Məmməd Əsgərov 25 dekabr 1918-ci ildə Culfa rayon Yaycı kəndində anadan olmuşdur. Kollecimizin fəxri məzunlarından olan Məmməd Əsgərov 1943-1944-cü illərdə Tovuz MTS-nin baş aqranomu olmuşdur. Onun fəaliyyəti geniş olmaqla yanaşı, töhfələri də bir o qədər faydalı idi.

O, 1958-ci ildən Naxçıvan MSSR Nazirlər Sovetinin sədrinin birinci müavini vəzifəsini daşımışdır.

1959-cu ildə isə Naxçıvan MSSR Nazirlər Sovetinin sədri olmuşdur. Məmməd Əsgərov Azərbaycan SSR-nin Kənd Təsərrüfatı naziri vəzifəsinə qədər yüksəlmişdir. Fəaliyyətdə olduğu növbəti illərdə o, bir sıra adlarla təltif olunmuşdur. 1968-ci ildə Azərbaycan SSR "Əməkdar aqronomu" fəxri adına layiq görülmüşdür. Daha sonra 4 dəfə "Lenin" ordeni, 2 dəfə "Qırmızı əmək bayrağı" ordeni, "Oktyabr inqilabı" ordeni ilə təltif olunmuşdur. O, 1973-cü ildə sovet dövrünün ən yüksək adlarından biri olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür. Kollecimizin fəxri məzunu olan Məmməd Əsgərov 1988-ci ildə vəfat etmişdir.

Növbəti Sosialist Əməyi Qəhrəmanlarından kolleci bitirən fəxri məzun **Narı Quliyeva** olmuşdur. Narı Quliyeva 10 iyul 1896-cı ildə Culfa rayon Kırna kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə 1934-cü ildə V.İ.Lenin adına kolxozda başlamış, 1956-cı ilə qədər bu kolxozda manqa başçısı işləmişdir.

1948-ci ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. SSRİ Ali Sovetinin 21 iyul 1949-cu il tarixli qanunu ilə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, "Oraq və Çəkic" medalı və "Lenin" ordeni ilə təltif olunmuşdur. 1953-cü ildən Sovet İttifaqı Kommunist Partiyası üzvü olmuş, Sovet İttifaqı Kommunist Partiyası 21-ci qurultayının nümayəndəsi olmuşdur. 1956-cı ildən Naxçıvan Sovxoz Texnikumunda laborant işləmişdir.

Narı Quliyeva 2005-ci ildə Culfa rayonunda vəfat etmişdir.



Əlbəttə ki, kollecdə oxumuş fəxri məzunlardan biri də **Natiq Əlişirin oğlu Nağıyev** olmuşdur.

Natiq Nağıyev 1959-cu ildə Naxçıvan şəhər Babək rayon Sust kəndində anadan olmuşdur.

1974-cü ildə Sust kəndində 8 illik məktəbi bitirdikdən sonra 1974-1977-ci illərdə N.Rəfiyev adına Naxçıvan Kənd Təsərrüfatı Texnikumunda Mühasibatlıq fakültəsində təhsil almışdır. 1977-1978-ci illərdə Naxçıvan rayonunun Baş-başı stansiyasında gübrə bazarında mühasib işləmişdir.

1978-1980-ci illərdə isə SSRİ-nin Altay vilayətinin Zeminiqorsk şəhərində hərbi xidmətdə olmuşdur. Hərbi xidməti başa vurduqdan sonra 1980-ci ildə Zeminiqorsk şəhərində daxili işlər orqanında milisioner vəzifəsində çalışmağa başlamışdır.

1985-ci ildə isə SSRİ Daxili İşlər Nazirliyinin Barnaul şəhərində yerləşən orta milis məktəbinə daxil olmuşdur.

1986-1990-cı illərdə isə Kommunist Partiyasının üzvü olmuşdur.

1988-ci ildə təhsilini başa vurduqdan sonra Altay vilayətinin Çrış rayonuna sahə müvəkkili vəzifəsinə təyinat almışdır.

1991-ci ildən isə Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyinin Babək Rayon Polis Şöbəsində xidməti fəaliyyətini davam etdirmişdir. Daha sonra sahə inspektoru kimi fəaliyyət göstərmiş, cinayət axtarış xətti üzrə əməliyyat müvəkkili olmuşdur.

1996-cı ildən Bakı Şəhəri Suraxanı Rayonuna baş əməliyyat müvəkkili vəzifəsinə təyin olunmuşdur.

1998-ci ildə isə Bakı Şəhəri Binəqədi Rayonunun Polis İdarəsinin 4-cü bölməsinin rəisi, 2000-ci ildən isə Nəsimi Rayon Polis İdarəsinin rəisinin əməliyyat işlər üzrə müavini, 2005-ci ildən isə Bakı Şəhəri Baş Polis İdarəsinin Narkomaniya və Narkobiznesə Qarşı Mübarizə İdarəsinin rəisi və 2008-ci ildə Sabunçu Rayonu Polis İdarəsinin rəis müavini vəzifəsində işləmişdir. Fəxri məzun 2015-ci ildə polis polkovniki rütbəsində təqaüdə çıxmışdır.

2015-2020-ci illər ərzində “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Ukrayna Respublikası üzrə nümayəndə heyətinin rəhbəri olmuşdur.

2020-ci ilin mart ayından indiyədək “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətində şöbə müdiri vəzifəsində fəaliyyət göstərir.



Fəxri məzunlar sırasında xüsusilə qeyd edilməli olan şəxslərdən biri də baytar-alim, tibb elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü **Hacı Məmmədbağır oğlu Hacıyevdir.** Görkəmli alim, müdrik insan, professor Hacı Hacıyev 1919-cu ildə Naxçıvan şəhər Culfa rayon Yaycı kəndində anadan olmuşdur.

1936-cı ildə Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu fərqlənmə diplomu ilə bitirmiş, Zootexniklik ixtisası almışdır. Elə həmin ildə də Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun Baytarlıq fakültəsinə qəbul olmuşdur.

1941-ci il Hacı Hacıyevin həyatında ən şərəfli və unudulmaz il kimi yadda qalmışdır. İnstitutu fərqlənmə diplomu ilə bitirdiyinə görə Dövlət İmtahan Komissiyasının tövsiyəsinə əsasən, institutda saxlanılıb, “Ümumi cərrahiyyə” kafedrasında assistent vəzifəsinə təyin edilib.

1962-ci ildə “Yoluxmayan daxili xəstəliklər və klinik diaqnostika” kafedrasına müdir təyin olunub. Burada 16 il çalışan, püxtələşən professor 1978-ci ildən daha çətin və məsuliyyətli vəzifəyə – institutun elmi işlər üzrə prorektoru vəzifəsinə irəli çəkilib, 1984-cü ilədək bu vəzifəni layiqincə yerinə yetirib, ömrünün sonunadək yenə həmin kafedraya rəhbərlik edib. Hacı Hacıyevin təşəbbüsü ilə Naftalan neftinin tərkibinin ardıcıl surətdə öyrənilməsi və baytarlıqda tətbiqi üzrə problem laboratoriyası təşkil edilmişdir. Professor Hacı Hacıyevin “Kənd təsərrüfatı heyvanlarının klinik müayinə sxemi”, “Baytarlıq terminləri lüğəti”nin “Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəliklərinin diaqnostikası”, “İribuynuzlu heyvanların həzm üzvlərinin yoluxmayan daxili xəstəlikləri”, “Naftalan baytarlıqda”, “Kənd təsərrüfatı heyvanlarının yoluxmayan daxili xəstəlikləri”, “Ümumi terapiyanın əsasları və profilaktikası”, “Baytarlıqda

ümumi terapevtik texnika", "Qanın, sidiyin və mədə möhtəviyyatının nümunəsi", "Klinik diaqnostikadan praktikum" və s. fundamental dərslik və dərs vəsaitlərinin müəllifidir. Naftalan nefti ilə müalicə sahəsində elmi işləri 1971-ci ildə Meksikada Beynəlxalq Konqresin materiallarına daxil edilmişdir. Professorun 200-ə qədər elmi əsəri, məqalələri müxtəlif mətbuat səhifələrində dərc edilib. Onun dərslik və dərs vəsaitlərindən tələbələr bu gün də istifadə edir, bəhrələnirlər. Professor Hacı Hacıyevin böyük və şərəfli fəaliyyəti həmişə yüksək qiymətləndirilərək mükafatlandırılıb.

O, "Qırmızı əmək bayrağı" ordeni, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı, bir çox medal və fəxri fərmanlarla təltif edilib, Ümumittifaq Kənd Təsərrüfatı Nailiyyətləri Sərgisinin dəfələrlə iştirakçısı olub, qızıl və gümüş medallara, diplomlara layiq görülüb.



Fəxri məzunlardan biri də **İsmayıl Rəşid oğlu Ağalarovdur**. O, 1969-cu ildə Şərur rayon Yuxarıdaşarx kəndində, ziyalı ailəsində anadan olmuşdur.

1984-cü ildə Yuxarıdaşarx məktəbinin 8-ci sinfini fərqlənmə şəhadətnaməsi ilə bitirmişdir. Elə Həmin ildə Naxçıvanda fəaliyyət göstərən Nəcəfqulu Rəfiyev adına Sovxoz Texnikumuna daxil olmuşdur.

1988-ci ildə həmin texnikumu fərqlənmə diplomu ilə bitirmişdir. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra 1991-ci ildə Şərur rayon Mirzə Ələkbər Sabir adına Sovxozda aqronom olaraq işə başlamışdır. Həmin illər müharibə dövrü olduğu üçün döyüşlərə qatılmışdır.

1993-cü il Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra YAP-ın üzvü sıralarına daxil olmuşdur. Bu illərdə mətbuat sahəsinə böyük maraq göstərərək, "Azərbaycan Press" ictimai-siyasi hüquq qəzetində müxbir kimi fəaliyyətə başlamışdır.

2004-cü ildə "Azərbaycan Respublikası Səhiyyəsi" Sağlam həyat naminə beynəlxalq elmi-tibbi jurnalın baş redaktoru vəzifəsində çalışmağa başlamışdır.

2021-ci ildən Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsində “Siyasət və Gerçək Uğur” ictimai siyasi hüquq jurnalında ümumi şöbənin müdiri vəzifəsində çalışır.

2023-cü ildə Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Tarix yaradan şəxsiyyət” kitabının müəllifi olmuşdur. Əlbəttə ki, kollecin şanlı tarix səhifələrinə baxsaq görərik ki, bir əsr müddətində fəaliyyət göstərdiyi bir vaxtda yetişdirdiyi məzunlar hazırda öz savadlılığı ilə seçilən, xalqın və dövlətin mənafeyi yolunda çalışan vətəndaşlar olmuşlar.

XX əsrin 20-ci illəri ilə müqayisədə müasir dövrə nəzər salsaq görərik ki, məzunların sayı artmaqla yanaşı, təhsilin və təlimin keyfiyyəti də bir o qədər artmış və ön plana çəkilmişdir. Hazırda kollecin məzunları respublikamızın bir sıra qabaqcıl universitetlərində təhsil alır, öz vətənpərvərlikləri ilə gələcək nəslə örnək bir gənc kimi yetişirlər. Kollec fəaliyyətə başladığı vaxtdan əlbəttə ki, heyvandarlıq sahəsini inkişaf etdirmək məqsədilə Baytarlıq ixtisası aparıcı ixtisasa çevrilmişdir. Həmin dövrün məzunları yiyələndikləri ixtisası mükəmməl şəkildə mənimsəmiş və gələcək fəaliyyətlərini öz ixtisaslarına uyğun davam etdirmişlər. Nümunə olaraq kollec yarandığı gündən həmin ixtisasda təhsil alan məzunlarımızın tələbəlik illərini əks etdirən fotoşəkilləri ilə tanış olaq.







***1982-1985-ci illərdə baytarlıq ixtisasında təhsil almış 507-ci qrupun tələbəlik illərindən xatirə***




***507-ci qrupun direktoru, direktor müavini və müəllim heyəti***

Əlbəttə ki, kollecimiz yarandığı ilk gündən aparıcı ixtisasa çevrilən Baytarlıq ixtisası ildən-ilə bacarıqlı və istedadlı gənclər yetişdirməyə davam etdi. Həmçinin təhsilin inkişafı ilə əlaqədar olaraq praktiki və təcrübəyönümlü dərslərin keçirilməsi də gənc tələbələr üçün olduqca faydalı idi. Növbəti olaraq 1993-cü ildə məzun olmuş Baytarlıq ixtisasını bitirmiş tələbələrlə tanış olaq.







***1993-cü ildə baytarlıq ixtisasını bitirmiş gənc və istedadlı məzunlar***



***Sonrakı illərin məzunu olmuş gənc tələbələr***



***Kollecin müəllim və tələbələri***




***1984-1987-ci illərdə texnikumun Baytarlıq şöbəsinin 509-cu qrupunun buraxılışı***

Kənd təsərrüfatının inkişafı dövründə əlbəttə ki, aqronumluq sahəsinin də inkişafı əsas idi. Belə ki, bitkiçiliyin və torpaqşünaslığın inkişaf etdirilməsi baxımından Aqrokimya və Aqronomluq ixtisası da yaranmışdır.

Kollec yarandığı gündən növbəti illərdə bu sahədə məzun olan tələbələr ixtisaslarına lazımi qədər yiyələnmiş və müəyyən peşə biliklərinə sahib olmuşlar.




***1969-1972-ci illərdə aqrokimya ixtisası üzrə təhsil almış tələbə qrupu***

1969-1972-ci illərdə aqrokimya ixtisasında təhsil almış Haqverdiyeva Cəmilə məzun olduqdan bir müddət sonra elə həmin məktəbdə pedaqoji fəaliyyətə başlamış və fəaliyyətini layiqincə davam etdirmişdir.


ДИПЛОМУ
К № 806742
Һагвердијева Ҹәмилә
Һагверди гызына
1969
Нахчыван кәнд тәсәррүфаты техникумуна
1972
Нахчыван Совхоз-техникумунда агроном-агрокимјаты
28 феврал 1972
агроном агрокимјаты
Меһдијев И.
Багыров Ҹ.
Һәсәнов А.
Нахчыван .04. март 1972
2058

ДИПЛОМ
С ОТЛИЧИЕМ
К № 806742
Хахвердиевой Джамиле Хахверди кызы
1969
Нахичеванского сельскохозяйственного техникума
1972
Нахичеванского Совхоз-техникума
агроном-агрохимик
Хахвердиевой Дж. Х.
агроном-агрохимик
Нахичевань 04 марта 1972
2058

***1969-1972-ci illərdə aqrokimya ixtisasında təhsil almış Haqverdiyeva Cəmilənin diplomu***






***1988-1992-ci illərdə kollecdə aqronom ixtisası üzrə təhsil alan tələbələr***

Təbii haldır ki, iqtisadi münasibətlərin formalaşması üçün Mühasibat uçotu ixtisasının açılması vacib hallardan birinə çevrilmişdirMühasibatlıq üzrə ilk tədris kursları Əliqulu Fərəcov tərəfindən təşkil edilmişdir. Azərbaycanda mühasibat uçotunun qurulmasında Əliqulu Fərəcov mühüm rol oynamışdır. O, həmin banisi kimi tanınmışdır.

1917-1920-ci illərdə hesabdar mühasiblər kursları Əliqulu Fərəcovun kursları adlanırdı. İxtisas açıldıqdan sonra savadlı kadrların hazırlanması əsas məqsədlərdən birinə çevrilmişdir.





***Kollecin direktoru və pedaqoji müəllim heyəti.***
***Mühasibat uçotu ixtisası üzrə təhsil almış istedatlı tələbələr***

# V BÖLMƏ

## XXI ƏSRDƏ KOLLEC VƏ ONUN İNKİŞAF İSTİQAMƏTİ

Kollec yarandığı bir dövrdən inkişafa meyilli bir təhsil ocağı olmuş, həmçinin fəaliyyət istiqamətləri zaman keçdikcə genişlənmişdir. Təhsil sahəsini genişləndirmək və inkişaf etdirmək dövlətimizin daim diqqət mərkəzində olmuşdur. Bu məqsədlə istər ali, istərsə də orta təhsil müəssisələri haqqında bir sıra qərarların qəbul edilməsi əsas idi. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında qərarına əsasən, orta ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı təsdiq olundu. Əlbəttə ki, həmin proqramın təsdiq olunması, təhsilin səmərəli inkişafı baxımından olduqca əlverişli idi. Orta ixtisas təhsilinin dövlət standartı orta ixtisas təhsilinin məzmununu, idarə olunmasını, orta ixtisas təhsili müəssisələrinin maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyən edirdi. Orta ixtisas təhsilinin məzmununa və təşkilinə dair təhsilalanlarda (tələbələrdə) müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabətqabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq bacarığını formalaşdırmaq və öz üzərinə məsuliyyət götürmək bacarıqlarını formalaşdırmağı məqsəd qoyurdu. Tələbələrin kollegial qərarların qəbulunda, demokratik təsisatların fəaliyyətində və inkişafında iştirak etməsi müstəqil, yaradıcı şəxsiyyət və vətəndaş kimi yetişməsi təmin edilirdi. Eyni zamanda fasiləsiz təhsil almasını, daim yeniləşən, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə yiyələnməsini, cəmiyyətin tələbatının daha səmərəli ödənilməsini, şəxsiyyət kimi inkişaf etməsini və təhsilin hamı üçün açıq və bərabər imkanlı olması nəzərdə tutulurdu. Yüksək intellektual səviyyəyə və praktiki iş qabiliyyətinə, yeni texnologiyalara yiyələnmək, informasiya axınında çevik istiqamət tapmaq bacarığını formalaşdırmaq, cəmiyyətin yüksək səviyyəli və rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsi üçün real zəmin yaradılırdı. Orta ixtisas təhsili müəssisəsində

tədris prosesinin təhsilalanların və təhsilverənlərin insan ləyaqətinə hörmət etməsi əsasında qurulmasını təmin etmək və təhsilalana qarşı hər hansı fiziki və psixoloji zorakılığa yol verməmək kimi minimum tələblər var idi. Dövlətimizin təhsilə göstərdiyi diqqət və qayğıya nəzər saldıqda qəbul edilən qanunun əsas məqsədinin orta təhsil müəssisələrində təhsilin inkişafına yönəldiyini görmək olar. Əlbəttə ki, kollec də inkişaf edən təhsil ocaqları silsiləsindəndir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"nın təsdiq edilməsi haqqında verdiyi qərar orta təhsil müəssisələrində təhsilin keyfiyyətinin artırılmasına və qəbulun sürətlənməsi ilə nəticələndi. Həmçinin Azərbaycan Respublikasının "Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasından tələbə qəbulu qaydaları" təsdiq edildi.

"Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi qaydaları"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin verdiyi qərar kollecin səmərəliliyinin artırılmasına və onun keyfiyyətinin yüksəldilməsinə şərait yaratmışdır. Həmçinin subbakalavrların bakalavr səviyyəsinə imtahansız qəbul olunmaq şəraitinin yaradılması haqqında qaydalar verilmişdir.

Əlbəttə ki, belə bir qərarın verilməsi, o cümlədən subbakalavrların bakalavr olmaq istəklərini də nəzərə alsaq, tələbələrin orta göstəricilərini yuxarı saxlamaq məqsədilə daha çox çalışdığını və bunun nəticəsində kollecdə təhsilin, tədrisin artdığını görmək olar. "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"nın təsdiq edilməsi haqqında qanuna əsasən, orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları təsdiq edildi.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 1999-cu il

30 avqust tarixli 188 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərar vermişdir.

Həmin qərara əsasən, "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər aidiyyəti nazirlik və təşkilatları dövlət himayəsində olan və olmayan, qəyyumluqda, himayədə olan, himayədar valideynlərə (himayədar ailəyə) və övladlığa verilən, habelə rəsmiləşdirilmədən yaxın qohumunun (baba, nənə, əmi, dayı, xala, bibi və s.) yanında yaşayıb tərbiyə olunan, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi üçün qanunda nəzərdə tutulmuş güzəşt və imtiyazların həyata keçirilməsi ilə bağlı lazımi tədbirlər görməli idilər. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsini yaxşılaşdırmaq məqsədilə "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar" arasından olan şəxslərə ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil aldıqları müddət ərzində dərslik və dərs ləvazimatları alınması, təhsil aldığı müəssisənin vəsaiti hesabına təmin edilməli və yaxud həmin dərslik və dərs ləvazimatları əvəzinə 50 manat müavinət verilməlidir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, habelə onların arasından olan şəxslər ümumi təhsil, peşə təhsili, orta ixtisas təhsili, ali təhsil müəssisələrini bitirdikləri zaman Azərbaycan Respublikası Nazirlər Kabinetinin "İnternat tipli ümumi təhsil müəssisələrində təhsilalanlar dövlət və ya bələdiyyə tərəfindən yaradılan uşaq evləri, ailə tipli kiçik qrup evləri, sosial xidmət müəssisələrində tərbiyə olunan uşaqların geyim, ayaqqabı və yumşaq inventarlarla təmin olunması norması haqqında" 1994-cü il 17 yanvar tarixli 15 nömrəli qərarına uyğun olaraq müvafiq təhsil müəssisəsinin xərclər smetası hesabına 265 manat məbləğində mövsümü paltar və ayaqqabı, habelə respublika üzrə orta aylıq əməkhaqqının 2 mislindən az olmamaqla birdəfəlik pul vəsaiti ilə təmin olunmalı idilər.

Növbəti olaraq tədrisin keyfiyyətinin artırılması məqsədilə Fənn Birləşmə Komissiyaları yaradıldı. Fənn (fənn birləşmə) Komissiyaları

tədris müəssisələrinin əyani, axşam və qiyabi şöbələrində tədris işi aparan bütün müəllimləri, istehsalat təlimi ustalarını, eyni zamanda əvəzçiliklə və saathesabı işləyən müəllimləri özündə birləşdirirdi. Fənn Komissiyasının funksiyası və başlıca vəzifələri kiçik mütəxəssis hazırlığının keyfiyyətini təmin etmək məqsədilə tədris prosesinin təkmilləşdirilməsi və elmi əsaslarla təşkilinə yönəlmiş səmərəli tədbirlərin hazırlayıb həyata keçirməkdir. Tədrisin fəallaşdırıcı metodlarından istifadə edərək tələbələr tərəfindən proqram materiallarının mənimsənilmə səviyyəsini yüksəltmək, tədris plan və proqramının düzgün yerinə yetirilməsini təmin etmək komissiyanın əsas məqsədlərindəndir. Tədris ilinin əsas metodik vəzifələrini müəyyənləşdirmək, kiçik mütəxəssisə verilən tələblər və istehsalatın əsas tələbi nəzərə alınmaqla mütəmadi olaraq tədris planı və proqramlarının təkmilləşdirilməsini təmin etmək, mövcud tədris plan və proqramlarında dəyişiklik aparılması üzrə tövsiyələr verməkdə bu komissiyanın vəzifələrinə daxildir. Həmçinin istedadlı və təcrübəli müəllimləri dərslik, dərs vəsaiti, ayrı-ayrı fənlərin tədrisi metodikasına dair vəsaitlərin, laboratoriya işlərinin, praktik məşğələlərinin, tədris və istehsalat təcrübələrinin, kurs işi və diplom layihələrinin yerinə yetirilməsinə dair metodik göstərişlər, metodik tövsiyələr, tərcümələr işləyib hazırlanmasına cəlb etməkdən ibarət idi.

Kollecimizin tələbə təşkilatları da fəaliyyət göstərir. Bunlardan biri də Tələbə Həmkarlar İttifaqıdır. Tələbə Həmkarlar İttifaqı Komitəsi tələbələrin hüquqlarını qoruyan yeganə təşkilatdır. THİK kollecdə tələbələri ictimai işlərə cəlb edərək bu istiqamətdə formalaşmaları, kollecin daxili nizam-intizam qaydalarına riayət etmələri, tələbələrin asudə vaxtlarının dəyərləndirilmələri, yay və qış məktəblərinin təşkili, kollecin ictimai həyatı və elmi cəhətdən fərqlənən THİK fəallarının mükafatlandırılmaları istiqamətində fəaliyyət göstərir. Bu nöqteyi-nəzərdən Naxçıvan Dövlət Texniki Kollecinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) fəaliyyəti böyük önəm daşıyır. THİK kollecin idarə olunmasında da yaxından iştirak edir. Belə ki, Naxçıvan Dövlət Texniki Kollecində tələbələrlə bağlı qəbul olunan bütün qərarlarda bu qurumun rəyi nəzərə alınır. Təşkilatın ən səmərəli fəaliyyət istiqamətlərindən birini də bu sahədə

aparılan işlər təşkil edir. Bunlardan vətənpərvərlik mövzusunda hazırlanmış teatr səhnələri, videoçarxlar, maarifləndirici tədbirləri və s. qeyd etmək olar. 2020-ci ilin iyul döyüşləri zamanı şəhid olmuş Milli Qəhrəman general-mayor Polad Həşimovun xatirəsinə aid teatr səhnəsi, Vətən müharibəsinin gedişində vətənpərvər ruh yüksəlişinə aid çəkilmiş videoçarxlar, Zəfər bayramına həsr olunmuş tədbirlər bunların arasında daha mühüm yer tutur. Komitənin ən mühüm fəaliyyətlərindən biri də ondan ibarətdir ki, gündəlik qayğılarına qapanıb qalan istedadlı tələbəni gündəmə gətirir, onu ictimai fəaliyyətə cəlb edir.

Növbəti olaraq, yaranan təşkilatlardan biri də Tələbə Gənclər Təşkilatıdır. Naxçıvan Dövlət Texniki Kollecinin Tələbə Gənclər Təşkilatı 25 may 2005-ci ildən fəaliyyət göstərir. Tələbələrin özlərini idarəetmə orqanı olan TGT tələbələrin hüquqlarını qorumaq, potensialını aşkarlamaq, tələbə şəbəkəsi ilə əhatəsini genişləndirmək, gələcəyə fikirlərini məqsədəmüvafiq şəkildə yönəltmək və tələbələrin asudə vaxtını maraqlı təşkil etməkdir. Kollecin daxilində keçirilən tədbirlər, intellektual yarışmalar, debat çempionatları, sərgilər, idman yarışları, musiqi festivalları və s. kimi tədbirlər TGT-nin üzvləri və yeni üzv olan tələbələrin layihələri əsasında formalaşır. Maraq və ixtisas dairəsinə əsaslanan bu layihələri həyata keçirən layihənin müəllifidir. Tələbə ideyasını TGT Layihələr Departamentinə təqdim edir. Layihələr Departamenti ideyanı layihə kimi formalaşdırıb mövzuya uyğun olan departamentə ünvanlandırır. Departament rəhbəri layihəni sədr müavinlərinə ünvanlandırır. Bir neçə düzəlişlərdən sonra layihə TGT sədrinə ünvanlanır. Sədr tərəfindən təsdiqini tapan layihə start halını alır. Layihəni qəbul etmiş departament ideya müəllifi olan tələbəyə lazımi məlumat və informasiyanı çatdırır. Layihə müəllifi layihəsini həyata keçirmək üçün işçi qrup yaradaraq öz fəaliyyətinə başlayır. Layihənin məkanı və zamanı müəyyənləşdirildikdən sonra layihə başlayır. Kollecdən kənarda keçirilən tədbirlərdə tələbələrin iştirakını könüllü təşkil etmək üçün keçirilən tədbirin mövzusuna marağı olan tələbələr cəlb edilir. Bu vəzifəni qrup sədrləri təşkil edirlər.

Kollecin səmərəli təşkilatlarından biri də Tələbə Elmi Cəmiyyəti adlı təşkilatdır. Naxçıvan Dövlət Texniki Kollecinin Tələbə Elmi Cəmiyyəti tələbələrin elmi-tədqiqat və elmi-praktiki işinin təşkili və koordinasiyası

üçün yaradılmış və öz fəaliyyətini müəllimlərin iştirakı ilə həyata keçirən tələbə birliyidir. Tələbə Elmi Cəmiyyətinin yaradılmasında həm tələbələrin təşəbbüsü, onların fəal vətəndaş mövqeyi və elmə marağı, həm də bu cür tələbə birliyinin fəaliyyəti üçün bütün lazımi şəraiti yaradan kollec rəhbərliyi əhəmiyyətli rol oynamışdır. Məhz bu maraqlar balansı bir növ simbioz şəklində onun mütəşəkkil inkişafına kömək edən başlıca amillərdən biridir.

XXI əsrdə mövcud olan kollecimizə nəzər salsaq görərik ki, fəaliyyətin inkişafı məqsədilə burada kabinələr yaradılmışdır. Nəqliyyat vasitələrinin texniki istismarı kabinəsi, Hərbi kabinə, Elektrik şəbəkələri fənn kabinəsi, Baytarlıq kabinəsi, Qaz təchizatı avadanlıqları kabinəsi, Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı kabinəsi, Lokomotiv və elektrik qatarı təsərrüfatı kabinəsi, Bank və poçt işi kabinəsi fəaliyyət göstərir. Həmin kabinələrdə tələbələr öz ixtisaslarına uyğun dərslər keçir və bu tədrisin keyfiyyətinin daha çox artmasına gətirib çıxardır. Kabinələrlə yanaşı, kollecdə laboratoriyalar da fəaliyyət göstərir. Hazırda, Kimya-biologiya, Baytarlıq, STEAM və Fizika laboratoriyaları fəaliyyət göstərir. Tələbələrimiz dərsləri praktiki cəhətdən mükəmməl şəkildə öyrənmək üçün daim laboratoriyalara müraciət edirlər.

Fizika laboratoriyası Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin fizika qanunları barədə təsəvvürlərini genişləndirmək istiqamətində bacarıqlarını təkmilləşdirir. Kollecin Fizika laboratoriyasında 5 bölmə üzrə praktiki-təcrübə laboratoriya işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Bunlara ilk olaraq Mexanika, Molekulyar fizika, Elektrik və maqnetizm, Optika, Atom fizikası və s. aid edilmişdir. Laboratoriyada mövcud olan müasir avadanlıqlar fizikanın sadalanan sahələri üzrə əsas təcrübə işlərinin aparılmasına imkan verir. Laboratoriyada aparılan təcrübələr tələbələrə fizika ideyalarının əhəmiyyətini anlamaqda kömək edir. Həmçinin tələbələri fizika sahəsində araşdırmaların aparılması üçün zəruri olan metod və vasitələrlə tanış edir. Fizika qanunları eksperimental və müşahidə faktorlarına əsaslanır. Bu səbəbdən laboratoriya işləri Ümumi fizika fənninin, eləcə də fizika profilli digər fənlərin mühüm tərkib hissəsi olub, kollec tələbələrinə fundamental elmi hesablamalar aparmaq və fizika qanunları barədə təsəvvürlərini genişləndirmək istiqamətində bacarıqlarını

təkmilləşdirmək imkanı yaradır. Laboratoriyada aparılan işin məqsədi müvafiq qurğu və avadanlıqların vasitəsi ilə aparılan real təcrübələr çərçivəsində fizika ideyalarının əhəmiyyətini anlamaqda yardımçı olmaq, həmçinin tələbəni fizika sahəsində araşdırmaların aparılması üçün zəruri olan metod və vasitələrlə tanış etməkdir. Tələbələr üçün real həyatda kəmiyyət ölçmələrini aparmağın çətinliyini hiss etmək və təcrübə ilə bağlı məlumatları qeydə alıb, onlardan istifadə etməyi öyrənmək vacib əhəmiyyət kəsb edir. Bu baxımdan kollecin hər bir tələbəsindən ona verilmiş laboratoriya işini müvəffəqiyyətlə həyata keçirmək və başa vurmaq tələb olunur.

Baytarlıq laboratoriyası Baytarlıq ixtisasına yiyələnən tələbələrin öz ixtisasları ilə bağlı daha dərin biliklərə yiyələnməsini təmin edir. Bütün avadanlıqlarla zəngin olan laboratoriyada balbas qoyun cinsinin maketi, donuz cinsinin maketi, tək dırnaqlıların arxa ayaq quruluşunun maketi, cüt dırnaqlıların arxa ayaq quruluşunun maketi, qulağın quruluşunun anotomik maketi, gözün quruluşunun anotomik maketi, dilin anotomik quruluşunun maketi, ağciyərin anotomik quruluşunun maketi, qarışqanın daxili orqanlarının maketi, dərialtı toxumanın anotomik quruluşunun maketi, ürəyin anotomik quruluşu, bağırsaq xovlarının quruluşu, inəyin anotomik quruluşunun maketi, canis domestica, quşun anotomik quruluşunun maketi, qazın anotomik quruluşunun maketi, itin anotomik quruluşunun maketi, cərrahi tikişlər, atın kəllə skeletinin anotomik quruluşunun maketi, inəyin kəllə skeletinin anotomik quruluşunun maketi, bağırsağın anotomik quruluşunun maketi və s. yerləşir. Bütün bu maketlər və avadanlıqlar tələbələrdə bu sahədə təsəvvürün formalaşmasına və praktiki cəhətdən ixtisaslarına daha dərindən yiyələnmələrinə köməklik göstərir. Laboratoriyada tələbələr üçün hər cür şərait yaradılmış və hal-hazırda fəaliyyətini davam etdirir.

Kimya-biologiya laboratoriyası tələbələrdə kimya və biologiya fənni ilə əlaqədar fikirlərin formalaşmasına kömək edir. Hal-hazırda kollecimizdə öz fəaliyyətini davam etdirən laboratoriya kimyəvi maddələrlə zəngindir. Natrium hidroksid, alüminium hidroksid, kalsium hidroksid, sulfat turşusu, dəmir II sulfat, dəmir III xlorid, qliserin, nişasta, kalsium karbonant, kalium sulfat, aseton, benzolin turşusu, kalium hidroksid, hidroxlorid turşusu, teksol, sink nitrat, kalium xromat, kalium xlorat,

natrium xlorid, salisil turşusu, barium xlorid, manqan dioksid, yod, mis II xlorid, kükürd tozu, natrium asetat, ammonium xlorid, barium hidroksid və s. kimyəvi maddələr hazırda laboratoriyamızda mövcuddur. İstər praktiki, istərsə də nəzəri cəhətdən bəzi dərslərin öyrənilməsi burada həyata keçirilir. Əlbəttə ki, bu tələbələrimiz üçün olduqca faydalıdır.

Kollecimizdə fəaliyyət göstərən laboratoriyalardan biri də STEAM laboratoriyasıdır. Tələbələrimizə öz layihələrini qurmalarında və həyata keçirmələrində məhz bu laboratoriya yaxından köməklik göstərir. STEAM bacarıqlarına sahib işçi qüvvəsinə ehtiyac artdığı üçün STEAM təhsili dünyanın hər yerində təhsil islahatının mərkəzindədir. Zaman keçdikcə daha çox əhəmiyyət kəsb edir.

Naxçıvan Muxtar Respublikasında da təhsilin beynəlxalq təcrübəyə uyğunlaşdırılması nəzərə alınaraq 7 iyun 2021-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. STEAM təhsil metodunun əhatə dairəsinin genişləndirilməsi məqsədini daşıyan sərəncamın icrası ilə bağlı ümumtəhsil məktəbləri ilə yanaşı, Naxçıvan Dövlət Texniki Kollecində də STEAM kabinəsi yaradılmışdır. Kabinə müasir dizaynda mebel avadanlıqları, elektron lövhə, 2 ədəd kompüter, 1 ədəd 3D printer və müxtəlif rəngdə çap materialı, Make block, mBot, Arduino BT robotlar, Mindstorms və education lego dəstləri, 3D qələmlər, Arduino və BBC Micro: bit proqramlama və inkişaf dəstləri, servo mühərriklər, LCD ekranlar, micro idarəetmə modulları, RGB led və naqillər, müxtəlif ölçüdə mikro mexanizmlər, kiçik elektronik komponentlər, təlim dəstləri, müxtəlif fiqurların hazırlanması üçün lazım olan alətlər, tədris üçün ofis ləvazimatları və materialları ilə tam təmin olunub.

Kollecdə tələbələrimizin maarif sahəsində inkişaf etməsi və təhsildə irəliləməsi üçün kitabxana sahəsi fəaliyyət göstərir. Ümumilikdə kitabxanada kitab sayı 10232-dir. Kitab sayının 4715-i 10-cu və 11-ci sinif dərslikləridir. Hazırda kitabxanada 453 oxucu var. Bunlardan 60 oxucu kollecin müəllim ve işçi heyətidir. Kitabxanamız 8 guşədən ibarətdir. Azərbaycan Respublikası Prezident Administrasiyası Azərbaycan Respublikasında 2024-cü ilin Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi

elan etməsi ilə bağlı olaraq "Naxçıvan guşəsi", bunlarla yanaşı, "Heydər Əliyev" guşəsi, "İlham Əliyev" guşəsi, Müasir Azərbaycan ədəbiyyatı, Klassik Azərbaycan ədəbiyyatı, "Dünya ədəbiyyatı" guşəsi, ensiklopediyalar, lüğətlər, həmçinin kitabxanada bir sıra sərgilər, "Oxumusunuzmu?" guşəsi hazırlanmışdır. Kitabxanada olmayan kitabları isə elektron kitabxana vasitəsi ilə kitabxanamıza daxil edirik. Hazırda kitabxanamızda 300 elektron kitab vardır.

Orta ixtisas təhsilinin keyfiyyətlə həyata keçirilməsində nəzəri biliklərin praktiki bacarıqlarla tamamlanması böyük əhəmiyyət kəsb edir. Bu məqsədlə təcrübələrin düzgün və səmərəli təşkili tələbələrin bilik və bacarıqlarını real iş mühitində tətbiq etməsinə, onların əmək bazarına daha hazırlıqlı çıxmasına şərait yaradır. Təcrübə müddətində tələbələr müvafiq sahələr üzrə biliklərini dərinləşdirir, əmək bazarının tələblərinə uyğun vərdişlərə yiyələnir və gələcək peşə fəaliyyətləri üçün lazımi təcrübə toplayırlar. Məqsədimiz tələbələrimizin yalnız nəzəri biliklərlə kifayətlənməməsi, onları müasir iş bazarının tələblərinə uyğun praktik bilik və bacarıqlarla təmin etməkdir. Bu istiqamətdə daim yeni metodlardan istifadə edərək təcrübələrin daha səmərəli və effektiv keçirilməsinə çalışırıq.

Diplomqabağı təcrübənin təşkil edilməsi üçün müxtəlif dövlət qurumları və müəssisələrlə əməkdaşlıq nəzərdə tutulur. Tələbələrimiz bu qurumlarda praktik vərdişlər qazanırlar:

Mühasibat uçotu ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi ilə əməkdaşlıq. Bu təcrübə çərçivəsində tələbələr dövlət büdcəsinin idarə olunması, maliyyə siyasəti, vergi qanunvericiliyi və mühasibat uçotunun əsas prinsipləri ilə yaxından tanış olurlar.

Bələdiyyə işi ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi. Tələbələr yerli idarəetmə, hüquqi tənzimləmə və bələdiyyə fəaliyyəti ilə bağlı praktiki biliklər əldə edirlər.

Bank işi ixtisası üzrə – Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi. Burada tələbələr bank əməliyyatları, kredit siyasəti, maliyyə menecmenti və risk idarəetməsi sahələrində biliklərini artırırlar.

Baytarlıq və aqrar (fermer) təsərrüfatının təşkili ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi. Tələbələr bitkiçilik, heyvandarlıq, aqrar sahənin inkişaf strategiyaları və baytarlıq xidmətləri barədə təcrübə qazanırlar.

Telekommunikasiya və kompüter sistemlərinin informasiya təhlükəsizliyi ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. Bu təcrübə çərçivəsində tələbələr informasiya təhlükəsizliyi sistemləri rəqəmsal texnologiyalar və internet şəbəkələrinin qorunması üzrə təcrübə keçirlər.

Nəqliyyat vasitələrinin texniki istismarı ixtisasları üzrə – Naxçıvan Avtomobil Zavodu. Burada tələbələr müasir nəqliyyat texnologiyaları, avtomobil istehsalı və texniki istismar qaydaları ilə yaxından tanış olurlar.

Elektrik təchizatı ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti. Bu sahə üzrə təhsil alan tələbələr enerji sistemlərinin idarə edilməsi, enerji təchizatı və elektrik şəbəkələrinin fəaliyyəti haqqında praktiki biliklər əldə edirlər.

Lokomotiv və elektrik qatarı təsərrüfatı ixtisası üzrə – "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti. Tələbələr dəmir yolu nəqliyyatının təşkili, lokomotiv istismarı və texniki xidmət sahələrində biliklərini artırırlar.

İstilik təchizatı və istilik texnikası avadanlıqları ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti. Tələbələr qaz şəbəkələrinin idarə olunması, istilik sistemlərinin istismarı və təhlükəsizlik qaydaları barədə məlumatlanırlar.

Turizm işinin təşkili ixtisası üzrə – Naxçıvan Muxtar Respublikası Turizm Departamenti. Burada tələbələr turizmin idarə olunması, turizm marketinqi, bələdçilik və otelçilik sahələrində praktiki biliklər əldə edirlər.

Bu qurumlarla əməkdaşlıq çərçivəsində tələbələrin real iş mühitinə uyğunlaşması, nəzəri biliklərini praktikaya tətbiq etməsi və gələcək peşəkar karyeraları üçün zəruri vərdişlər qazanması məqsədilə müvafiq tədbirlər görülür.

1. Hər bir tələbənin təcrübədə aktiv iştirakı təmin olunur və davamiyyəti nəzarətdə saxlanılır.
2. Tələbələrə uyğun təcrübə yerlərinin seçilməsi təmin edilir.

3. Təcrübə müddətində tələbələrin fəaliyyətləri qiymətləndirilir, onların əldə etdiyi nəticələr təhlil edilir və yekun hesabatlar təqdim olunur.

4. Təcrübə müddətində tələbələrin bilik və bacarıqlarının artırılması məqsədilə mütəmadi seminarlar və praktiki təlimlər təşkil edilir.

5. Təcrübə zamanı tələbələr yeni texnoloji sistemlərlə tanış olur və ixtisas sahələrinə uyğun avadanlıqlarla işləmək imkanı əldə edirlər.

Göründüyü kimi, Naxçıvan Dövlət Texniki Kolleci günü-gündən inkişaf edir və müəyyən çərçivədə öz fəaliyyətini uğurlu bir şəkildə davam etdirir. Olduqca peşəkar, savadlı və məqsədyönlü pedaqoji kollektivin olması, təhsil və təlimin daha yaxşı irəliləməsinə səbəb olmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin orta təhsil müəssisələri haqqında verdikləri qərarlar, əlbəttə ki, kollecə də öz təsirini göstərmişdir. Ümummilli Lider Heydər Əliyevin dediyi kimi, "Təhsil millətin gələcəyidir...". Ulu Öndərin bu müdrik kəlamında dərin mənalar vardır. Hazırda kollec Naxçıvan Muxtar Respublikasında istər təhsilvermə, istərsə də nizam-intizam qaydalarına mütəmadi olaraq əməl etməklə daim inkişaf edir və yeni uğurlara imza atır.

## VI BÖLMƏ

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN NƏZDİNDƏ NAXÇIVAN DÖVLƏT TEXNİKİ KOLLECİ

Məlum olduğu kimi, 2023-cü ildən etibarən Naxçıvan Dövlət Texniki Kolleci Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərir. Bildiyimiz kimi, Naxçıvan Dövlət Universiteti 1967-ci ildən Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamışdır. Bu universitet Naxçıvanda yaranmış ilk ali təhsil müəssisəsi olmuşdur. Yaradılmış filial 1972-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutuna, 1990-cı ildə isə Naxçıvan Dövlət Universitetinə çevrilmişdir. 2002-ci ildən universitetə muxtariyyət hüququ verilmişdir. Universitetin hazırkı rektoru tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayevdir. Elbrus İsayev universitetin rektoru kimi fəaliyyətə başladığı gündən universitet günü-gündən daha da inkişaf etmiş və  Azərbaycanın nüfuzlu universitetləri sırasında özünəməxsus yer tutmuşdur.

Naxçıvan Dövlət Texniki Kollecinin Naxçıvan Dövlət Universitetinin nəzdinə verilməsi kollec üçün böyük uğurdur. Kollec universitetin nəzdinə verildikdən sonra kollecin müəllim və tələbə heyəti universitetin zəngin və elektronlaşdırılmış kitabxanası, laboratoriya və digər maddi-texniki bazasından istifadə imkanları əldə etmişdir. Bu imkanlardan istifadə isə öz növbəsində təhsildə keyfiyyətin artırılmasına səbəb olmaqdadır.

Bu gün kollecdə fəaliyyət göstərən ixtisasların müasir dövrümüzdəki yerinə nəzər saldığımız zaman görürük ki, kadr hazırlığı aparılan bu ixtisasların hər biri əmək bazarında özünəməxsus yer tutmaqdadır.

### Telekommunikasiya və kompüter sistemlərinin informasiya təhlükəsizliyi ixtisasının günümüzdə rolu

Müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində insanlar şəxsi və işgüzar fəaliyyətlərini daha çox rəqəmsal mühitdə həyata keçirirlər. İnternet üzərindən bank əməliyyatları aparmaq, onlayn alış-veriş etmək, sosial şəbəkələrdə ünsiyyət qurmaq və müxtəlif platformalarda məlumat mübadiləsi aparmaq artıq gündəlik həyatın

ayrılmaz hissəsinə çevrilib. Lakin bu inkişafla yanaşı, kiber təhlükələr də artmışdır və informasiya təhlükəsizliyi günümüzdə mühüm əhəmiyyət kəsb edir.

İnformasiya təhlükəsizliyi fərdi və təşkilati məlumatların icazəsiz giriş, dəyişiklik və ya məhv edilmədən qorunmasını təmin edir. Hər bir insanın şəxsi məlumatları, o cümlədən bank kartı məlumatları, e-poçt və sosial media hesabları, parollar və digər fərdi informasiyalar kiber cinayətkarların hədəfinə çevrilə bilər. İnformasiya təhlükəsizliyinə riayət olunmadıqda bu məlumatlar oğurlana və ya sui-istifadə edilə bilər.

İnternet üzərindən həyata keçirilən maliyyə əməliyyatları, onlayn bankçılıq və elektron ticarət xidmətləri informasiya təhlükəsizliyi olmadan risk altında qalır. Kiberdələduzluq halları nəticəsində fərdlər və şirkətlər böyük maliyyə itkiləri ilə qarşılaşa bilərlər.

Dövlət qurumları biznes strukturları və digər təşkilatlar öz məlumatlarını qorumaq üçün güclü təhlükəsizlik sistemlərinə ehtiyac duyurlar. Əks halda, məxfi məlumatların sızması ciddi hüquqi və iqtisadi nəticələrə səbəb ola bilər.

Son illərdə kiberhücumların sayı artmış, böyük miqyaslı informasiya oğurluqları, virus və zərərverici proqramlarla təşkil olunmuş hücumlar geniş yayılmışdır. İnformasiya təhlükəsizliyi tədbirləri olmadan bu hücumların qarşısını almaq çətinləşir.

Nəticə olaraq informasiya təhlükəsizliyi rəqəmsal dünyanın ayrılmaz bir hissəsi olmaqla, həm fərdlər, həm də cəmiyyət üçün ciddi əhəmiyyət daşıyır. Bu sahəyə diqqət yetirilmədikdə şəxsi, təşkilati və dövlət səviyyəsində ciddi risklərlə qarşılaşmaq mümkündür.

**Kompüter sistemlərində proqram təminatı ixtisasının günümüzdə rolu**

Müasir dövr texnologiyanın sürətlə inkişaf etdiyi bir dövrdür və bu inkişafın əsas hərəkətverici qüvvələrindən biri proqram təminatıdır. Proqram təminatı kompüterlər, mobil cihazlar və digər elektron qurğuların işləməsini təmin edən, istifadəçilərə müxtəlif funksional imkanlar yaradan xüsusi yazılımlardır. Bu gün proqram təminatı olmadan nə şəxsi həyatımızı, nə də biznes mühitini təsəvvür etmək mümkündür.

Proqram təminatı rəqəmsal dünyanın əsasını təşkil edir. Kompüterlər, smartfonlar, planşetlər, ağıllı televizorlar və digər elektron cihazlar proqram təminatının köməyi ilə işləyir. İstifadə etdiyimiz bütün tətbiqlər, əməliyyat sistemləri və platformalar proqram təminatının məhsuludur.

Günümüzdə insanlar proqram təminatından hər gün müxtəlif məqsədlərlə istifadə edirlər:

Sosial şəbəkələr (Facebook, Instagram, WhatsApp) vasitəsilə ünsiyyət qururlar. Elektron bankçılıq tətbiqləri ilə maliyyə əməliyyatları həyata keçirirlər. Onlayn alış-veriş platformaları üzərindən ehtiyaclarını qarşılayırlar. Səhiyyə, nəqliyyat və təhsil sahələrində proqram təminatı müxtəlif xidmətləri daha əlçatan və rahat edir.

Müasir biznes mühitində proqram təminatı istehsal, marketinq, mühasibatlıq, insan resursları və müştəri xidməti kimi sahələrdə mühüm rol oynayır. Avtomatlaşdırılmış sistemlər, ERP (Enterprise Resource Planning) proqramları və analitik alətlər iş proseslərini sürətləndirir, daha effektiv idarəetməyə imkan yaradır.

Təhsil sahəsində proqram təminatı yeni metodların tətbiqinə imkan yaradır. Virtual siniflər, onlayn dərslər, elektron kitabxanalar və interaktiv tədris materialları təhsilin keyfiyyətini artırır. Eyni zamanda elmi araşdırmalarda mürəkkəb hesablamalar və məlumatların təhlili üçün proqram təminatından geniş istifadə olunur.

Proqram təminatı sənaye müəssisələrində avtomatlaşdırma proseslərinin əsasını təşkil edir. Robot texnologiyaları, ağıllı fabriklər, IoT (Internet of Things) sistemləri və digər innovativ həllər istehsalatın səmərəliliyini artırır və insan əməyini optimallaşdırır.

Kibertəhlükəsizlik sistemləri, şifrələmə texnologiyaları və müdafiə proqram təminatları məlumatları qorumaq üçün vacib rol oynayır. Hökumət qurumları, banklar, iri şirkətlər və fərdi istifadəçilər üçün proqram təminatının təhlükəsizliyi kritik əhəmiyyət daşıyır.

Süni intellekt, böyük verilənlər (Big Data), bulud texnologiyaları və digər yeni texnologiyalar proqram təminatı sayəsində inkişaf edir. Bu sahələrdəki irəliləyişlər gələcəkdə daha ağıllı və effektiv sistemlərin yaranmasına səbəb olacaq.

Proqram təminatı müasir dünyanın ayrılmaz hissəsinə çevrilmişdir və onun əhəmiyyəti getdikcə daha da artır. O, insanların gündəlik həyatını asanlaşdırmaqla yanaşı, biznes, elm, sənaye və təhlükəsizlik sahələrində də mühüm rol oynayır. İnnovasiya və texnoloji inkişaf proqram təminatının gələcəkdə daha da önəmli olacağını göstərir. Bu səbəbdən proqram təminatı sahəsində bilik və bacarıqlara yiyələnmək həm fərdi, həm də cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir.

**Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı ixtisasının günümüzdə rolu**

Kompüter şəbəkələrinin günümüzdəki rolu olduqca əhəmiyyətlidir. Onların bəzi əsas funksiyalarını və təsirlərini qeyd edə bilərik:

İnsanlar və təşkilatlar arasında məlumat mübadiləsi daha sürətli və səmərəli olur. E-postalar, mesajlaşma proqramları və digər vasitələr sayəsində insanlar anında əlaqə qura bilirlər.

Bir çox müəssisələr şəbəkələr vasitəsilə işlərini onlayn platformalarda aparır, bu da resursları daha səmərəli istifadə etməyə imkan tanıyır. Məsələn, bulud texnologiyaları sayəsində verilənlərə asanlıqla giriş əldə olunur.

Şəbəkələr onlayn tədris platformalarının yaranmasına imkan tanıyır. E-təhsil sistemləri tələbələrə uzaqdan dərs almaq imkanı verir, bu da təhsil genişlənməsinə və əlçatanlığın artmasına səbəb olur.

Sosial şəbəkələr insanların bir-biri ilə əlaqə saxlamasına, müzakirələr aparmasına və müxtəlif mövzular ətrafında fikir mübadiləsi etməsinə imkan yaradır.

Kompüter şəbəkələri elektron ticarətin inkişafına səbəb olub. Müasir müştərilər məhsul və xidmətləri onlayn alaraq iqtisadiyyatda yeni yanaşmaları formalaşdırır.

Məlumatların qorunması və təhlükəsizliyi şəbəkələr vasitəsilə daha yaxşı təmin edilir. Müasir şəbəkələrdə təhlükəsizlik protokolları və sistemləri, haker hücumlarına qarşı mübarizə aparma imkanları var.

Kompüter şəbəkələri mütəxəssislərin və araşdırmacıların bir araya gələrək məlumatları paylaşmalarına, yeni ideyalar və texnologiyalar inkişaf etdirmələrinə şərait yaradır.

Bu və digər səbəblərə görə kompüter şəbəkələri müasir cəmiyyətin ayrılmaz bir hissəsinə çevrilmişdir. Onların rolu həyatın müxtəlif sahələrində hiss olunur və gələcəkdə də bu əhəmiyyətin artacağı gözlənilir.

**Elektrik təchizatı ixtisasının günümüzdə rolu**

Elektrik təchizatı ixtisası bugünkü dövrdə mühüm bir rol oynayır. Bu rol bir çox amillərlə bağlıdır. Artan əhali sayı və sənaye inkişafı ilə enerji tələbi gündən-günə artır. Elektrik mühəndisləri bu tələbə cavab vermək üçün yeni enerji mənbələri və sistemləri layihələşdirirlər.

Günəş, külək və digər yenilənə bilən enerji mənbələrinin istifadəsi də günü-gündən artmaqdadır. Elektrik təchizatı ixtisası mütəxəssisləri bu sistemlərin effektivliyini artırmağa və şəbəkələrə inteqrasiya etməyə çalışırlar.

Elektrik mühəndisləri enerji istehsalı ötürülməsi və istehlakının idarə edilməsi üçün müasir texnologiyaları tətbiq edirlər. Bu, enerji itkilərinin azalmasına və sistemlərin daha dayanıqlı olmasına kömək edir.

Köhnəlmiş elektrik şəbəkələrinin modernləşdirilməsi və yeni infrastrukturun yaradılması elektrik mühəndisliyinin əsas vəzifələrindən biridir. Bu, daha etibarlı və dayanıqlı enerji təchizatını təmin edir.

Ağıllı şəbəkə texnologiyaları istehlakçıların enerji istifadəsini daha səmərəli idarə etməyə, enerji istehsalını optimallaşdırmağa və sistemin bütünündə təhlükəsizliyi artırmağa imkan tanıyır.

Qlobal iqlim dəyişikliyi ilə mübarizə məqsədilə elektrik mühəndisləri enerji istehsalında karbon izini azaltmağı və davamlı enerji sistemləri yaratmağı prioritet hesab edirlər.

Beləliklə, elektrik təchizatı ixtisasına olan tələbat artır və mühüm sosial, iqtisadi və ekoloji məsələlərin həllində kritik rol oynayır. Elektrik mühəndisləri müasir dünyamızda enerji sistemlərinin inkişafında və müasirləşməsində əsas faktorlardır.

**İstilik təchizatı və istilik texnikası avadanlıqlarının günümüzdə rolu**

İstilik təchizatı ixtisası müasir dövrdə müxtəlif sahələrdə əhəmiyyətli bir rol oynayır. Belə ki, istilik sistemləri yaşayış və istehsal sahələrində

enerji istehlakını optimallaşdırmaq üçün mühüm rol oynayır. Mütəxəssislər səmərəli istilik sistemləri dizayn edərək enerji xərclərini azaltmağa çalışırlar. Günəş istilik sistemləri, biomassa və digər yenilənə bilən enerji mənbələri, istilik təchizatı sahəsində geniş istifadə olunur. Mütəxəssislər bu yeni texnologiyaların tətbiqini təsdiq edərək ekoloji cəhətdən dost istilik sistemlərinin yaradılmasında iştirak edirlər.

İstilik sistemlərinin tənzimlənməsi və optimallaşdırılması qlobal iqlim dəyişikliyi ilə mübarizədə vacibdir. Enerjinin effektiv istifadəsi və karbon izinin azaldılması istilik təchizatı ixtisasının mühüm məqsədidir. İstilik təchizatı insanların yaşayış sahələrində komfortun təmin edilməsində əhəmiyyətlidir. Mütəxəssislər istilik sistemlərinin düzgün işləməsini təmin etməklə insanların xarici mühitdən asılılığını azaldır.

İstilik enerji tələbi müxtəlif sənaye prosesləri üçün həyati əhəmiyyət kəsb edir. İstilik mühəndisləri istehsal proseslərini daha səmərəli və təhlükəsiz idarə etmək üçün innovativ həllər təqdim edirlər. Köhnəlmiş istilik şəbəkələrinin yenilənməsi və yeni müasir sistemlərin quraşdırılması bu sahənin prioritetlərindəndir. Bu, daha etibarlı və dayanıqlı istilik təchizatını təmin etməyə kömək edir.

Ağıllı texnologiyalar istilik sistemlərinin idarə olunmasını daha səmərəli şəkildə həyata keçirməyə imkan tanıyır. İstilik mühəndisləri enerji istehlakını izləmək və optimallaşdırmaq məqsədilə müasir əks-səda texnologiyalarından istifadə edirlər.

## Nəqliyyat vasitələrinin texniki istismarı ixtisasının günümüzdə rolu

Nəqliyyat vasitələrinin texniki istismarı ixtisası müasir dövrdə nəqliyyat vasitələrinin səmərəli istismarı iqtisadiyyatın inkişafında əhəmiyyətli rol oynayır. Səmərəli nəqliyyat sistemləri mal və xidmətlərin daha sürətli və ucuz bir şəkildə daşınmasına imkan tanıyır, bu da iqtisadi artımı stimullaşdırır.

Nəqliyyat vasitələrinin texniki istismarı mütəxəssisləri avtomobillərin və digər nəqliyyat vasitələrinin təhlükəsizliyini təmin edərək müştəri qorunması və ətraf mühitin müdafiəsi üçün önəmli rol oynayırlar. Texniki baxım və müayinələrin vaxtında aparılması qəza risklərini azaldır.

Günümüzdə ekoloji məsuliyyət daha da önəmli bir məsələdir. Nəqliyyat vasitələrinin istismarı sahəsində mütəxəssislər ekoloji standartlara uyğun sistemlərin yaradılması və mövcud sistemlərin səmərəliliyinin artırılması üçün çalışırlar. Bu, karbon qazının azaldılmasına və ətraf mühitin qorunmasına kömək edir.

Avtomobil və digər nəqliyyat vasitələrinin texniki istismarı müasir texnologiyaların, məsələn, elektriklə işləyən nəqliyyat vasitələrinin, ağıllı nəqliyyat sistemlərinin və avtomatlaşdırılmış sistemlərin tətbiqi ilə sıx bağlıdır. Bu inkişaflar mütəxəssislərin rolunu daha da artırır.

Ən müasir nəqliyyat sistemləri insanların hərəkətliliyini artırır, urbanizasiya prosesini dəstəkləyir və insanların gündəlik həyat keyfiyyətini yüksəldir. Səmərəli nəqliyyat sistemlərinin təmin edilməsi insanların iş və istirahət yerlərinə daha rahat formada çatmalarına kömək edir.

Nəqliyyat vasitələrinin istismarı yalnız texniki xidmət və baxım deyil, həm də nəqliyyat əməliyyatlarının optimallaşdırılması, marşrutların planlaşdırılması və resursların düzgün yönləndirilməsi ilə bağlıdır. Bu sahədə mütəxəssislər, sistemlərin effektiv işləməsini təmin etmək üçün müasir yanaşmalar və alətlər tətbiq edirlər.

Nəqliyyat vasitələrinin texniki istismarı sahəsində ixtisaslaşmış mütəxəssislərə olan tələbat artmaqdadır. Bu səbəbdən bu sahədəki təhsil müəssisələri yeni nəsil mütəxəssislərin yetişdirilməsi üçün müasir proqramlar təqdim edirlər.

Nəqliyyat vasitələrinin texniki istismarı ixtisası müasir cəmiyyətin inkişafında, iqtisadiyyatın güclənməsində və ekoloji məsuliyyətin artırılmasında kritik bir rol oynayır. Müasir dövrün tələblərinə uyğun olaraq, bu sahədəki mütəxəssislər daim yenilənir və innovativ həllər axtarırlar.

### Lokomotiv və elektrik qatarı təsərrüfatı ixtisasının günümüzdə rolu

Lokomotiv və elektrik qatarı ixtisası müasir nəqliyyat sistemlərində əhəmiyyətli bir rol oynayır. Dəmir yolu nəqliyyatı ekoloji cəhətdən

sərnişinlərin və yüklərin sərfəli daşınmasında mühüm rol oynayır. Lokomotiv və elektrik qatarları dəmir yolu sistemlərinin xərc effektivliyini artırır və daha yüksək yük qabiliyyəti təmin edir.

Elektrik qatarları yenilənə bilən enerji mənbələrindən istifadə edərək daha ekoloji cəhətdən təmiz nəqliyyat həlləri təqdim edir. Bu, qlobal iqlim dəyişmələri ilə mübarizədə və karbon qazının azaldılmasında mühüm bir addımdır.

Lokomotivlər və elektrik qatarları müasir texnologiyaların tətbiqi ilə daha səmərəli və təhlükəsiz hala gəlir. Ağıllı dəmir yolu sistemləri, avtomatlaşdırma və elektron idarəetmə sistemləri səyahətlərin sürətini və diqqətini artırır.

Nəqliyyat vasitələrində yaranan texniki baxım, ömür müddəti və performansın artırılması lokomotiv və elektrik qatarı ixtisasının mühüm tərkib hissələridir. Bu sahədə mütəxəssislər qatarların etibarlılığını artırmaq və istismar xərclərini azalda biləcək səmərəli həllər hazırlayırlar.

Nəqliyyat sistemlərinin təhlükəsizliyi lokomotiv və elektrik qatarlarının istismarı sahəsində xüsusi önəm daşıyır. Mütəxəssislər texniki müayinələri və təhlükəsizlik standartlarını yerinə yetirərək sərnişinlərin və yük daşımalara olan risksizliyini təmin edirlər. Elektrik qatarları şəhərlərin içi və arasında rahat nəqliyyat imkanı təqdim edir. Lokomotiv və elektrik qatarı mütəxəssisləri təlimlər vasitəsilə yeni nəsil mühəndislərin yetişdirilməsi və onların müasir texnologiyalarla tanış edilməsi üçün çalışırlar.

Lokomotiv və elektrik qatarı ixtisası müasir nəqliyyat sisteminin inkişafında, iqtisadiyyatın güclənməsində, enerji səmərəliliyinin artırılmasında və ekoloji məsuliyyətin təmin olunmasında kritik bir rol oynayır. Bu sahədəki mütəxəssislər texnologiyaların sürətlə inkişaf etdiyi dövrdə yeni yanaşmalar və innovativ həllər axtarmağa davam edirlər.

**Baytarlıq ixtisasının günümüzdə rolu**

Baytarlıq ixtisası müasir cəmiyyətdə bir çox mühüm sahələrdə əhəmiyyətli rol oynayır. Baytar həkimləri heyvanların sağlamlığını təmin etmək üçün xəstəliklərin diaqnostikası, müalicəsi və profilaktikası sahəsində çalışırlar. Bu, heyvanların yaşaması və onların məhsuldarlığının artırılması üçün həyati əhəmiyyət kəsb edir. Heyvandarlıq məhsulları (ət,

süd, yumurta və s.) istehsalı, insanların qida təhlükəsizliyinin təmin edilməsində vacib bir rol oynayır. Baytarlar qida məhsullarının sağlamlığını və təhlükəsizliyini təmin etmək üçün heyvanların sağlamlığını izləyirlər.

Bəzi heyvan xəstəlikləri insanlara da keçə bilər (zoonozlar). Baytar mütəxəssisləri bu xəstəliklərin yayılmasının qarşısını almaq üçün ictimai sağlamlıq ilə əməkdaşlıq edərək insanlar və heyvanlar arasında sağlam əlaqələrin təmin edilməsində önəmli rol oynayır. Baytarlıq ixtisası ekosistemlərin bərpası və balansının qorunmasında da rol oynayır.

Heyvanların sağlamlığı ekosistemin digər hissələrinin də (bitkilər, mikroorqanizmlər, sulu mühitlər) sağlamlığına təsir edir.

Baytarlıq mütəxəssisləri heyvandarlıq sektorunda müasir texnologiyaların tətbiqi sağlamlıq və produktivliyi artırmaq üçün innovativ yanaşmaların hazırlanmasında yer alırlar. Baytarlıq sahəsindəki mütəxəssislər təhsil müəssisələrində yeni nəsil baytar həkimlərinin yetişdirilməsi və elmi araşdırmaların aparılması üçün əhəmiyyətli rol oynayır. Bu sahənin inkişafını və yeni biliklərin əldə olunmasını təmin edir.

Baytarlar heyvan sahiblərini və cəmiyyəti heyvan sağlamlığı, onların baxımı və qida təhlükəsizliyi mövzularında maarifləndirməkdə aktiv rol oynayırlar. Heyvanların sağlamlığı və məhsuldarlığı kənd təsərrüfatında iqtisadi gəlirin artırılmasında mühüm rol oynayır. Baytarlıq mütəxəssisləri məhsuldarlığın artırılması, xəstəliklərin yayılmasının qarşısının alınması və heyvanların qidalanması sahələrində mütəxəssis xidmətləri təqdim edirlər.

Bu səbəblərdən ötrü Baytarlıq ixtisası müasir cəmiyyətin sağlamlığının, qida təhlükəsizliyinin təmin edilməsində, ekosistemlərin qorunmasında və kənd təsərrüfatının inkişafında kritik rol oynayır. Baytar mütəxəssisləri heyvanların və insanların sağlamlığının qorunmasında əvəzsiz bir yer tuturlar.

### Aqrar (fermer) təsərrüfatının təşkili ixtisasının günümüzdə rolu

Aqrar (fermer) təsərrüfatı ixtisası müasir dövrdə müxtəlif önəmli sahələrdə əhəmiyyətli rol oynayır. Aqrar (fermer) təsərrüfatları qida istehsalının əsasını təşkil edir. Yerlisindən olan məhsulların istehsalı qida təhlükəsizliyini təmin edir, insan sağlamlığına müsbət təsir göstərir və qida sərfiyyatını azaldır.

Aqrar sektor bir çox ölkənin iqtisadiyyatında mühüm rol oynayır. Fermer təsərrüfatları kənd təsərrüfatının inkişafı vasitəsilə iş yerləri yaradır və yerli icmaların iqtisadi vəziyyətini gücləndirir. Aqrar fermer təsərrüfatları kənd bölgələrinin inkişafında mühüm rol oynayır. İnkişaf edən təsərrüfatlar yerli infrastrukturun, xidmətlərin və sosial sahələrin inkişafına köməklik göstərir.

Müasir fermer təsərrüfatları müasir texnologiyaların (məsələn, əkinçilik avadanlıqları, informasiya texnologiyaları) tətbiqi ilə daha səmərəli və effektiv istehsal prosesləri həyata keçirirlər. Bu texnologiyalar istehsalın artırılması və əməyin effektivliyinin yüksəldilməsi üçün vacibdir.

Fermer təsərrüfatları yerli və beynəlxalq bazarlarla əlaqədar olaraq kənd təsərrüfatı məhsullarının mübadiləsini artırır. Bu, istehsalçıların daha geniş bazara çıxışına və məhsullarını daha geniş müştəri bazasına təqdim etməyə imkan verir. Fermer təsərrüfatları kənd ailələrinin dolanışığını təmin edən və həyat keyfiyyətini yüksəldən mühüm iqtisadi vasitədir. Kənd cəmiyyətində sosial birlik və mədəni mübadilənin dəstəklənməsində mühüm rol oynayır. Aqrar mütəxəssislər yeni metodlar, bitki sortları və heyvan yetişdirmə texnikaları üzərində araşdırmalar apararaq aqrar sektorun inkişafına töhfə verirlər. Bu, sektorun müasirləşməsini və dayanıqlığını artırır.

Aqrar fermer təsərrüfatı ixtisası müasir cəmiyyətin qida istehsalında, iqtisadi inkişafda, ekoloji davamlılıqda və kənd yerlərinin inkişafında əhəmiyyətli bir rol oynayır.

**Mühasibat uçotu ixtisasının günümüzdə rolu**

Mühasibat uçotu ixtisası müasir biznes və iqtisadiyyatın infrastrukturunu təşkil edən əsas sahələrdən biridir. Mühasibat uçotu müəssisələrin maliyyə məlumatlarını toplamaq, saxlamaq və təhlil etmək funksiyasını yerinə yetirir. Bu məlumatlar rəhbərlik üçün strateji qərarlar verməkdə çox önəmlidir.

Mühasibat uçotu müxtəlif hüquqi tələblərə (məsələn, vergi qanunvericiliyi) uyğunluğun təmin edilməsində mühüm rol oynayır. Mühasibat mütəxəssisləri müəssisələrin qanunvericilik çərçivəsində fəaliyyət göstərməsini təmin edirlər.

Mühasibat uçotunun əsas funksiyalarından biri maliyyə hesabatlarının hazırlanmasıdır. Bu hesabatlar (bilanclar, gəlir və xərc hesabları və s.) investorlara, kreditorlara və digər maraqlı tərəflərə müəssisənin maliyyə vəziyyətini göstərir.

Mühasibat uçotu maliyyə risklərinin idarə edilməsi üçün əhəmiyyətli bir alət kimi fəaliyyət göstərir. Mütəxəssislər maliyyə performansını izləyərək və analiz edərək riskləri vaxtında aşkarlayıb onlara qarşı müvafiq tədbirləri həyata keçirirlər. Mühasibat uçotu müəssisələrə gələcək maliyyə planları hazırlamaq, büdcələşdirmək və resursların səmərəli istifadəsini təmin etməyə kömək edir. Bu, müəssisənin uğurlu fəaliyyətini dəstəkləyir.

Mühasibat uçotu müəssisənin müxtəlif dövrlər üzrə performansını müqayisə etməyə imkan verir. Bu, müəssisələrin inkişafını izləmək və müvafiq dəyişikliklər edərək strategiyaları optimallaşdırmağa kömək edir. Mühasibat uçotu yalnız maliyyə funksiyaları ilə bağlı deyil, həm də ümumi idarəetmə və strateji planlaşdırma ilə sıx bağlıdır. Mühasibat mütəxəssisləri müştəri məmnuniyyətini artırmaq, istehsal proseslərini yaxşılaşdırmaq və bazar tələblərinə uyğunlaşmaq üçün vacib məlumatlar təqdim edirlər.

Müasir mühasibat uçotu informasiya texnologiyaları ilə sıx əlaqədardır. Mühasibat proqramları və avtomatlaşdırılmış sistemlər mühasibat proseslərinin səmərəli və sürətli həyata keçirilməsini təmin edir.

Beləliklə, Mühasibat uçotu ixtisası müasir iqtisadiyyatda və biznesin idarə edilməsində kritik bir rol oynayır. Bu sahədə çalışan mütəxəssislər maliyyə şəffaflığını artırmaq, resursları səmərəli istifadə etmək və strateji qərarlar vermək üçün fundamental biliklərə malikdir. Mühasibat uçotu, eyni zamanda təşkilatların uğuru və davamlılığı üçün əvəzsiz bir sahədir.

**Bank işi ixtisasının günümüzdə rolu**

Bank işi ixtisası müasir iqtisadiyyatın və maliyyə sisteminin ayrılmaz bir hissəsidir və bir çox mühüm rola malikdir. Bank işi mütəxəssisləri kreditlərin qiymətləndirilməsi, risklərin idarə edilməsi və geri ödənişlərin izlənməsi sahələrində fəaliyyət göstərirlər.

Bank işi mütəxəssisləri müştərilərə geniş çeşidli maliyyə xidmətləri (depozit hesabları, investisiya məhsulları, ödəniş sistemləri və s.) təqdim

edir. Bu xidmətlər müştərilərin maliyyə məqsədlərinə nail olmalarına kömək edir.

Banklar ölkənin maliyyə sisteminin stabil olması üçün mühüm bir rol oynayırlar. Onlar iqtisadi ləngimələri aradan qaldırmağa, inflyasiyanı idarə etməyə və resursların səmərəli bölüşdürülməsinə kömək edir. Müasir bank sistemi müştəri məlumatlarının qorunması və maliyyə əməliyyatlarının şəffaflığını təmin etmək məqsədilə müasir rəhbərlik və hesabat standartlarına riayət edir. Bank işi mütəxəssisləri bu proseslərin düzgünlüyünü və təhlükəsizliyini təmin edirlər.

Bank işi müxtəlif maliyyə risklərinin (kredit, bazar, likvidlik və əməliyyat riskləri) idarə edilməsində mühüm rol oynayır. Mütəxəssislər riskləri qiymətləndirərək müvafiq qarşısını alma strategiyalarını tətbiq edirlər.

Digital bankçılıq və fintech inkişafa meyillidir. Bank işi mütəxəssisləri müasir texnologiyaların tətbiqi ilə müştəri təcrübəsinin yaxşılaşdırılması, proseslərin avtomatlaşdırılması və maliyyə xidmətlərinin asanlaşdırılmasında aktiv iştirak edirlər. Bank işi sərmayələrin toplanması və yönləndirilməsi vasitəsilə iqtisadiyyatın inkişafına təsir edir.

Banklar investisiya layihələrinin maliyyələşdirilməsində mühüm rol oynayır və yeni iş yerlərinin yaradılmasına kömək edir.

Bank işi ixtisası müasir iqtisadiyyatın funksionallığı, düzgün idarə edilməsi, müştəri xidmətlərinin təkmilləşdirilməsi və maliyyə sisteminin sağlamlığının təmin edilməsi üçün kritik önəm kəsb edir. Bank işi mütəxəssisləri müştəri məmnuniyyətini artırmaq, maliyyə risklərini idarə etmək və müasir trendlərə uyğunlaşmaq üçün daim yenilənən biliklərə sahib olmalıdırlar.

**Bələdiyyə işi ixtisasının günümüzdə rolu**

Bələdiyyə işi ixtisası müasir cəmiyyətdə yerli idarəetmənin və sosial xidmətlərin effektiv şəkildə həyata keçirilməsində mühüm rol oynayır.

Bələdiyyə işi yerli idarəetmənin inkişafını və güclənməsini təmin edir. Bələdiyyə mütəxəssisləri icma tələblərini anlamaq və müvafiq xidmətləri təşkil etmək üçün çalışırlar. Bələdiyyələr sosial xidmətlərin (səhiyyə, təhsil, mədəniyyət və sosial müdafiə) təqdim olunmasında kəskin rol

oynayır. Bələdiyyə işçiləri bu xidmətlərin keyfiyyətini artırmaq və yerli icmanın ehtiyaclarına uyğun gətirmək üçün çalışan mütəxəssislərdir.

Yerli icmaların inkişafında və qərar qəbuletmə prosesində vətəndaş iştirakını təşviq etmək bələdiyyə işinin vacib cəhətlərindən biridir. Bu, ictimaiyyətin hüquq və məsuliyyətlərinin aydınlaşdırılması və icma üzvləri arasında əməkdaşlığın gücləndirilməsi üçün əhəmiyyətlidir.

Bələdiyyə işi yerli iqtisadiyyatın stimullaşdırılması, iş yerlərinin yaradılması və investisiya layihələrinin həyata keçirilməsi üçün müvafiq proqramlar hazırlamağa yönəlib. Bələdiyyələr yerli iqtisadi inkişafı dəstəkləmək məqsədilə müxtəlif layihələr həyata keçirir. Bələdiyyələr yerli infrastrukturun (yollar, su, kanalizasiya, parkinq və s.) planlaşdırılması və inkişafında mühüm rol oynayırlar. Bu, yaşayanların gündəlik həyatını asanlaşdırır və icmanın ümumi rifahını artırır.

Bələdiyyə mütəxəssisləri ətraf mühitin qorunması, şəhər planlaşdırması və urbanizasiya ilə bağlı layihələrin həyata keçirilməsində iştirak edərək ekoloji dayanıqlığı təmin etməyə çalışırlar.

Bələdiyyə işlərinin düzgün, şəffaf və effektiv idarə edilməsi yerli cəmiyyətin inamını artırır. Bələdiyyə işçiləri ictimaiyyətlə əlaqələri gücləndirmək və şəffaflığı təmin etmək məqsədilə müvafiq hesabatlar təqdim edirlər. Bələdiyyələr yerli əhalini maarifləndirmək və müxtəlif xidmətlər haqqında məlumat təqdim etməkdən məsuldur.

Bələdiyyə işi ixtisası müasir cəmiyyətdə yerli idarəetmənin effektivliyini artırmaq, sosial xidmətlərin təşkilini gücləndirmək və icma inkişafını dəstəkləmək baxımından çox vacibdir. Bələdiyyə mütəxəssisləri yerli icma problemlərini anlamalı, onun ehtiyaclarına uyğun strategiyalar hazırlamalı və ictimaiyyətlə aktiv əməkdaşlıq etməlidirlər.

**Turizm işinin təşkili ixtisasının günümüzdə rolu**

Turizm işinin təşkili ixtisası müasir dövrdə iqtisadiyyatın inkişafında, mədəni mübadilənin təşviqində və insanların sosial həyatında mühüm rol oynayır.

Turizm sektoru bir çox ölkə üçün mühüm gəlir mənbəyidir. Turizm işinin təşkili ixtisası regionların iqtisadiyyatını gücləndirir, iş yerləri yaradır və yerli biznesləri dəstəkləyir. Turizm mədəniyyət və irsin

qorunmasını təşviq edir, müxtəlif mədəniyyətlərin, adət-ənənələrin və tarixi yerlərin tanınmasına, onların qorunmasına və gələcək nəsillərə ötürülməsinə kömək edir.

Turizm fərqli mədəniyyətlər arasında dialoq və əməkdaşlığı artırır. Ziyarətçilər yerli icma ilə birbaşa əlaqə quraraq mədəni mübadilə aparır, bu da sosial birliyi gücləndirir. Turizmin təşkili bölgələrdə infrastrukturun (yollar, otellər, ictimai nəqliyyat) inkişafını stimullaşdırır. Bu infrastruktur həm yerli əhalinin, həm də turistlərin rahatlığını artırır. Turizm işinin təşkili ixtisası ekoloji cəhətdən dayanıqlı turizm praktikalarını inkişaf etdirmək üçün vacibdir. Bu, təbii resursların qorunması və ekosistemlərin sağlamlığının təmin edilməsi məqsədini güdür.

Turizm mütəxəssisləri həm yerli əhalini, həm də turistləri mədəni irslə tanış etmək, turizm fəaliyyətləri haqqında məlumat vermək məqsədilə təhsil proqramları təşkil edirlər. Müasir turizm sektoru informasiya texnologiyaları, onlayn rezervasiya sistemləri və sosial media kimi yeni texnologiyaların tətbiqi ilə inkişaf edir.

Bu mütəxəssislərin xidmətlərini daha effektiv və müştəriyönümlü etməyə imkan tanıyır. Turizm işinin təşkili hər bir bölgənin turizm potensialını artırmaq və cazibədar etmək üçün marketinq strategiyalarının hazırlanmasını tələb edir. Mütəxəssislər hədəf auditoriyaya uyğun kompaniyalar həyata keçirərək bölgənin turist cəlb etmə qabiliyyətini artırırlar.

Beləliklə, Turizm işinin təşkili ixtisası müasir cəmiyyətdə iqtisadi inkişafın gücləndirilməsi, mədəni irsin qorunması, sosial əlaqələrin gücləndirilməsi və ətraf mühitin mühafizəsi baxımından kritik bir rol oynayır. Turizm mütəxəssisləri dinamizmi və müxtəlifliyi ilə zəngin olan sektorun inkişafına yönəldilmiş strateji planların hazırlanmasında mühüm yer tuturlar.

Bütün bunlar sübut edir ki, Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kollecində kadr hazırlığı aparılan ixtisaslar təkcə əmək bazarında deyil, eyni zamanda cəmiyyətimizin həyatında da mühüm rola malikdir.

Məlum olduğu kimi, 2023-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 ili tamam olmuşdur. Ulu Öndərin 100 illik yubileyinin ölkə səviyyəsində qeyd

edilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq Qərarına əsasən 2023-cü il ölkəmizdə "Heydər Əliyev ili" elan edilmişdir. Bütün ölkə ərazisində, o cümlədən Naxçıvan Muxtar Respublikasında "Heydər Əliyev ili" çərçivəsində silsilə tədbirlər keçirilmişdir. Bu baxımdan kollecimizin pedaqoji heyəti də öz üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyə və Ulu Öndərin şərəfli ömür yolu və dövlətçilik fəaliyyətini tələbə-gənclər arasında təbliğ etməyə çalışmışdır.

Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hər kəsə nümunə olan Vətən sevgisi tələbə-gənclərimiz üçün də böyük örnəkdir. Bu irsi tələbə-gənclərimiz arasında layiqincə təbliğ edə bilmək üçün təkcə dərslərlə kifayətlənmir, daha geniş auditoriyaları əhatə edən tədbirlər də təşkil etməyə çalışırıq.

Ümummilli Lider Heydər Əliyev fəaliyyətinin hər bir məqamı ilə xalqın, dövlətin, cəmiyyətin və onun üzvlərinin mənafeyinə xidmət etmiş, Azərbaycan dövlətinin, Azərbaycan xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizi daha da möhkəmləndirmiş, dövlətçiliyimizin inkişafı, xalqın rifah halının daha da yaxşılaşdırılması üçün mümkün olan bütün işləri görmüşdür.

"Təhsil millətin gələcəyidir" deyən Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinin əsasını gənclər və təhsil siyasəti təşkil edirdi. Ölkəyə birinci rəhbərliyi dövründə (1969-1982 illərdə) gənclərimizin təhsilinə xüsusi önəm verən Ümummilli Lider 16000 nəfərə yaxın gəncimizin xarici ölkələrdə təhsil almasına köməklik göstərmişdir.

"Heydər Əliyev ili" çərçivəsində kollecdə açıq dərslər, dəyirmi masalar, konfranslar, olimpiadalar, muzey ziyarətləri və s. təşkil edilmişdir.

Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikası 9 fevral 1924-cü ildə yaradılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 30 dekabr 2023-cü il tarixli Qərarı ilə 2024-cü ildə muxtar respublikanın yaranmasının 100 ili tamam olduğundan bu hadisə ölkə səviyyəsində geniş qeyd edilmişdir.

Ölkəmizin hər bir bölgəsində olduğu kimi, muxtar respublikada da bununla bağlı olaraq tədbirlər planı hazırlanmışdır. Kollecdə də muxtar

respublikanın 100 illiyi ilə əlaqədar genişşaxəli tədbirlər təşkil edilmişdir. Təşkil edilmiş tədbirlərdə həm Naxçıvanın muxtariyyət statusu almasının tarixi əhəmiyyəti, həm Ulu Öndər Heydər Əliyevin Naxçıvandakı fəaliyyət dövrü, həm də Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə günü-gündən çiçəklənən Naxçıvanda aparılan abadlıq işləri diqqətə çatdırılmışdır.

Həmçinin 24 may 2024-cü il tarixində kollecdə muxtar respublikanın 100 illik yubileyinə həsr olunmuş "Muxtariyyətin tarixində əbədi iz" adlı geniştərkibli konfrans keçirilmişdir. Həmin konfransda ölkəmizin müxtəlif bölgələrindən olan kollec rəhbərləri də iştirak edərək muxtar respublika ilə bağlı öz səmimi fikirlərini kollecin müəllim və tələbə heyəti ilə bölüşmüşlər. Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə əlaqədar olaraq müəllimlərin iştirakı ilə tələbələrimiz muxtar respublikanın ərazisində yerləşən muzeylərlə daha yaxından tanış olmuşlar.

2030-cu ilədək ölkəmizin "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyənləşdirilməsi məqsədilə ölkə Prezidentinin müvafiq qərarı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir. Bununla əlaqədar olaraq, 2024-cü ildə "COP29" Azərbaycanda keçirilmişdir. Vətənimizin hər bir guşəsində, xüsusilə işğaldan azad edilmiş rayonlarda aparılan bərpa-quruculuq işləri yeni innovativ layihələrə əsaslanır. Bu layihələrə "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji zonaları" layihələri daxildir. Bu layihələrin tətbiq edilməsində əsas məqsəd ətraf mühitin, yerin, hava, su və torpaq təbəqələrinin qorunmasıdır. "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində də kollecimiz öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışmışdır. Belə ki, kollecdə "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş açıq dərslər, dəyirmi masa və konfranslar təşkil edilmişdir. Keçirilən bu tədbirlərdə ətraf mühitin qorunmasının zəruriliyi tələbə-gənclərin diqqətinə çatdırılmışdır.

Həmçinin 2024-cü ildən 20 sentyabr ölkəmizdə "Dövlət Suverenliyi Günü" elan edilmişdir. "Dövlət Suverenliyi Günü" ilə əlaqədar kollecdə təşkil edilmiş açıq dərslər və digər tədbirlərdə Ali Baş Komandanın başçılığı ilə 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağından azad edilmiş torpaqlarımızda aparılan bərpa-quruculuq işlərindən sonra Qarabağa Böyük Qayıdışın başlaması, Azərbaycanın tam və qəti qələbəsi

olan 23 saatlıq antiterror əməliyyatının nəticəsində Azərbaycan Respublikasının Qarabağ iqtisadi rayonu üzərində öz suveren hüquqlarını tamamilə bərpa etməsi, Ali Baş Komandanın siyasəti nəticəsində rus sülhməramlı kontingentin Qarabağ rayonundan çıxarılması ilə Respublikamızın siyasi meydanda diplomatik qələbə qazanması xüsusilə vurğulanmışdır.

Bundan əlavə, 2024-cü ildə kollecdə Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin iştirakı ilə "Qərbi Azərbaycana qayıdış" mövzusunda konfrans təşkil olunmuşdur. Həmin konfransda azərbaycanlıların öz dədə-baba yurdlarından kütləvi deportasiyaları və bu deportasiyalara ilk dəfə düzgün siyasi qiymətin Ümummilli Lider Heydər Əliyev tərəfindən verilməsi və ölkə Prezidentinin rəhbərliyi ilə soydaşlarımızın yaxın gələcəkdə öz dədə-baba torpaqlarına – Qərbi Azərbaycana qayıdacağı kimi fikirlərin qeyd olunması kollecin pedaqoji heyəti, o cümlədən tələbə-gənclərimiz üçün böyük stimul olmuşdur.

Anım Günü və Zəfər Günü ilə yanaşı, 2024-cü il ərzində mütəmadi olaraq kollecdə hər ay tələbələrin iştirakı ilə şəhidlərin doğum gününə həsr olunmuş tədbirlər təşkil edilmişdir. Həmin tədbirlərin təşkil olunmasında əsas məqsəd şəhid ailələrinə mümkün olduğu qədər dəstək olmaq və qəhrəmanlarımızı gələcək nəsillərə daha da yaxından tanıtmaqdır.

Kollec öz fəaliyyəti istiqamətində bir çox uğurlara imza atmışdır. Belə ki, bu uğurlardan biri də 6 may 2025-ci il tarixində Bakı şəhərində Heydər Əliyevin 102-ci ildönümünə həsr olunmuş "Sən elə bir zirvəsən" Respublika İfa Müsabiqəsinin yekun konsertində Naxçıvan Dövlət Universitetinin nəzdində Naxçıvan Dövlət Texniki Kollecinin tələbələrinin rəqs naminasiyasında 1-ci yeri qazanmaları idi.

Naxçıvan Dövlət Texniki Kollecinin rəqs kollektivinin bu böyük uğuru, həmçinin Naxçıvanın mədəni həyatına töhfə verməsi regionda gənclərin mədəniyyət və sənət sahəsindəki inkişafına olan önəmi bir daha təsdiqləyib. Bu uğur kollecin tələbələrinin daha böyük səylərlə öz sahələrində irəliləyəcəyini və daha yüksək zirvələrə çatacaqlarını göstərir.

Bildiyimiz kimi, 1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə qəbul edilmişdir.

12 noyabr tarixində qəbul olan Konstitusiyamız 27 noyabr tarixində qüvvəyə minmişdir. Qəbul olan Konstitusiya 1978-ci il 21 aprel

Konstitusiyasını qüvvədən salmışdır. Bununla da Azərbaycanın Sovet Rusiyasının tərkibində olduğu bir müddətdə irəli çıxmış, bir sıra uyğunsuz qanunlardan bəziləri dəyişdirilmiş, bəziləri isə ləğv edilmişdir.

2025-ci il Azərbaycan Respublikası Konstitusiyasının qəbulunun 30 ili tamam olduğundan ölkəmizdə bu il "Konstitusiya və Suverenlik İli" elan edilmişdir. Əlbəttə ki, 2025-ci ilin bu cür adlandırılmasında əsas səbəblərindən biri Konstitusiyanın 30-cu ilinin vahid, suveren, müstəqil Azərbaycanda qeyd edilməsidir. Kollecin pedaqoji heyəti bu il də üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışacaq və müstəqilliyimizin, suverenliyimizin və qanunvericiliyimizin əsası olan Konstitusiyamızla gənclərimizin daha yaxından tanış olması üçün əlindən gələni əsirgə-məyəcək. Çünki qanunvericilik sisteminin əsasını təşkil edən konstitusiya-da hər bir maddə hüquq norması adlanır. Tələbələr üçün hazırlayacağımız tədbirlərdə əsas məqsəd tələbələri öz hüquqları ilə tanış etmək və bu sahədə maarifləndirməkdən ibarətdir.

Həmçinin Naxçıvan Dövlət Texniki Kolleci Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərdikdən sonra texnoloji sahədə irəliləyişlər də müşahidə olunmağa başladı. Belə ki, ən böyük uğulardan biri kollecin rəsmi saytının yaradılması idi. Sayt olduqca universaldır. Kollec haqqında məlumatlar, dərs cədvəlləri, tələbə təşkilatları, müəllimlər, fənn kabinələri, labarotoriyalar və s. haqqında məlumatlar daxil edilmişdir.

12 oktyabr 2024-cü ildə saytımızın rəsmi açılışı olmuşdur. Açılışda kollecimizin pedaqoji heyəti ilə yanaşı, Naxçıvan Dövlət Universitetinin rektoru cənab Elbrus İsayev və İKT şöbəsinin müdiri Hüseyn Əsgərli də iştirak etmiş və sayt haqqında öz fikirlərini söyləmişlər. Əlbəttə ki, təhsil sahəsində ən böyük inkişaflardan biri də elektron jurnala keçiddən ibarət idi. Elektron jurnal həm müəllimlər, həm də tələbələr üçün olduqca aktualdır.

Belə ki, hər bir tələbə özü şəxsi kodu vasitəsilə jurnala daxil olur, qiymətləri və davamiyyətləri ilə tanış olurlar. Həmçinin burada müəllimlər tərəfindən keçirilən mövzunun elektron variantını da tələbələr asanlıqla götürə bilirlər. Təbii haldır ki, bu tələbələr üçün olduqca aktual və obyektivdir.

Göründüyü kimi, NDU nəzdində fəaliyyət göstərən kollec günü-gündən inkişaf edir. Sevindirici haldır ki, təhsil sahəsində olan bir sıra yeniləmələr tələbələr üçün olduqca faydalı olmaqla yanaşı, bu sahənin inkişafı üçün də olduqca əhəmiyyətlidir.

Həmçinin LMS sisteminin istifadəyə verilməsi də həm müəllimlər, həm də tələbələr üçün olduqca xüsusi əhəmiyyət kəsb edir. Müəllimlər tərəfindən elektron qaydada sistemə yerləşdirilən sillabuslar, mühazirələr, elektron dərslər və imtahan suallarından tələbələr maksimum dərəcədə yararlanır və mövzuları öyrənmək onlar üçün daha da asanlaşır.

Nəticədə gətirilən yeniliklərdən və tədbirlərdən məlum olur ki, Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyətini davam etdirən Naxçıvan Dövlət Texniki Kolleci günü-gündən inkişaf edir və bundan sonra da daha əzmlə inkişaf edərək uğurlu addımlara imza atacaqdır.

# NƏTİCƏ

1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü və blokada siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası ciddi sosial-iqtisadi çətinliklərlə üzləşdi. Bu dövrdə Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri kimi regionun müdafiəsini təşkil etdi, milli dövlət quruculuğu istiqamətində qətiyyətli addımlar atdı və əhalinin mənəvi dirçəlişinə nail oldu. Heydər Əliyevin başçılığı altında Naxçıvan Muxtar Respublikasında erməni təcavüzünə qarşı ölüm-dirim mübarizəsi aparıldığı, milli dövlət quruculuğu, sosial-iqtisadi böhrandan qurtulmaq istiqamətində qətiyyətli addımlar atıldığı, milli-mənəvi həyatın dirçəldilməsi sahəsində nəzərə çarpacaq uğurlar əldə edildiyi bir dövrdə Bakıda hakimiyyət uğrunda əsl savaş gedirdi. Eyni zamanda Bakıda siyasi hərc-mərclik və anarxiya hökm sürürdü. Hakimiyyət uğrunda gedən mübarizə nəticəsində rayonlarımız bir-bir erməni təcavüzünün qurbanına çevrilirdi. Ölkə müstəqilliyini itirmək və dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qalmışdı. İctimai-iqtisadi və mənəvi-mədəni həyatın bütün sahələrində böhran dərinləşirdi. Mürəkkəb ictimai-siyasi proseslər və Qarabağ münaqişəsi Azərbaycanın təhsil sisteminə də mənfi təsir göstərmişdi.

1992-ci ildə qəbul edilmiş Təhsil Qanunu təhsil quruculuğunda səriştəsizliyin və yalançı pafosun nümunəsi oldu. Bu qanun təhsil sistemində ciddi problemlərə səbəb oldu və ümumi təhsilin inkişafında geriyə doğru bir addım kimi qiymətləndirildi.

1993-cü ildə xalqın təkidi ilə Heydər Əliyev yenidən siyasi hakimiyyətə qayıtdı. Onun rəhbərliyi ilə ölkədə siyasi sabitlik bərqərar oldu, iqtisadiyyat dirçəldi və təhsil sistemində nizam-intizam təmin edildi. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında hər bir vətəndaşın təhsil almaq hüququ təsbit olundu və dövlət pulsuz icbari ümumi orta təhsili təmin etməyi öhdəsinə götürdü.

1993-cü ildə xalqın israrlı tələbi ilə Heydər Əliyev yenidən siyasi rəhbərliyə qayıtdı. Onun uzaqgörən və qətiyyətli siyasəti nəticəsində ölkədə siyasi sabitlik təmin olundu, iqtisadi tənəzzül dayandırıldı və dövlət idarəçiliyində sistemli islahatlara başlanıldı. Təhsil sahəsində də mühüm

dönüş baş verdi, nizam-intizam bərpa edildi, inkişaf strategiyaları formalaşdırıldı.

1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında hər bir vətəndaşın təhsil almaq hüququ təsbit edildi və dövlət ümumi orta təhsilin pulsuz və icbari şəkildə təmin olunmasını öz üzərinə götürdü.

Heydər Əliyev, eyni zamanda təhsildə islahatların elmi şəkildə, hərtərəfli düşünülmüş şəkildə aparılmasının tərəfdarı idi: "İslahatlar, xüsusən təhsil, elm sahəsində islahatlar çox ağıllı, düşünülmüş şəkildə həyata keçirilməlidir. Dəb naminə yox, yalnız və yalnız əldə etdiyimiz səviyyədən daha yuxarı qalxmaq üçün təhsilin səmərəliliyini, elmin səmərəliliyini artırmaq üçün aparılmalıdır". Heydər Əliyevin "İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır" fikri dövlət təhsil siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Bu konseptual yanaşma əsasında ümumi orta təhsilin ahəngdar və məqsədyönlü inkişafı dövlətin prioritet sahəsinə çevrildi.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasının 42-ci maddəsində hər bir vətəndaşın pulsuz və icbari ümumi orta təhsil almaq hüququ hüquqi şəkildə təsbit olundu. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə orta məktəb şagirdlərinin dərsliklərlə ödənişsiz təmin olunması isə onun təhsilə göstərdiyi diqqət və qayğının parlaq təzahürü oldu. Azərbaycan təhsil tarixində ilk dəfə olaraq ümumi orta təhsilin dövlət standartları və bazis tədris planı 1993-cü ildə təsdiq edildi ki, bu da təhsilin məzmun və keyfiyyət baxımından sistemli şəkildə yenilənməsinə şərait yaratdı. Yeni dərsliklərin hazırlanması istiqamətində mühüm və ardıcıl addımlar atıldı. Mövcud dərsliklər məzmun baxımından əhəmiyyətli dərəcədə yeniləndi, onların tərtibi müasir pedaqoji tələblərə uyğunlaşdırıldı. Eyni zamanda dərsliklərin və digər tədris materiallarının yeni latın qrafikalı əlifbaya keçidi uğurla başa çatdırıldı ki, bu da təhsil sistemində mühüm bir mərhələnin tamamlanması demək idi. Bu islahatların nəticəsində orta məktəb şəbəkəsi sürətli inkişaf tempi ilə genişləndi və 2003-cü ilə qədər əvvəlki dövrlərlə müqayisədə xeyli artdı.

Müstəqillik illərində ali təhsil sistemi də əsaslı dəyişikliklərə uğradı. 1993-1994-cü tədris ilində ali təhsildə ilk dəfə olaraq ikipilləli model – 4

illik bakalavr və 2 illik magistratura proqramlarına keçid baş verdi. Bu, ali təhsilin beynəlxalq standartlara uyğunlaşdırılması baxımından mühüm addım oldu. Dövlət ali məktəblərinin sayı 2001-ci ildə 17-dən 30-a yüksəldi, bununla yanaşı, 18 qeyri-dövlət ali təhsil müəssisəsi də fəaliyyətə başladı ki, bu da təhsildə rəqabət mühitinin və seçim imkanlarının genişlənməsinə şərait yaratdı. İqtisadiyyatın sabitləşdirilməsi, maliyyə sisteminin təkmilləşdirilməsi, idarəetmədə islahatların həyata keçirilməsi, struktur dəyişikliklərin reallaşdırılması və kadr potensialının gücləndirilməsi sayəsində 1997-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında iqtisadi dirçəlişin ilk əlamətləri özünü göstərməyə başladı. Həmin ildə bir sıra sənaye müəssisələrində istehsal prosesi bərpa olundu və 1995-ci illə müqayisədə sənaye məhsullarının həcmi 76% artdı.

1996-1997-ci illər muxtar respublikanın kənd təsərrüfatı üçün də dönüş nöqtəsi oldu. 1996-cı ildə uzun fasilədən sonra ilk dəfə olaraq taxıl tədarükü planı yerinə yetirildi və 5893 ton taxıl istehsal olundu. Eyni zamanda 15 min ton şəkər çuğunduru yetişdirildi və yerli tələbatın 56-60%-i ödənildi. 2000-ci ilə qədər kənd təsərrüfatı məhsullarının ümumi istehsal həcmi 1995-ci illə müqayisədə 3,3 dəfə artdı. Qeyd etmək lazımdır ki, bütün bu məhsullar məhz özəl sektorun payına düşürdü ki, bu da kənd təsərrüfatında aparılan islahatların uğurlu nəticəsi idi. 1995-2001-ci illər ərzində kənd təsərrüfatında həyata keçirilən islahatlar mülkiyyətin özəlləşdirilməsi və fermerlərə göstərilən dövlət dəstəyi sayəsində bütün əsas məhsul növləri üzrə yüksək nəticələr əldə olundu.

Bu nailiyyətlər Naxçıvan Muxtar Respublikasının əhalisinin ərzaq təminatını, əsasən, yerli istehsal hesabına ödəməyə imkan verdi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Müasir dövrdə Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Naxçıvan Dövlət Texniki Kolleci öz əhatə dairəsində günü-gündən inkişaf edir. 100 illik tarixi olan kollec vətənimizə, dövlətimizə, el-obamıza layiq, təhsilli və nizam-intizamlı gənclər yetişdirməyi qarşısına məqsəd qoymuşdur. Belə ki, bir əsr boyunca fəaliyyət göstərən bu təhsil ocağı muxtar respublikanın tanınmış kolleclərindən biri olmuşdur. Bu kitabda gənc təhsilalanlar üçün lazımi şəraitin qurulması, o cümlədən

kollecin inkişaf istiqamətlərində zaman keçdikcə istər təhsil, istərsə də təlim metodlarından istifadənin inkişafı vurğulanmışdır.

Ümumiyyətlə, çalışdığımız, təhsil aldığımız kollecin 100 illik tarixi haqqında məlumatlanmaq bizim üçün olduqca vacibdir. Necə deyərlər: "Keçmişini bilməyən, gələcəyini qura bilməz...". Əlbəttə ki, biz də bütün imkanlarından yararlandığımız kollecin keçmişini yaxşı bilməliyik ki, onun daha da inkişaf etməsi üçün lazımi köməyi düzgün və vaxtında göstərə bilək.

Azərbaycanın aprel çevrilişindən sonra SSRİ-nin tərkibinə daxil olması və öz müstəqilliyini itirməsi olduqca məyusedici hal idi. Belə bir sistemdə yaradılan texnikumların bu cür şəraitdə inkişaf etməsi olduqca çətin idi. Tarix boyu yadelli işğalına, dövlətlərin münaqişə ocağına çevrilən torpaqlarımız Ulu Öndərin siyasi irsinin layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu siyasəti və igid oğulların qəhrəmanlığı sayəsində azad edilmiş və vətənimiz öz suveren hüquqlarına əbədi olaraq sahib olmuşdur.

Təhsil vətənimiz, gənclərimiz, dövlətimiz üçün çox önəmlidir. Yalnız təhsil varsa, bir dövlət, bir cəmiyyət, bir xalq inkişaf edər və böyüyər. Əlbəttə ki, maarifçilərimizin – ziyalılarımızın bu sahədə rolu olduqca böyük olmuşdur. Axı bizim qurtuluşumuz təhsil idi.... Axı əsas məqsəd "Xalqı qəflət yuxusundan oyatmaq idi..." Azərbaycanın görkəmli ziyalıları bu sahədə irəliləyişlər etmiş və nəticədə savadlı, ziyalı bir cəmiyyət formalaşmağa başlamışdır. Vaxtilə savadsızlığa qarşı yaradılan mübarizə komissiyasına artıq ehtiyac duyulmamışdır. Çünki cahilliyin, avamlığın, əsarətin və köləliyin yeganə çıxış yolu təhsildir.

Müasir dövrdə təhsil sistemi muxtar respublika ərazisində hərtərəfli şəkildə, dövrün tələblərinə uyğun, dünya təhsil sisteminə inteqrasiya olmaq üçün innovativ formada inkişaf edir. Təhsil sistemi müasir təlim üsullarına cavab verir və olduqca interaktiv üsullarla tədris olunmuş bir şəkildə irəliləyir. Ümummilli Lider Heydər Əliyevin təhsil sahəsindəki həssaslığı, təhsilə verdiyi dəyər hər zaman insanların diqqətini cəlb etmişdir. Ulu Öndərin siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğı

sayəsində bu gün Azərbaycan Respublikasında təhsil sistemi olduqca irəliləməkdədir.

Əziz oxucular!

Bir əsrlik yol asan olmamışdır. Bu yolun hər bir mərhələsində ağır və çətin illərdə də, inkişaf və tərəqqi dövrlərində də minlərlə insanın əməyi, zəhməti və fədakarlığı dayanır. Bu kitabı yazmaqla həmin insanlara – müəllimlərə, tələbələrə, rəhbər şəxslərə və adı çəkilməyən minlərlə zəhmətkeşə minnətdarlıq borcumuzu bir qədər də olsa yerinə yetirmiş oluruq. Bu əsər üzərində çalışarkən məqsədimiz sadəcə keçmişi araşdırmaq deyil, həm də gələcək nəsillərə örnək olacaq dəyərləri, şəxsiyyətləri və ənənələri önə çıxarmaq olmuşdur.

Ümid edirik ki, aparılan çoxsaylı araşdırmalar nəticəsində yazılan bu kitab sizlər üçün faydalı olar. Sonda bu kitabın ərsəyə gəlməsində bizə dəstək olan hər kəsə, xüsusilə Naxçıvan Dövlət Arxiv İdarəsinə, elmi məsləhətçilərə və kitabı diqqətlə oxuyacaq siz - əziz oxuculara dərin təşəkkürümüzü bildiririk!

## ƏDƏBİYYAT


1. NMR DA, f.9, s.1, iş.20.
2. NMR DA, f.9, s.1, iş.145 (2008-2011-ci illər).
3. NMR DA, f.9, s.1, iş.151 (1996-2012-ci illər).
4. NMR DA, f.9, s.1, iş.35.
5. NMR DA, f.9, s.1, iş.54.
6. NMR DA, f.9, s.1, iş.56.
7. NMR DA, f.9, s.1, iş.40.
8. NMR DA, f.9, s.1, iş.21 (1940-1941-ci illər).
9. NMR DA, f.9, s.1, iş.24 (1942-1943-cü illər).
10. NMR DA, f.9, s.1, iş 25 (1942-1944-cü illər).
11. NMR DA, f.9, s.1, iş.126.
12. NMR DA, f.9, s.1, iş.18 (1939-1940-cı illər).
13. NMR DA, f.9, s.1, iş.31 (1947-1948-ci illər).
14. NMR DA, f.9, s.1, iş.29 (1943-1950-ci illər).
15. NMR DA, f.9, s.1, iş.2 (1935-ci il).
16. NMR DA, f.9, s.1, iş.4 (1936-1937-ci illər).
17. NMR DA, f.9, s.1, iş.6. (1937-1939-cu illər)
18. NMR DA, f.9, s.1, iş.10 (1938-1940-cı illər).
19. NMR DA, f.9, s.1, iş.16 (1939-1940-cı illər).
20. Cəfərov, F.A., Hüseynov, X.A. (2021). Naxçıvan Muxtar Respublikasında mədəni quruculuğun inkişaf tarixindən (1920-1945-ci illər) I cild, Naxçıvan.
21. Hüseynov, X.A. (2016). Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər), Naxçıvan.
22. Sadıqov, S. (1995). Naxçıvan Muxtar Respublikası tarixindən, Bakı.
23. Cəfərov, H. (2011). Naxçıvanda təhsil: inkişaf yolu və imkanları, Bakı.

| | |
|---|---|
| Direktor: | Məhəmmədli Məmmədli |
| Mətbəə müdiri: | Vidadi Kazımov |
| Baş redaktor: | Zəhra Rəhimova |
| Qrafik-dizayner: | Sahilə Abbasova |
| Redaktor: | Zərri Məmmədova |
| Korrektor: | Xanım Məmmədova |
| Aparıcı korrektor: | Sitarə Əlizadə |
| Kompüter operatoru: | Rəhimə Hacıyeva |

Çapa imzalanmışdır: 10.07.2025
Formatı: 60x90, 16/1, həcmi: 6.62 ç/v.
Tiraj: 60, sifariş № 050

NDU NƏŞRİYYAT